www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20 dekabr 2016-cı il Çərşənbə axşamı № 283 (6604) Qiymәti 60 qəpik

**Xəbər**

## Rusiyanın Türkiyədəki böyük elçisinə qarşı terror - səfir öldürüldü

yazısı səh.2-də

**Gündəm**

### 16 yaşlı oğlanın namus qisası; anasını yatdığı yerdə güllələdi



"Dostları nəvəmə deyiblər ki, anan fahişədir, dözə bilməyib"...

yazısı səh.12-də

### İtkin düşən neftçilərdən xəbər yoxdur, ekspertlər bədbindir

yazısı səh.2-də

### Qızılın satışında yeni dollar "qayda"sı

yazısı səh.15-də

### Sabah ilk devalvasiyanın "il"idir

yazısı səh.4-də

### Ruhaninin İrəvan səfərinə Bakıdan dözümlü reaksiyalar

yazısı səh.6-da

### 1 və 3 qəpikliklər dövriyyədən çıxarıla bilər

yazısı səh.4-də

### Ter-Petrosyandan hadisə kimi açıqlama və Sərkisyan üçün çıxış yolu

yazısı səh.11-də

### ABŞ və Almaniya ilə ərəb ölkələri arasında neft və terror gərginliyi

yazısı səh.13-də

### Gənc oğlan "məni bağışlayın" deyib, intihar etdi

yazısı səh.14-də

### Qalmaqallı bankirin ölkədən qaçırılmasının şok təfərrüatları - MTN izi

yazısı səh.3-də

### Azərbaycanda dilənçilik biznesə çevrilib

yazısı səh.13-də

## Ermənistanın hərbi balans arzusu basdırılır

# "DƏMİR GÜNBƏZ", KAMİKADZE-DRON, ELEKTRON SİLAHLAR - DÜŞMƏNİN YENİ TƏLAŞI

Müdafiə sənayesi naziri Yavər Camalovun Azərbaycanın modern silah istehsalına hazırlaşması haqda açıqlamaları işğalçı ölkənin rahatsızlığını artırıb; rusiyalı hərbi ekspert: "Azərbaycan Rusiya və ABŞ-ı qabaqlamaq istəyir..."




yazısı səh.8-də

# Gizli NATO, terror qrupları və üç xüsusi xidmət zabiti

Solçu terrordan dinçi terrora qədər uzanan qanlı yol; Klarric-Hiram Abas-Maykl Ledin üçlüyünün dəsti-xətti, təxribat aktları əvvəlcə solçular üzərində sınaqdan çıxarılıb, sonra...

yazısı səh.5-də



*Toğrul İsmayıl:*
**"Türkiyədəki terrorların arxasında xarici güclər var"**

yazısı səh.6-da



*Zahid Oruc:*
**"Müəyyən qüvvələr növbənin onlara da çatacağını gözləyirlər, ona görə də..."**

yazısı səh.7-də



*Sahib Kərimli:*
**"Rüstəm İbrahimbəyovla biznes məsələləri ilə bağlı müzakirə apardıq"**

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 283 (6604) 20 dekabr 2016



# Rüstəm İbrahimbəyov siyasətdən biznesə keçir

**Sahib Kərimli:** "Rüstəm İbrahimbəyovla biznes məsələləri ilə bağlı müzakirə apardıq"

**2013-cü ilin prezident seçkiləri ərəfəsində Azərbaycan siyasətinin ulduzuna çevrilən kinorejissor Rüstəm İbrahimbəyov uzun müddətdir siyasət aləmində görünmür. Sonuncu dəfə kinorejissor Azərbaycanda qardaşı, xalq yazıçı Maqsud İbrahimbəyovun yas mərasimində olub.**

Üzdə görünməsə də, R.İbrahimbəyov Milli Şuranın fəxri sədri kimi hələ də siyasət aləmində adından söz etdirir. Lakin passiv fəaliyyəti ilə onun adı getdikcə siyasətdən silinməkdədir. Bir müddət prezidentliyə Milli Şuranın vahid namizədi olan, məhz onun projesi ilə yaradılan qurumun fəxri sədri kimi o, Azərbaycanda daim müzakirə mövzusudur. Kinorejissorun harada, hansı işlərlə məşğul olması oxucularımızın hər zaman diqqətindədir. Azərbaycanda barəsində 2013-cü ilin əvvəllərində cinayət işi açılan İbrahimbəyovun tez-tez Moskvada yaşadığı barədə mətbuat və ictimaiyyət daxilində xəbərlər yayılıb. Bəzi zamanlarda bu məlumatlar öz təsdiqini də tapıb. Bununla belə Milli Şuranın fəxri sədrinin ABŞ-da da tez-tez görünməsi ilə bağlı yayılan məlumatlar da az deyil.

Bu ilin iyununda Moskvada Rüstəm İbrahimbəyovla görüşən **Milli Şuranın sabiq üzvü, AXCP funksioneri Sahib Kərimli**dən kinorejissorun son durumu barədə fikirlər aldıq. S.Kərimli günlər öncə Milli Şuranın fəxri sədri ilə görüşdüyünü bildirdi: "Nəinki 7 ay öncə, təqribən 10-15 gün qabaq Rüstəm İbrahimbəyovla Türkiyədən dönərkən Moskvada görüşdüm. Keçən dəfə görüşümüzdə Rüstəm müəllim mənə demişdi ki, yolun Moskvaya düşəndə gəl-get. Milli Şuradan çıxarılmağımı onunla müzakirə etdim. O mənə qısaca olaraq dedi ki, siz öz hərəkatınızı yaratmalısınız. Məsələyə münasibəti belə oldu. Rüstəm İbrahimbəyov artıq siyasətlə maraqlanmır. Özü mənə dedi ki, artıq yaşlanmışam və buna görə siyasətlə maraqlanmıram, yaradıcılığımla məşğulam. Rüstəm İbrahimbəyovla daha çox biznes məsələləri ilə bağlı müzakirə apardıq. Ölkədəki bazarlarda meyvə-tərəvəz sahəsində Türkiyədən malların vurulması və burada biznes qurmağın mümkünlüyü barədə ümumi söhbət etdik. Ölkəmizdə kənd təsərrüfatının inkişafı yollarından da danışdıq. Xeyli bilgilər aldım".

❑ **Cavanşir ABBASLI**

# Azərbaycanda vergi amnistiyası elan oluna bilər

**Azərbaycanda vergi amnistiyası elan oluna bilər. APA-nın əldə etdiyi məlumata görə, ölkə başçısı İlham Əliyevin təşəbbüsü ilə bununla bağlı müvafiq qanun layihəsi Milli Məclisə daxil olub.**

Layihə sabah Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirə olunacaq.

Sənədə əsasən, vergi amnistiyası 2017-ci ilin yanvarın 1-dək vergi borcu olan hüquqi və fiziki şəxslərə şamil olunacaq. Belə ki, qeyd edilən dövrədək vergi borcu olan şəxslər 2017-ci ilin yanvar ayında borcunun 30%-ini, fevral ayında 50%-ini, mart ayında isə 70%-ini ödəyərsə borcun qalıq hissəsi amnistiya olunacaq.

**Layihə beynəlxalq təcrübəyə əsaslanaraq hazırlanıb.**

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

# Rusiyanın Türkiyədəki səfiri güllələnib öldürüldü



Səfir Andrey Karlov



Terroru törədən gənc



**Musavat.com-un Türkiyə mətbuatına istinadən verdiyi məlumata əsasən Rusiyanın Türkiyədəki səfiri Andrey Karlov Ankaranın Çankaya bölgəsində qatıldığı rəsm sərgisində silahlı hücuma məruz qalıb.**

Hadisə şahidlərinin verdikləri məlumata görə, səfir danışmaq üçün səhnəyə dəvət alıb, o, danışmağa başlayan andaca kostyumlu bir nəfər silahı qaldıraraq "Hələbin hesabı sorulacaq", deyə bağırıb və dalbadal atəş açıb. Həmin şəxsin sərgi salonuna polis əməkdaşı vəsiqəsi ilə daxil olduğu deyilir.

Səfir Andrey Karlov sui-qəd zamanı yaralanıb və dərhal xəstəxanaya qaldırılıb.

Rusiyanın Türkiyədəki səfiri aldığı yaralardan xəstəxanada keçinib.

Sui-qəsd zamanı digər yaralıların da olduğu bildirilir. Son dəqiqə bilgisinə görə, həmin sui-qəsdçi 40 dəqiqə sonra zərərsizləşdirilərkən öldürülüb.

Qeyd edək ki, bu, son bir həftədə Türkiyədə üçüncü terror hadisəsidir və bu terrorlarda açıq-aydın xarici dövlətlərin izi, həmçinin istiləşməkdə olan Rusiya-Türkiyə münasibətlərini pozmaq məqsədi güdüldüyü müşahidə edilir.

Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Andrey Karlovun aldığı güllə yaralarından keçindiyini təsdiq edib.

**Mariya Zaxarova hadisəni terror aktı olaraq qiymətləndirdiklərini söyləyib:** "Rusiya Federasiyası səfirinin Türkiyədə öldürülməsi məsələsi BMT Təhlükəsizlik Şurası üzvləri qarşısında da qaldırılacaqdır".

## "Sınaq imtahanları keçirmək üçün maddi imkanımız yoxdur"

**IX siniflər üzrə sınaq imtahanları yazılı təşkil olunmayacaq, imtahan yalnız onlayn formada keçiriləcək.**

APA-nın xəbərinə görə, bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə deyib. O bildirib ki, IX siniflər üzrə yazılı sınaq imtahanının keçirilməsinə nə şagirdlər, nə də qurum özü hazırdır: "Hazırda sınaq imtahanlarını keçirmək üçün maddi imkanımız yoxdur. Şagirdlər isə öyrəşiblər ki, sınaq imtahanı verəndən sonra təcili cavablarını alsınlar. Amma onlayn formada keçirilən sınaq imtahanlarının nəticələri iki həftə ərzində yoxlanılaraq təqdim olunacaq".

**M.Abbaszadə qeyd edib ki, IX siniflər üzrə buraxılış imtahanının I mərhələsinin nəticələri də 1 ay ərzində yoxlanılacaq və həmin şagirdin şəxsi səhifəsinə yerləşdiriləcək. Hətta ekspertlərin rəylərinin də orada olacağını deyən Şura sədri vurğulayıb ki, yeni qaydalara əsasən imtahan nəticələri attestatlarda yalnız balla yazılacaq**: "Mənfi, ya müsbət, yaxşı və pis nəticə toplaması orada yazılmayacaq. İmtahanda hansı qiymət almasından asılı olmayaraq, şagird attestat alacaq. İmtahanın nəticələrinə əsasən şagirdlər orta ixtisas təhsili müəssisələrinə sənəd verə biləcəklər".

M.Abbaszadənin sözlərinə görə, bu il IX siniflər üzrə buraxılış imtahanları yeni qaydalarla keçirildiyi üçün I mərhələnin nəticələrinə əsasən hər hansı bal məhdudiyyəti qoyulmayacaq. I mərhələdən 0 bal toplayan şagird sonradan müsabiqənin II mərhələsində, həmçinin orta ixtisas təhsili müəssisələrinə keçirilən müsabiqədə iştirak edə biləcək.

**DİM Direktorlar Şurasının sədri deyib ki, iyunun 14-də orta məktəblərdə dərslər bitəndən sonra buraxılış imtahanının II mərhələsi keçiriləcək:** "İmtahandan iki gün sonra nəticələr açıqlanacaq. O zaman müəyyən olunacaq ki, hansı balla şagirdlərin kolleclərə sənəd verməsinə icazə veriləcək. Ola bilsin ki, yaxın bir ay ərzində kolleclərə yeni qəbul qaydaları ilə bağlı açıqlama verilsin. Bu qaydalar hələ müzakirə olunur".

# İtkin düşən neftçilərdən xəbər yoxdur, ekspertlər bədbindir

**Dekabrın 15-də Nərimanov adına NQÇİ-nin estakadasının uçması nəticəsində dənizdə itkin düşən 9 neftçinin axtarışı nəticə verməyib. Neftçilərdən birinin cəsədi isə hadisədən bir sutka sonra tapılıb.**

16 dekabr 2016-cı il sərəncamına əsasən Dövlət Dəniz Administrasiyasının (ARDDA) Gəmilərin Hərəkətinin İdarəolunması Milli Mərkəzində Fövqəladə Hallar Nazirliyi (FHN), Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, ARDDA, SOCAR və Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi QSC-nin aparıcı mütəxəssislərindən ibarət tərkibdə yaradılan Qərargah tərəfindən təsdiq edilən plana uyğun olaraq, müəyyən edilən sektorlar üzrə axtarış-xilasetmə əməliyyatları davam etdirilir.

Adı çəkilən dövlət qurumlarına məxsus ümumilikdə 44 gəmi və üzən vasitə, 6 helikopter, habelə 700-dən artıq canlı qüvvə axtarış işlərinə cəlb edilib, intensiv davam etdirilən axtarış - xilasetmə əməliyyatları, uzunluğu 100 km və eni isə 72 km olan geniş ərazini əhatə edir.

Qeyd edək ki, hadisə ilə bağlı dekabrın 16-da Baş Prokurorluq CM-in 162.2-ci maddəsi ilə (ehtiyatsızlıq səbəbindən əmək təhlükəsizliyi qaydalarının pozulması nəticəsində insan ölümü) cinayət işi qaldırılıb.

**"Yeni Müsavat"a açıqlamasında itkin düşən neftçilərin bu günə qədər tapılmamasına münasibət bildirən Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban maraqlı faktlar açıqladı:** "Faktiki olaraq 2015-ci ilin dekabr ayında "Günəşli"də baş verən faciədən sonra da orada itkin düşən neftçilərdən əksəriyyətinin cəsədi tapılmadı. Bu dəfə də eyni hava şəraiti, qasırğa, soyuq və birdən-birə bədən temperaturunun düşməsi, qıcolma, dənizin dibinə düşmə və axının aparmasıE Xatırlayırsınızsa, həmin neftçilərin cəsədini hadisə yerindən 70 kilometr uzaqda tapırdılar. Burada da eyni prosesdir. Sadəcə burada suyun dərinliyi azdır. Ancaq axın güclü olduğundan dalğanın neftçilərin cəsədini böyük bir məsafəyə aparması düşünülə bilər. Bu ərazi sahil zonasından çox da uzaqda olmasa da, qasırğa çox güclü olub. Digər tərəfdən çox güman ki, cəsədlər suyun dibinə enib. Bu necə bir prosesdirsə, əvvəlki qəzada da yaşanmışdı. "Günəşli" qəzasında həlak olan 30 nəfərdən heç 20-nin meyiti tapılmadı".

**Ekspertin sözlərinə görə baş verən bu iki hadisə göstərir ki, belə bir şəraitdə öldükdən sonra insan meyiti suyun üzünə çıxmaya da bilər**: "Çox maraqlıdır, bu qısa müddətdə insan orqanizmində elə bir proses gedir ki, o sonradan meyitin suyun üzünə qalxmasına imkan vermir. Praktika göstərir ki, meyit suyun üzünə qalxmaya da bilər. Çoxları elə bilir ki, Xəzər dənizi filmlərdə gördükləri dəniz kimidir, baxanda dibi görünəcək. Lakin Xəzər dünyanın ən qaranlıq dənizlərindən biridir. Burada 3 metrdən aşağıda heç nəyi görmək mümkün deyil, çünki oraya günəşin şüası keçmir. Ona görə Xəzərin dibində flora inkişaf etməyib. Çünki gün işığı dənizin dibinə düşmür".

❑ **Nərgiz LİFTİYEVA**



# Ali Attestasiya Komissiyasının sədri vəfat etdi

**Prezident yanında Ali Attestasiya Komissiyasının sədri, fizika-riyaziyyat elmləri doktoru, akademik Arif Mehdiyev vəfat edib.**

Mərhumun ailəsindən APA-ya verilən məlumata görə, A. Mehdiyev uzun sürən xəstəlikdən sonra bu gün günorta saatlarında dünyasını dəyişib.

Akademikin xəstəliyi açıqlanmayıb.

Qeyd edək ki, A. Mehdiyev 19 dekabr 1934-cü ildə Bakı şəhərində anadan olub.

Moskvada Rabitə Elektrotexnika İnstitutunu bitirib. O 1992-ci ildən Beynəlxalq mühəndis akademiyasının həqiqi üzvü, 1996-cı ildən isə Amerika astronavtika və aeronavtika institutunun üzvüdür.

Azərbaycan prezidenti İlham Əliyev, dövlət və hökumət nümayəndələri tanınmış alim Arif Mehdiyevin vəfatı ilə əlaqədar başsağlığı veriblər.

Allah rəhmət eləsin!

# Bakıda xəstəxanada həkimin oğlu özünü bıçaqladı

**Bakıda xəstəxanada 19 yaşlı oğlan özünü bıçaqlayıb. "Report"un xəbərinə görə, hadisə 2 saylı Psixiatrik Klinik Xəstəxanasında qeydə alınıb.**

Belə ki, 1997-ci il təvəllüdlü F.M. Nərimanov rayonu Ziya Bünyadov prospekti 48 ünvanından 2 saylı Psixiatrik Kliniki Xəstəxanaya gətirilib. 19 yaşlı gənc xəstəxanada özünü öldürmək məqsədi ilə bədən nahiyəsinə iki bıçaq zərbəsi vurub. Nəticədə o, ağır xəsarət alıb və 1 saylı Şəhər Klinik Xəstəxanasına yerləşdirilib.

F.M.-nın yaxınlarının dediyinə görə, o, anası ilə dəfələrlə mübahisə edib. Nəticədə anası onu 2 saylı Psixiatrik Kliniki Xəstəxanaya göndərib.

Onun anası Təcili Təxirəsalınmaz Yardım Xidmətində həkim kimi fəaliyyət göstərir.

Faktla bağlı araşdırma aparılır.

YENİ MÜSAVAT
N 283 (6604) 20 dekabr 2016

**2012-ci ilin avqustunda qapadılan "Royalbank" ASC-nin çökdürülməsində "MTN çetesi"nin əli olub. Bu haqda redaksiyamıza daxil olan xəbərdə deyilir ki, bankın İdarə Heyətinin sədri, İran mənşəli ABŞ vətəndaşı Cam Əli Mohammad Hassan oğlu Eldar Mahmudovun təsiri altına salınıb. Bank rəhbərinə ən müxtəlif yollarla təzyiqlər göstərilməklə sabiq nazirin şəxsi maraqları təmin edilib. Son nəticədə isə bank müflis həddinə gətirilib və lisenziyası geri alınıb.**

# Qalmaqallı bankirin ölkədən qaçırılmasının şok təfərrüatları - MTN izi




## "Royalbank"ı çökdürən Eldar Mahmudov sonradan Əli Camın Azərbaycanı gizli şəkildə tərk etməsinə köməklik göstərib

Uzun illər Azərbaycanda fəaliyyətdə olan bank üzərindən xaricdə olan hesablara "qara pul" köçürmələri baş tutub. Cinayətlərə etiraz edən bankın filial müdirləri isə ən müxtəlif bəhanələrlə həbsə göndəriliblər. Həbslərin gerçəkləşdirilməsi üçün əsas kimi isə Ə.Camın imzası ilə MTN və digər qurumlara göndərilən məktublar olub. Həmin məktublara əsasən cinayət işləri başlanıb, günahı qanunsuzluqlara etiraz etməkdən o yana keçməyən filial müdirləri qandallanıblar. "Royal bank" ASC-nin "Xəzər" filialının rəhbəri Rinad Məmmədov da Əli Camın imzası ilə MTN-ə göndərilən məktub əsasında tutulanlardandır.

MTN tərəfindən həbsindən sonra R.Məmmədov CM-nin 179.3.2, 308.2 və 193-1.3.2-ci maddələri ilə ittiham olunaraq sonradan uzun müddətə azadlıqdan məhrum edilmişdi. Həbsdə olduğu dövrdə R.Məmmədov başına gələnlər haqda mətbuata geniş materiallar yollamışdı.

**Mətbuatda dərc olunan həmin müraciətdən sitat:**

"Qısa desək, Samir Əkbərov Əli Camın göstərişinə əsasən özləri istədikləri qaydada idarə etmişlər. Bundan əlavə Əli Cam sonradan filiala müşahidə şurasının üzvi Famil Teymurovu uktaru təyin etməklə, filiala Əmir Adeli adlı şəxsi şərik kimi təqdim etdi. Əmir Adelin banka gələndən bir müddət sonra mənə dedi ki, işçilərdən bir neçəsinin çıxartmaq lazımdır. Məndən soruşduqda nə üçün? O, cavab verdi ki, özümlə gətirdiyim adamları işə götürəcəyəm. Filialda onun üçün əlavə otaq icarəyə götürüldü, mebel alındı və Baş Bankın göstərişi ilə filialın bütün kredit dosyaları onun otağına yığıldı. O, əvvəl "Az Sığorta" şirkətinin müdiri olub. Ordan vəzifəsindən kənarlaşdıqdan sonra Əli Cam Əmir Adelini mənim ilə birgə fəaliyyət üçün təqdim etmişdi. Famil Teymurovun rəhbərliyi ilə dəfələrlə filialda iclas keçirilmişdi. Əmir Adeli filiala Röyal Bankın idarə heyətinin üzvi kimi təqdim olunmuşdu. *(O, özü ingilis və iran vətəndaşıdır)* Onun gəlişindən sonra isə, İran İslam Respublikasına, Röyal Bankın orada olan qeyri rəsmi şöbəsində pulların gizli köçürülməsini təkid edirdilər.

Başqa bir hal isə Əli Cam özü şəxsən mənə təkid edirdi ki, mən İran və Norveqiya ikili vətəndaşlarının adına, lakin onlar Azərbaycanlı olmadıqları halda hesab açaraq, onlara Platinium və İnfinity Plastik kartları verməklə, onlara 100.000-150.000 ABŞ dolları kredit xətti ayırıb plastik hesabına keçirdim. Onu da qeyd edim ki, həmin kartlar müştəriyə təqdim edilməsi üçün onların depozit hesabında ən azı 50.000 AZN olmalıdı. Həmin şəxslərin adları:

**1. Marandi Cavad**
**2. Marandi Tərminə Əli qızı**
**3. Aydari Peyman**
**4. Otero Saborido Guan Gose**
**5. Badid Arira Gesus**

Bütün bunlara mən qəti etiraz etdim".

R.Məmmədov etirazından bir müddət sonra həbsə alınıb.

R.Məmmədovun qeyd etdiyi kimi ümumilikdə "Royal bank" ASC rəhbəri 15 filial müdirinin həbsində vasitəçi olub. Bu həbslər bank filiallarında uzun-uzadı yoxlamalar, orada hesabları olan şəxslərin sorğu-suala çəkilməsi, pulların qaynaqları haqda suallarla bezdiriliblər, son nəticədə pulları əllərindən alınıb. Bank müştərilərinin vəsaitlərinin "xortumlanması" Eldar Mahmudov-Əli Cam işbirliyinin istiqamətlərindən biri olub.

Bundan başqa bankın filiallarında çalışanları obyektlərinin əllərindən alınması faktları da var. Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin idarə rəisi olmuş generalı Sübahir Qurbanovun adına Əli Cam vaxtilə xeyli əmlak özəlləşdirib. Belə əmlaklardan biri hazırda Sübahir Qurbanovun işi üzrə zərərçəkənlərdən biridir. Onun Gəncədə atasından qalma əmlakını Əli Cam fırıldaq yolu ilə Sübahir Qurbanovun oğlunun adına keçirib.

2012-ci ildə Mərkəzi Bank "Royal bank" ASC-nin lisenziyasını ləğv edəndən sonra bankda başlanan yoxlamalar nəticəsində illərlə bankda baş verən qanunsuzluqlar üzə çıxıb. Lakin banka lisenziya verilməməsi əslində bankın qanunsuzluqlar içində itib-batması, İranla ilişgilərinə görə olub. Məsələ burasındadır ki, "Royal Bank" fəaliyyətdə olduğu dövrdə İranın çirkli pullarının "yuyulması" barədə məlumatlar vardı. Hətta məşhur "WikiLeaks" saytının yaydığı məxfi materiallarda da bu haqda bəhs olunurdu.

2013-cü il fevralın 21-də Baş Prokurorluq "RoyalBank" ASC-nin vəzifəli şəxslərinin külli miqdarda özgə əmlakını mənimsəmələrinə görə həbs edilmələri haqda rəsmi məlumat http://www.genprosecutor.gov.az/news/4/315 ttp://www.genprosecutor.gov.az/news/4/315 yaymışdı.

Həmin məlumatda deyilirdi:

"RoyalBank" Açıq Səhmdar Cəmiyyətinin vəzifəli şəxslərinin qanunsuz hərəkətləri barədə Vergilər Nazirliyindən daxil olmuş cinayət işinin istintaqı Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsində davam etdirilir. Müəyyən edilmişdir ki, ASC-nin "Tovuz" filialının müdiri Müseyibov Ədalət Nurəddin oğlu cəmiyyətin Müşahidə Şurasının sədri Cam Əli Mohammad Hassan oğlu və qeyriləri ilə qabaqcadan əlbir olaraq Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyindən kənd təsərrüfatı təyinatlı kreditlərin verilməsi məqsədilə bankın hesabına köçürülmüş külli miqdarda özgə əmlakını ələ keçirmək məqsədilə kənd təsərrüfatı krediti almaq üçün filiala müraciət etmiş Tovuz rayon sakinləri Nizami Qarayev, Seyfəddin Abbasov və İsbəndiyar Müseyibovun adına müxtəlif məbləğlərdə kreditlər rəsmiləşdirməklə ödəniş sənədlərini vətəndaşların özlərinə imzalatdıraraq pulu vətəndaşlara verməyib kassadan qanunsuz olaraq götürməklə 400.0 min manat məbləğində pulu mənimsəyərək talamışlar.

İstintaqla həmçinin müəyyən edilmişdir ki, ASC-nin "Gəncə" filialının müdiri Tağıyev Anar Qalib oğlu cəmiyyətin Müşahidə Şurasının sədri Əli Cam və qeyriləri ilə qabaqcadan əlbir olaraq qeyd edilən Dövlət Agentliyindən kənd təsərrüfatı təyinatlı kreditlərin verilməsi məqsədilə bankın hesabına köçürülmüş külli miqdarda özgə əmlakını ələ keçirmək məqsədilə kredit almaq üçün filiala müraciət etmiş ayrı-ayrı şəxslərin adlarına ümumilikdə 1 milyon 120.0 min manat məbləğində kredit rəsmiləşdirmişdir. Bundan sonra ödəniş sənədlərini vətəndaşların özlərinə imzalatdırmaqla həmin vəsaitdən cəmi 67.0 min manatını vətəndaşlara verməklə, qalan məbləğləri isə kassadan qanunsuz olaraq götürməklə ümumilikdə 1 milyon 53 min manat məbləğində pulu mənimsəyərək talamışlar. Ədalət Müseyibov və Anar Tağıyev Cinayət Məcəlləsinin 179.3.2-ci *(mənimsəmə və ya israf etmə külli miqdarda törədildikdə)* maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilmişdir. Hazırda qeyd edilən cinayət işi üzrə tam, hərtərəfli və obyektiv istintaq aparılmaqla, vurulmuş ziyanın ödətdirilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir".

Həmin dövrdə digər şəxslər həbs edilsələr də, Əli Cam Eldar Mahmudovun himayəsi altında ölkədən qaça bilib. Bu gün Azərbaycandan çıxarılan milyonlarla dolların hesabına xaricdə kefindədir.

***Mövzunu davam etdirəcəyik.***

❑ **E.HÜSEYNOV**

# Bir şəkilin tarixçəsi - köhnə bakılılar



## Məşhur fotoda yer alan "Yeni Müsavat"ın əməkdaşı danışdı

**Uzun müddətdir ki, bir foto "Köhnə bakılılar" adı altında sosial şəbəkələrdə, internet resuslarında, mahnı və meyxana kliplərində tez-tez qarşımıza çıxır. Xüsusən də müğənni Eyyub Yaqubovun Bakı haqqındakı mahnılarına çəkilmiş kliplərində bu şəkillə tez-tez rastlaşırıq. Şəkildə 70-ci illərin dəbinə uyğun kostyumda, başlarında "aerodrom papağı" olan təxminən 22-23 yaşlarında olan 9 gənc əks olunub. Arxa fondan şəklin Bakı Bulvarında çəkildiyi aydın görünür.**



Maraqlıdır ki, şəkildəki gənclərdən biri "Yeni Müsavat"ın əməkdaşı Elşən Məmmədəliyevdir (Balaxanski). Bu məşhur fotonun tarixçəsini aydınlaşdırmaq üçün əməkdaşımız E.Məmmədəliyevlə söhbətləşdik. Sən demə, maraqlı şəkilin həm də maraqlı əhvalatı var imiş. E.Məmmədəliyevin sözlərinə görə "aerodrom papaqlı" gənclər vaxtilə Bakının Balaxanı kənd məktəbində eyni sinifdə oxuyan dostlardır. Şəkil isə 70-ci illərdə deyil, 1999-cu ildə çəkilib: "1993-cü ildə orta məktəbi bitirəndən sonra da dostluğumuz davam edirdi. 1999-cu ildə sözü bir yerə qoyub, o cür kostyum, papaq tikdirib şəkil çəkdirdik. O şəkildə mənim 22 yaşım var idi. O vaxtı çox sayılıb-seçilən "Sabunçu bazarı"na getdik.

Bazarın yaxınlığında cuhudlar - yəni yəhudilər məhəlləsi var idi, deyəsən, papağı da tikən yəhudi idi. Papaqları tikdirdik və kəndin içərisində o geyimdə gəzməyə başladıq".

**Elşən Məmmədəliyevin sözlərinə görə "aerodrom papaqlılar" kənddə marağa səbəb olub. Daha sonra qeyri-adi gənclər "xüsusi geyimlərini" Bakının mərkəzində də nümayiş etdirməyi qərar alırlar. Bununla da çox maraqlı macəralar yaşayırlar:** "Dedik, gedək şəhərdə də "aerodrom papaqlılar"ı görsünlər. Oturduq taksiyə gəldik Əzizbəyov metro stansiyasının (indiki "Koroğlu" red.) yaxınlığına. Taksidən düşəndə camaatın bizə olan təəccüblü və maraqlı baxışlarının gördük. Hamı fikirləşirdi ki, görəsən bunlar haradan gəlib? Bəlkə də elə düşünürdülər ki, biz klip çəkilişləri edirik. Cavan idik, bəzilərimiz əsgərlikdən təzəcə gəlmişdik, dünya vecimizə deyildi... Beləliklə, düşdük metro stansiyasının içərisinə. O vaxt "jeton" sistemi var idi. Bizi "jeton"suz, xüsusi imtiyazlı şəxslər üçün nəzərdə tutulmuş yerdən keçirdilər. Polisin də xoşuna gəlmişdi ki, bu "köhnə bakılılar" hardan gəlir (gülümsəyir). Metronun içərisində bizdən hardan gəldiyimiz barədə suallar verirdilər... Gəlib çıxdıq Sahilə, getdik bir restoranda oturduq, yedik-içdik, orda da bizdən pul almadılar, elə bil hamını köhnə xoş günlərinə qaytarmışdıq".



**Şəkilin internet resuslarında və digər yerlərdə geniş yayılmağına gəldikdə isə bunun da əsas səbəbkarı qəhrəmanımız Elşən Məmmədəliyevin özü olub. Dediyinə görə təxminən 4 il bundan əvvəl öz facebook səhifəsində şəkili paylaşarkən bu qədər diqqət cəlb edəcəyini ağlına da gətirməyib:** "O şəkildən hər birimizdə var idi. Mən öz şəkilimi dostum Eminə xatirə şəkili kimi vermişdim, arxasında da tarixini yazmışdım. Emin qəflətən rəhmətə gedəndən sonra atası Arif əmi həmin şəkili özümə qaytardı. Mən də onu götürüb redaksiyaya gətirdim və günlərin birində sosial şəbəkədə paylaşdım. Lakin gözləmirdim ki, şəkil bu qədər tirajlanar, yayılar. Hətta onu özünküləşdirməyə çalışanlar da tapılır. Bəziləri istəyir ki, şəkildəkiləri öz kəndlərinin sakinləri kimi təqdim etsinlər. Məsələn, şəkili paylaşırlar, sonra da altından şərh yazırlar ki, "bunlar filan kəndəndirlər". Lakin əksəriyyət bilir ki, şəkildəkilər Balaxanı kənd sakinləridir.

**"Bəs növbəti belə şəkillər gözlənilirmi" sualına həmkarımız "nə bilim, bəlkə də... Sözün düzü, bizim hamımızı birləşdirən adam sinif yoldaşımız Emin idi. Biz hamımız onun ata evinə yığışırdıq, dadımıza yetən ən çox o idi. İndi onsuz necə alınar bilmirəm" cavabını verdi.**

❑ **Xalìdə GƏRAY**



# Antifris içənlərin sonu

Samir SARI

**O vaxt (30 il əvvəl) alkoqolizmə qarşı mübarizə başlayanda biz çox gənc idik, yetkin həyata yenicə atılmışdıq, əlimiz təzə-təzə badə tuturdu. Durduq yerdə Qorbaçov qədəhlərimizə zəhər damızdırmışdı, hiddətli idik.**

Bir dəfə dekan müavinimiz Sarif müəllim bu xüsusda danışarkən dedi ki, siz bilmirsiniz (burasını çox düz deyirdi, doğrudan da bilmirdik), Qorbaçov bu addımı atmağa məcbur idi, çünki spirtli içkilər rus millətinin genefondunu məhv etmək üzrəydi.

Danışırdılar ki, bir səhər Qorbaçov səhər tezdən Leninqradda bir zavoda gedib, görüb ki, fəhləli, müdirli hamısı spirt iyi verir. Guya sovet lideri əsəbiləşib, deyib ki, əgər bunlar səhər açılan kimi ağulanmağa başlayıblarsa, demək, günorta və axşam da içəcəklər, bəs necə işləyəcəklər.

Ona görə də o, spirtli içki istehsalını və istemalını yasaqlamağa cəhd göstərdi. Ölkədə böyük bir kampaniya başlandı, hər yerdə əyyaşları ifşa edirdilər. (Bizdə bu kampaniyadan sui-istifadə edənlər də olmuşdu, məsələn, bir baza müdirini bir parç pivə içdiyinə görə təşkil edib "vurdurmuş"dular).

O vaxtlar bizim camaat da bərk vururdu, intəhası, bizimkilər "əyyaş", "içki düşkünü" ünvanını yaxına qoymurdular, eləcə ruslara "alkaş" deyə-deyə onlardan da çox içirdilər. Şəxsən özüm 13-15 nəfərlik "vuranlar" qrupunun bir "kletka" (20 şüşə) "andropovski" arağı bir oturuma içdiyinin, hələ çatışmazlığı hiss edərək araq dalınca dükana uşaq göndərdiklərinin şahidiyəm.

Bununla belə, bizimkilər deyirdilər, bu "zapret" ruslar üçündür, bizə nə dəxli var, onlar içib alkaşlıq eləyir, donub ölürlər, biz isə iştah üçün, kefiköklük üçün içirik.

Bir dəfə ölkəmizdə hansı bölgədə arağın çox içildiyinə dair dostlar arasında monitorinq apardıq, ənənəvi "içən rayonlar" - Qazax, Tovuz, Ağdam, Füzuli, Cəbrayıl, Cəlilabad, Şəmkir autsayder oldu, ortaya çıxdı ki, Zəngilan, Dəvəçi, Göyçay, Xaçmaz, Qusar kimi liderliyə can atan, perspektivli rayonlar da var.

Yəni o vaxtlar ölkədə əyninə müstəqil şəkildə özü aldığı şalvarı geyən hər bir kişinin (həmişə olduğu kimi, istisnalar var) başlıca qayğısı yeyib-içmək idi.

Belə bir vaxtda spirtli içkilərə yasaq gəldi, araq-çaxır tapılmaz oldu. Bax, məhz onda işbazlar ortaya çıxdı və saxta içkilərlə kütləvi şəkildə əyyaşlaşan sovet xalqının spirtə tələbatını ödəməyə çalışdılar. Bütün taksi sürücüləri araq satırdı. Mağazalarda olmurdu, amma başqa hər yerdə araq tapmaq olardı. Ölkəmizdə "meyvə arağı" adlanan mənşəyi bilinməyən, spirtli zəhərlər də çoxalmışdı. Saxta araqlardan zəhərlənənlərin sayı-hesabı yox idi, statistikası aparılmırdı.

2000-ci ildə Göyçayda seçkiqabağı ziyafət zamanı məşhur şairin qohumu olan bir restoran şefi süfrəyə bahalı araq gətizdirdi, dedi ki, bu, təmiz araqdır, əmin-arxayın içə bilərsiniz. Sonra o, əlavə etdi ki, bir ara buraxılan ucuz "napitok"lar rayonda nə qədər alkaş varsa, hamısının axırına çıxdı: "Qırılıb getdilər".

Budur, Rusiyadan gələn iki ayrı-ayrı xəbərdə insanların spirtli içkilərdən kütləvi şəkildə zəhərləndikləri deyilir. Biri bizimkilərin işidir, o birilərinin istehsalçıları barədə hələ xəbər yoxdur.

Bu göstərir ki, indiki zamanda spirtli içkilərin kəmiyyəti və çeşidi nə qədər bol olsa da, hələ də saxta içkilər içib qırılanlar var.

Hər il Türkiyədə də nə qədər turist sırf saxta içkilərdən, xüsusilə də "vodka"dan zəhərlənir, ya ölürlər, ya da lazaretlik olurlar.

Bir vaxtlar çox və hər şey içənlərə dair məşhur zarafat vardı, deyirdilər, filankəs odekolondan tutmuş antifrisə qədər hər şey içir. Srağagün İrkutskda ölənlər məhz losyon içib ölüblər. Hökumət də losyon satıcılarını tutub.

Sibirin iqliminə yaxından bələd olanlar deyirlər ki, camaatı qınamalı deyil, onlar içməlidirlər, içməsələr, 40-50 dərəcə şaxtaya dayana bilməzlər. Orası düzdür, amma losyon içməklə də şaxtaya dözmək mümkün deyil.

**Uzun sözün kəsəsi, nə içdiyinizə fikir verin, təcrübəli mütəxəssislərə, bu işə ömrünü vermiş adamlara müraciət edin, onlar sizə təmiz arağı necə tanımağın 41 yolunu deyəcəklər. Maariflənmək lazımdır.**

# Sabah ilk devalvasiyanın "il"idir

## Bu il də 21 dekabr üçüncü devalvasiyanın tarixi kimi yadda qala bilərmi?

**Ötən il FED-in uçot dərəcələrinin artırılması ilə bağlı qərarının ardından dekabrın 21-də manatın kəskin devalvasiyaya uğradı. Bu il də təxminən eyni ərəfədə FED-in analoji qərarı verməsi insanları təlaşa salıb. Gözlər 21 dekabra dikilib. Yenidən devalvasiya ola bilərmi?**



Məlum olduğu kimi manat gün-gündən ucuzlaşmaqda davam edir. Hazırda rəsmi məzənnə ilə 1 dollar 1.7525 manata bərabər olsa da, "qara bazar"da dolların real alış qiyməti 2 manata yaxındır. Dollara tələbatın artması və bunun müqabilində bazarda valyuta çatışmazlığı manata təzyiqləri bir qədər də artırır.

Bəs, görəsən bu il də 21 dekabr üçüncü devalvasiyanın tarixi kimi yadda qala bilərmi?

**İqtisadçı-ekspert Qubad İbadoğlu** bildirdi ki, manatla bağlı situasiya ötən ilkindən daha çətindir: "Ötən il dekabrın 21-də indiki ilə müqayisədə manatı qorumaq üçün daha yaxşı imkanlar var idi. Təəssüf ki, indi vəziyyət daha ağırdır. İndiki halda sadəcə olaraq bizim başqa çətinliklərimiz var. Strateji "yol xəritəsi"ndə artıq növbəti ildən tam üzən məzənnə rejiminə keçid nəzərdə tutulub. Manatın tədricən ucuzlaşması da buna xidmət edir. Çünki ehtimal var ki, bu ərəfədə manatın yumşaq şəkildə ucuzlaşması yox, kəskin devalvasiya olsun. Tam üzən məzənnəyə keçəndə manatın əvvəlki vəziyyəti ilə sonrakı vəziyyəti arasındakı fərq kəskin şəkildə dəyişməsin. Tam üzən məzənnə Azərbaycan manatının daha gerçək kursunu müəyyənləşdirəcək. Hazırda həmin gerçək kurs indiki məzənnədən xeyli yuxarıdır. Manatın məzənnəsinin həmin kursa yaxınlaşdırmaq üçün hökumət kəskin devalvasiyaya gedə bilər. Lakin məsələ bundan ibarətdir ki, devalvasiyanın neqativ təsirlərini indiyə qədər həm istehlakçı olaraq biz, həm də sahibkarlar öz fəaliyyətlərində hiss ediblər. Bu da kifayət qədər risk tələb edir".

**Q.İbadoğlu onu da vurğuladı ki, hökumətin alternativ yolu qalmayıb, manatın ucuzlaşması qaçılmazdır:** "Azərbaycan manatı elə kəskin bir dalana dirəyiblər ki, istər-istəməz manat sərbəst üzən məzənnə rejimi ilə tənzimlənməlidir. Əks təqdirdə Mərkəzi Bank, Neft Fondu həmin valyutaları küləyə sovurmaqla məşğul olacaqlar ki, oradan gedən itkilər dövlətin maliyyə ehtiyatlarının daha çox azalmasına gətirib çıxaracaq. İndiki halda gözlənilən odur ki, dövlət özü maliyyə ehtiyatlarının azalmasındansa onun yükünü biznesin və istehlakçının üzərində qoymağa meyllidir. Ola bilər ki, bu devalvasiya dekabrda yox, yanvar ayında olsun. Amma istisna etmirəm ki, tam üzən məzənnəyə keçiddən əvvəl hazırlıq tədbirlərinin tərkib hissəsi olaraq bizim üçüncü hesab etdiyimiz devalvasiya baş versin. İstənilən halda manat ucuzlaşmağa məcburdur".

**İqtisadçı-ekspert Natiq Cəfərli** isə kəskin devalvasiya ehtimalının az olduğunu diqqətə çatdırdı: "Psixoloji baxımdan belə bir gözlənti yaranıb ki, FED-in qərarından sonra Azərbaycanda da manatla bağlı vəziyyət gərgin olacaq. Həm də ona görə ki, insanların valyutaya çıxış imkanları məhdudlaşıb, insanlar dollar ala bilmirlər. Bu da ajiotajın yaranmasına səbəb olub. Hesab etmirəm ki, bir gecəlik kəskin devalvasiya təkrarlana bilər. Hökumət də, Mərkəzi Bank da ən azından anlamalıdır ki, kəskin devalvasiya onsuz da ağır vəziyyətdə olan bank sektorunu tamamilə iflic edə bilər. Bu da iqtisadiyyata daha çox ziyan vura bilər. lakin burada bir məsələ də var ki, son günlərə milli valyutamızın sürətlə dəyərdən düşməsi müşahidə oluna bilər. Sabah *(bu gün-red)* hərrac var və bu hərracdan çıxan nəticə də maraqlıdır. Bu hərracdan sonra məzənnənin hansı sürətlə artacağı bəlli olacaq. Kəskin devalvasiyaya gəlincə belə bir ehtimal var, lakin çox aşağıdır. Ən böyük ehtimal odur ki, manat daha sürətlə dəyərdən düşə bilər. Bu anlamda gələn il üçün daha ciddi təhlükə var. Gələn il Mərkəzi Bankın tam üzən məzənnəyə keçidlə bağlı qərarı var. Bu zamana Mərkəzi Bankın müdaxiləsinə qətiyyən yol verilməyəcək. Ancaq Neft Fondunun valyuta birjasına çıxışlarının təsiri olacaq. Neft Fondu isə kifayət qədər məhdud həcmdə valyuta sata bilər. Gələn ilin büdcə layihəsinə baxdıqda görürük ki, Neft Fondu təxminən 4 milyard dollardan bir qədər çox bir qədər çox valyuta sata bilər. Bu da ölkənin ehtiyaclarını ödəmir. Bu baxımdan 2017-ci ildə daha çox problemlərin yaşanacağı proqnozlaşdırılır".

❑ **Nərgiz LİFTİYEVA**

# 1 və 3 qəpiklilər dövriyyədən çıxarıla bilər

## Ekspert: "Qəpiklərin istehsal olunmasının maya dəyəri öz nominal dəyərindən daha çoxdur"

**Mağazalarda bir çox insanlar onlara 1 və 3 qəpikliklər qalıq kimi veriləndə bundan imtina edir. Vətəndaşlar bu qəpiklərin işlənmədiyini deyirlər.**



Müşahidələr göstərir ki, 5, 3, 1 qəpik kimi xırda pulların dövriyyəsində böyük problemi var. Hətta bu qəpiklərə ictimai nəqliyyatda sürücülər də yaxın durmur. Onları "Bakıkart"a vurub metrolarda istifadə edə bilmirik. Bu cür qəpiklərin yalnız böyük marketlərdə istifadə etmək mümkündür.

1, 3, 5 qəpikliklərdən ibarət 20 qəpik məbləğ düzəldib kiçik bir marketə yaxınlaşdıq. Əlimizdəki pulla salfet almaq istədikdə satıcı xırda qəpikləri görüb "iri pul verin, bu qəpiklər sonra üstümdə qalır, heç kimə verə bilmirəm" deyə irad bildirdi. Ən pis halda 5 qəpikləri alacağını dedi.

Apardığımız müşahidə zamanı da bəlli oldu ki, xüsusən də 1 və 3 qəpikləri heç yerdə götürmürlər. Bu qəpiklərdən sanki hansısa virusdan qaçar kimi qaçırlar.

Əslində isə Valyuta Tənzimlənməsi Haqqında Qanunun 4-cü maddəsinə əsasən, vətəndaş hər hansı müqavilə və əqdi ölkə valyutasının istənilən növü ilə bağlaya bilər. Mövcud qaydalara görə əgər hər hansı bir sahibkarlıq subyekti, belə sikkələri almaqdan imtina edərsə, o zaman vətəndaş mərkəzi banka müraciət etməlidir. Eyni hal 2 dəfə təkrarlanarsa, o zaman Mərkəzi bank tərəfindən həmin obyektin bağlanması ilə bağlı məsələ qaldırıla bilər.

**İqtisadçı ekspert Natiq Cəfərli** 1 və 3 qəpikliklərin dövriyyədən çıxanlması məsələsinin gündəmə gələcəyini dedi: "İnflyasiyanın səviyyəsi artıq o həddə çatıb ki, 1 və 3 qəpikliklərin işlənilməsi üçün şərait də getdikcə azalır. Qəpiklərin istehsal olunmasının maya dəyəri öz nominal dəyərindən daha çoxdur. Yəni 1 qəpiyi istehsal etmək üçün dövlət 1 qəpikdən daha artıq vəsait xərclənməli olur. Çox güman ki, qiymət artımının, inflyasiyanın həddini nəzərə alaraq bu qəpiklərin dövriyyədən çıxarılması məsələsi gündəmə gələcək. Çünki qiymətlərin sürətlə artması, manatın dəyərdən düşməsi bu məsələni də aktuallaşdırır . Dövlətə artıq iqtisadi cəhətdən sərf də etməyəcək ki, 1, 3, 5 qəpikləri istehsal etsin və dövriyyəyə buraxsın. Bir müddət sonra yəqin ki, bu məsələ həllini tapacaq. Amma bu insanlara ziyan vurmaq yolu ilə olmamalıdır. Banklara Mərkəzi Bank tərəfindən xüsusi göstəriş və yaxud da tapşırıq verilə bilər. Əslində qanunla banklar bu qəpikləri götürməlidirlər. Kimin evində, əlində varsa və yaxud da kiçik mağazalarda yığılıb qalmış 1 və yaxud da 3 qəpikliklər varsa, onlar banklar tərəfindən bir dəfəlik qəbul olunub dəyişdirilməlidir və dövriyyədən çıxarılmalıdır. Çox güman ki, belə bir addım atılmağına ehtiyac yaranıb. İndiki qiymət artımı çərçivəsində bu cür qəpiklərin işlədilməsi artıq aktuallığını itirir".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 283 (6604) 20 dekabr 2016

**Qədimlərdə terror ünvanlıydı. Dəqiq təyinatlıydı. Yəni terrorçular o vaxtlar dinc sakinlərə qarşı yaylım atəşləri açmır, qumbaralarını, bombalarını küçələrdə, meydanlarda partlatmırdılar. Qısası, 60-90-cı illərin terroru hakim elita nümayəndələrinə qarşıydısa, indiki benladenlər bu vacib vəzifələrindən hər cür yayınır, daha dinc insanlara qarşı terror aktları törədirlər. O zamanın terroru sol məzmunluydu, indiki terror isə guya islam mənşəlidir.**

# Gizli NATO, terror qrupları və üç xüsusi xidmət zabiti

## Solçu terrordan dinçi terrora qədər uzanan qanlı yol; Klarric-Hiram Abas-Maykl Ledin üçlüyünün dəsti-xətti, təxribat aktları əvvəlcə solçular üzərində sınaqdan çıxarılıb, sonra...













Hürriyet
27 Eylül 1990 Perşembe
Kurucusu: Sedat Simavi 1896-1953
ÖĞRENCİLER !... Yeni programa göre FİZİK-KİMYA MATEMATİK FORMÜLLERİ BUGÜN Hürriyet'le birlikte parasız
Koruması olmayan Hiram Abas, arabasının içinde 4 kurşunla vuruldu
MİT'in eski patronu öldürüldü
Hiram Abas'ı Kadıköy'deki evinin biraz ötesinde kıstıran katiller, çapraz ateş alarak kurşun yağmuruna tuttular ve ellerini kollarını sallayarak kaçtılar



Misal üçün, 1904-cü ildə Rusiya İmperator ailəsi üzvü, böyük knyaz Sergey Aleksandroviç Romanovu qətlə yetirmiş eser terrorçusu İvan Kalayev, namuslu terrorçu imiş. Görəndə ki, knyaz karetada tək deyil, yanındakılar ailə üzvləri, arvadıdır, partlayışı saxlayıbmış sonraya. İvan Kalayev, sonradan bu əsilzadə knyazı atdığı bircə mərmi ilə qətlə yetirir. Ancaq partlayış dalğasını knyaz üzərinə elə ustalıqla göndərir ki, küçədəki təsadüfü insanlar bundan zərər çəkməsin.

Sol terrorçular, bəli, öz amansız qətlləri zamanı humanistliklərini bir saniyə olsun belə unutmayıblar. İndiki terrorçular kimi küçələrdə ağına-bozuna baxmadan kütləvi terror aktları törətməyiblər heç vaxt. Yaxşı, nəyə görə müasir terror, öz ənənəvi yüksək amallarını itirib, çevrildi adi qaniçənliyə, vəhşiliyə? Kim etdi, hansı qüvvə törətdi bu transformasiyanı?

Səsləndirdiyim suallar heç də cavabsız deyil siz düşündüyünüz kimi. Yox, bu sualların cavabı var. Özü də həmin cavabın müəllifləri, adətən axır-axırda bir məxfi adamın, bir xortdanın adını çəkərlər. Dillərinin ucunda "Maykl Ledin" deyə kəkələyib sonra bu adı Ben Laden şəklində aydın tələffüz edərlər.

Elə isə biz də qoy düşək bu müəmmanın izinə. Görək kimdi, hansı yuvanın, üzr istəyirəm hansı kəşfiyyat qurumunun üzvü, məxfi əməkdaşıdır zəmanəmizin bu müasir agent 007-si.

***

On-on beş il əvvəl İsveçrədə Daniel Hanser adlı bir konspiroloq "NATO-nun məxfi ordusu" kitabını çap edərək aləmi vurur bir-birinə. Əlindəki "Tam məxfi!" qrifli sənədlərə söykənərək sübut edir ki, dünyada bir deyil, iki NATO var. Biri tam açıq fəaliyyət göstərir, digəri tam məxfi şəraitdə. Kitabı vərəqlədikcə görürsən ki, bax bu gizli NATO İtaliyada, Türkiyədə əsil "hakimi-mütləq" olub həmişə. Üstəlik, bütün məlum terror aktlarını məhz özü hazırlayıb, ancaq məsuliyyətini həmişə atıb solçuların boynuna. Dünya kommunist hərəkatına qarşı fəaliyyətində heç nədən, ən alçaq təxribatlardan belə çəkinməyib. İtaliyada "Qladio", Türkiyədə "Kontrogerilia" yaxud "Erqenekon" kimi tanınan bu məxfi qurumların yaranma tarixini izləsən, gedib çıxacaqsan ötən əsrə. 50-ci illərin əvvəlinə.

Casus şəbəkələri adətən bircəsi ilə kifayətlənmir. Türkiyədəki, İtaliyadakı bu cür qoşa, dublikat xarakterli şəbəkələr adətən bir-birilərindən tam xəbərsiz, müstəqil fəaliyyət göstərib bəzən yüz minlərlə agenti öz əhatə dairəsində saxlayırmış. Bu cür qoşa şəbəkələrin Türkiyədəki müəllifi, Daniel Hensera inansaq, İstanbuldakı Amerika agentura rəhbəri Dueyn Klarric idi. O da tək deyildi. Məşhur MİT-çi Hiram Abbasla qol-qola fəaliyyət göstərən bu cütlüyü, türk solçularının cəlladı, qənimi kimi indi də yaxşı xatırlayırlar Bosfor sahillərində. Cütlüyün öz dəst-xətti varmış - casuslar, əvvəlcə Livandakı Fələstin qaçqın düşərgələrində partlayışlar, qətllər törədərək öz peşələrinə yiyələnər, sonra bu təcrübələrini Türkiyədə solçulara qarşı təkrarlayarmış. Klarric sonralar hara ezam olunubsa, ora heç vaxt Hiram Abassız getməyib. Latın Amerikasında, Nikaraquada, İtaliyada bu cütlüyün adı çəkiləndə çoxları elə indi də qorxudan tük tökür.

Lakin bir adam da olub bu "uzun plaş və xəncər cəngavərləri" sırasında o vaxt. Maykl Ledin kimi tanınan həmin şəxsin qurduğu əməliyyat planları, məxfi taktika və strategiya indi də bəzi gizli qurumlar tərəfindən uğurla həyata keçirilir. "Klarric-Hiram Abas-Maykl Ledin" üçlüyünün dəsti-xətti, təxribat aktları əvvəlcə solçular üzərində sınaqdan çıxarılıb vaxtilə. Öz səmərəliyini göstərdikdən sonra indi yeni düşmənə - islamçılara qarşı növbəti dəfə gündəmə gətirilib. Yaxşı, neyləyib o vaxtlar bu üçlük? Neynəyib ki, adları tarixə düşüb, təcrübələri indi də məxfi qurumların cəbbəxanasında, arsenalında qorunub saxlanılır? Məxfi qurumların akademiyalarında tədris proqramlarına daxil edilib?

***

**Üçlüyün əsas hiyləsi bu idi:**

**1.** Əvvəlcə, tam müstəqil idealist bir məxfi qurum, sol təşkilat aşkarlanıb nəzarətə götürülür.

**2.** Az sonra, təşkilatın idealist rəhbərləri ya öldürülür, yaxud həbsə atılır.

**3.** Yerlərinə məxfi NATO casusları təyin olunur.

**4.** Təşkilatın içalatı tam əvəzlənsə də, zahiri atributları - adı, simvolları olduğu kimi qalır. Məzmunu isə, əslində marksizm əleyhinə yönləndirilir.

**5.** Axırda bu qurum öz həqiqi hədəflərindən uzaqlaşaraq, dönüb olur NATO nəzarətindəki əsl killer klubu.

**6.** Üzvləri, lazımi tapşırıqları yerinə yetirdikdən sonra axır nəfərinədək öldürülüb qətlə yetirilir.

Həmin taktika və strategiya əvvəlcə İtaliyada özünün tam həllini tapır. Gizli NATO, burda özünə layiq gizli marksist təşkilatı axtara-axtara gəlib çıxır "Qırmızı briqadalar" adlanan məxfi ünvana. Qırmızı briqadaçılar o vaxtlar tam idealist bir təşkilat kimi öz rəhbərlərinin - Renato Kurço, Alberto Françeskini, Mara Kaqolun nəzarəti altında fəaliyyət göstərib, vaxtaşırı xırda-mırda terror aktları törədirdilər bütün Appenin yarımadası ərazisində. ABŞ casusları əvvəlcə təşkilatın birinci nəslini qətlə yetirib, həbsə atırlar. Sonra Korrado Simioni, Silvano Jirotto, nəhayət, Mario Moretti kimi öz casuslarını təşkilatın rəhbərliyinə gətirib ondan öz maraq dairələri çərçivəsində istifadə etməyə hazırlaşırlar. Təşkilatın bir başqa məşhur üzvü - nəşriyyatçı Janjakomo Feltrinelli, xainlərin izinə düşdükdə, NATO casusları özlərini itirmir, bu tanınmış ictimai xadimi öldürmək naminə alçaqlıqdan belə çəkinmirlər. Yazıq Janjakomoya, partlayıcı qurğu ötürüb, deyirlər apar yapışdır bunu Milan ətrafındakı yüksək gərginlik xətlərin üzərinə...

Təşkilatın bir başqa məşhur üzvü - əfsanəvi Mara Kaqol, biləndə ki, əri Renato Kurço qazamatdadı, gecəsini, gündüzünü itirir. Axır, silahdaşlarıyla birgə yadplanetli geyimində qazamata hücum çəkib mühafizəçiləri diksindirib çaşdırır. Ərini azad etdikdən az sonra qətlə yetirilən bu qadın indi İtaliya solçularının ölməz ikonasına çevrilib.

Mara Kaqolun qətlindən sonra "Qırmızı briqada" təşkilatı rəhbərliyi, sözün əsl mənasında casus yığnağına dönür. Sıravi üzvlər dənlənir bir-bir, idarə heyəti kef çəkir. 1978-ci ildə İtaliya baş naziri Aldo Moro, ölkədəki dərin siyasi böhranı cilovlamaq xətrinə, kommunistlərlə birgə koalisiya qurmaq istəyərkən, Maykl Ledin texnologiyalarına dərin ehtiyac yaranır. Gizli NATO, yəni "Qladio" məxfi əməliyyat qurub icrasını tapşırır "Qırmızı Briqada"çılara. Briqadaçılar, Aldo Moronu qaçırdıb az sonra onu qətlə yetirirlər. Cəsədini atırlar Kommunist Partiyasının qərargahı ilə İtaliya parlamenti arasındakı orta nöqtəyə.

İndi-indi bu cinayətin məzarı üzərində haqq-həqiqət çiçəyi cücərməyə başlayıb. Həqiqət bəlli olub. Bəlli olub ki, Aldo Moro solçuların deyil, gizli NATO kimi tanınan yüz minlərlə "Qladio" qurbanlarından ancaq biridir.

***

Bəli, qondarma islam terroruna qədər dünyada ünvansız, belə deyək, qarasına törədilən terror aktları təsadüf edilməyib. Edilibsə, həmin bu qanlı olaylar solçuların deyil, gizli NATO-nun, "Qladio"nun mənfur əməlidir. 1969-cu ildə İtalyanın Bolonyo şəhər vağzalında törədilmiş vəhşi partlayışı da indi ancaq bu cür izah etmək mümkündü.

Maykl Ledin, Hiram Abas, Klarrric kimi mühafizəkar xüsusi-xidmətçilər, peşəkar siyasi texnoloqlar elə-belə, boş yerdən pırt edib qarşımıza çıxmayıblar. Maykl Ledin, deyilənə görə, Amerika konservatorlarının mənəvi atası sayılan məşhur filosof Leo Ştrausun tələbəsi kimi də tanınır. Bu azğın filosof, həmişə xalq kütlələrinin əleyhinə çıxaraq siyasi elitaya üstünlük verib. Hesab edib ki, kütlələrə informasiya deyil, dezinformasiya ötürmək lazımdı. Əsl informasiya isə, çox dəyərli olduğu səbəbdən, ancaq elitaya məxsusdu.

Soyuq müharibə dövründə Klarric-Hiram Abas-Maykl Ledin təcrübəsi, siyasi texnologiyaları NATO-ya imkan verib ki, Türkiyədə, İtaliyada sol hərəkatı qan içində boğub marksizm üzərində müvəqqəti qələbə çalsınlar.

Lakin çox-çox sonralar, elə yaşadığımız bu günlərdə həmin texnologiyalar yenidən arxivdən çıxarılaraq bu dəfə islamçıların əleyhinə uğurla istifadə edilir. Misal üçün, kommunizm üzərində qələbəsindən sonra Maykl Ledin hələ də sakitləşmək bilmir. Bu dəfə onun hədəfi Yaxın Şərq, xüsusən Suriyadır. Məqalələrindən birində o, Suriya ilə İranın məxfi əməkdaşlığına işarə vurub. Hər iki ölkəni xəyallarında birləşdirərək onları gizli geopolitik xəritələrdə "Siran" adlandırmağı təklif edib. Şəxsən mənə elə gəlir ki, Suriyada islamçıların əli ilə həyata keçirilən məxfi əməliyyatın kod adı elə belədi - "Siran".

Götürün "Qırmızı briqada" terrorunun uzun siyahısını. Onu, indiki İŞİD terrorçularının əməlləri ilə tutuşdurun. Görəcəksiz ki, bu terror aktları daban-dabana bir-birini izləyib təkrarlayır. Misal üçün, NATO bilirsinizmi qırmızı briqadaçıları necə maliyyələşdirirdi ki, ortada iz qalmasın? Heç, yerli İtaliya banklarından birisinin qapısını açıq qoyurdu gecələr. Sonra, ünvanı briqadaçılara göstərib, deyirdi gedin ordan öz haqqınızı aparın. Oxşar əməliyyat bu yaxınlarda İŞİD tərəfindən Mosulda həyata keçirilib. Mətbuatda deyilir: "Mosul meri, İŞİD terror təşkilatı tərəfindən İraq milli bankının Mosul şöbəsinin qarət etdiyini açıqlayıb. Təşkilat buradan 420 milyon dollar pul götürüb. Bu, İŞİD-in bütün beynəlxalq terror təşkilatlarından daha zəngin olması deməkdir".

Həəəə. Dəsti-xətt eynidir... Əməliyyatın müəllifi də.

Sabah mənə kimsə desə "əslində dünyada Ben Laden adlı bir adam heç vaxt olmayıb, əvəzində bilirsizmi kim olub? Maykl Ledin!" İnanın, mən buna əsla təəccüblənmərəm.

**Nə fərqi var Keçəl Həsən, ya Həsən Keçəl? Nə fərqi var Maykl Ledin yaxud Ben Laden?**

❑ **Həmid HERİSÇİ**

YENİ MÜSAVAT
N 283 (6604) 20 dekabr 2016

# Ruhaninin İrəvan səfərinə Bakıdan dözümlü reaksiyalar

## Rəsmi Tehranın isə Netanyahu ilə bağlı mövqeyi dəyişməyib: “Azərbaycan bu səfəri qəbul etməməli idi”



**Hikmət Hacızadə:** “İran hökuməti əzəldən Rusiya və Ermənistanla bir strateji oxda birləşib”



**Mirmahmud Mirəlioğlu:** “Netanyahunun Azərbaycana səfəri Tehran üçün bir bəhanədir”



**Sərdar Cəlaloğlu:** “Əgər Azərbaycan əleyhinə zidd hər hansı bir müqavilə imzalanacaqsa, təbii ki, etiraz etməliyik”

**Dekabrın 21-də İran prezidenti Həsən Ruhani Ermənistana səfər edəcək. İran Prezident Administrasiyasının mətbuat xidmətinin rəhbəri Pərviz İsmaili deyib ki, H.Ruhani region və qonşu ölkələrlə əlaqələrin dərinləşməsi və gücləndirilməsi məqsədi ilə qonşu ölkəyə gedəcək.**

P.İsmaili deyib ki, bir günlük səfər zamanı H.Ruhani ermənistanlı həmkarı ilə görüşəcək və ikitərəfli əlaqələrin inkişafına dair danışıqlar aparacaq. Eləcə də səfər çərçivəsində iki ölkə arasında bir neçə əməkdaşlıq sənədi imzalanacaq. İki ölkənin iş adamlarının iştirakı ilə biznes forum keçiriləcək.

P.İsmaili bildirib ki, H.Ruhani Ermənistandan sonra Qazaxıstana, daha sonra isə Qırğızıstana səfər edəcək. H.Ruhaninin iki müsəlman ölkəyə yolunu işğalçı Ermənistandan salması isə heç şübhəsiz birmənalı qaşılanmır. Azərbaycan ərazilərini 25 ildən artıqdır işğalda saxlayan, təcavüzkar siyasətindən əl çəkməyən Ermənistan bölgəni təhdid edən davranışlar sərgiləməklə təkcə Azərbaycanı deyil, region ölkələrinin hər birinin, o cümlədən İranın təhlükəsizliyini təhdid edir. Elə bu ilin aprel döyüşləri zamanı Ermənistan ordusunun atdığı mərmilərdən bir neçəsi İran ərazisinə düşmüşdü. Unudulmamalıdır ki, 1992-ci ilin mayında Şuşa şəhəri məhz İranın vasitəçiliyi ilə Tehranda keçirilən danışıqlar zamanı işğal edildi və bununla Ermənistan müsəlman qonşumuzun da imicinə sarsıdıcı zərbə vurdu. Ancaq çox təəssüf ki, İran dövləti müsəlman qonşusunun ərazilərini işğalda saxlayan Ermənistana qarşı qardaş Türkiyə kimi sanksiya tətbiq etmək əvəzinə, işğalçıya Ter-Petrosyanın sözü ilə desək, “nəfəslik” rolunu oynamaqla onu xilas etdi. Rusiyadan dəstək almasının, üstəlik, İranla əməkdaşlığının nəticəsində Ermənistan Dağlıq Qarabağ ətrafındakı 7 rayonu da işğal etməyə, nəticədə Azərbaycan-İran sərhədlərinin bir hissəsinə nəzarəti ələ keçirməyə nail oldular. Hazırda isə İran-Ermənistan münasibətlərində yeni mərhələ başlanır. Tehranla İrəvan əlavə qaz anlaşması əldə etməyə çox yaxındır.

**İsrailin baş naziri Benyamin Netanyahu**nun Bakı səfərinə sərt təpkilər verilsə də, rəsmi Bakı Ruhaninin gözlənilən İrəvan səfərinə təmkinli yanaşır. Yeri gəlmişkən, bu arada İran şirkətlərinin Şuşa məscidini bərpa edəcəyinə dair də xəbərlər yayılıb. Hətta dekabrın 7-də tərəflər arasında sənədin imzalandığı haqda erməni KİV-ləri xəbər yayıb. Lakin Tehran xəbəri təsdiqləmir.

“İran şirkətinin Şuşada məscid təmir etməsinə dair yayılan xəbərləri təsdiqləmirik”. Bunu İran Xarici İşlər Nazirliyinin sözçüsü Bəhram Qasimi deyib. (APA) “Bizdə iranlı mühəndislərin Qarabağda olmasına dair məlumat yoxdur, biz bunu təsdiq etmirik”, - deyə o bildirib. B. Qasimi deyib ki, Qafqaz bölgəsində etnik və regional gərginliklər olduğu üçün bəzi KİV mənbəyi məlum olmayan, yalan, əsassız məlumatlar yayır, İran haqqında da bəzən belə məlumatlar yayılır. “İranın Azərbaycan Respublikası, Qarabağ böhranı, eləcə də Ermənistana dair siyasəti dəyişməyib. Bizim mövqeyimiz sabitdir və bu mövqeni davam etdirəcəyik”, - deyə o qeyd edib.

İsrailin baş naziri Benyamin Netanyahunun Azərbaycana səfərinə də münasibət bildirən B.Qasimi deyib ki, Azərbaycan müstəqil ölkədir və bu, Azərbaycanın daxili məsələsidir: “Ancaq düşünürəm ki, Azərbaycan bu səfəri qəbul etməməli idi. Biz İsrailin dağıdıcı hərəkətlərini və fitnəkar davranışını müşahidə edirik. Onlar İslam ölkələri arasında münasibətlərdə problemlər yaratmaq niyyətindədirlər”.

“İran hökuməti əzəldən Rusiya və Ermənistanla bir strateji oxda birləşib. SSRİ dağılandan sonra Qərbə və türkçülüyə qarşı belə bir ox əmələ gəlib: Rusiya-Ermənistan-İran-Suriya. Və İranın bu strateji seçimi dini və qohum-qonşu aspektlərini üstələyir. Əfsus ki, vəziyyət belədir”. Bu fikirləri isə **politoloq Hikmət Hacızadə** söylədi.

**KXCP sədri Mirmahmud Mirəlioğlu** isə məsələyə sərt mövqe bildirdi: “Bu dövlətin adını müəyyənləşdiriblər ki, guya İran İslam Cümhuriyyətidir. Amma mən və mənimlə eyni fikirdə olanlar belə qəbul edirik ki, əslində bu, İran anti-islam cümhuriyyətidir. Azərbaycan türklərinə qarşı ayrı-seçkilik siyasəti apardığına, Allahın verdiyi dili onlara qadağan etdiyinə, öz konstitusiyasında yazılanlara da riayət etmədiyinə və İslamda qadağan olunan məzhəbçilik məsələlərini şişirtdiyinə, İslam dünyasında ayrıseçkiliyə yol verdiyinə, özünü də həddən artıq antiinsani və antiislam apardığına görə bu, gözlənilləndir. Təbii ki, bugünkü İran erməni və rusla dost olmalıdır, bu, farsın şovinist siyasətinin nəticəsidir”.

**M.Mirəlioğlunun fikrincə, Netanyahunun Azərbaycana səfəri Tehran üçün bir bəhanədir:** “İran dünən də bu siyasəti yürüdüb, bu gün də yürüdür, sabah da yürüdəcək. Ona görə də burada başqa nəsə gözləmək qəribə olardı. Əgər bunun müctəhidləri də, dini rəhbərləri də eyni cür davranırsa, bizim torpaqların işğalına biganə qalırlarsa, erməni özlərinə dost, hətta qardaş sayırlarsa, növbəti addımları da gözləmək lazımdır. Amma bəyanatlar səslənir ki, Bakı və Tehranın münasibətləri strateji qonşuluğa əsaslanır, bunlar boş şeylərdir, əməldə heç vaxt görünməyib. Bunlar bizə qarşı olduqlarını ən yumşaq şəkildə bayrağımızı baş-ayaq asmaqla göstəriblər”.

**Yəhudi əsilli deputat Yevda Abramov** isə deyir ki, İsraillə Azərbaycanın yaxınlaşması olanda bir sıra ölkələr qıcıqlanır, bu, təbiidir: “Bu ölkələrdən biri də İrandır. Şahın devrilməsindən sonra İsraillə İran arasında bəzi məsələlərdə anlaşılmazlıq əmələ gəlib, bunun da günahı Tehrandadır. Əslində İsrail bütün qonşularla dinc və əminamanlıq şəraitində yaşamağa meyl edən dövlətdir. Təəssüflər olsun ki, İran hakimiyyəti yetkililəri son bəyanatlarında İsrailə qarşı düşmənçilik münasibəti göstərirlər”. Y.Abramov Tehrandan İsrail-Azərbaycan əlaqələrinə verilən reaksiyaların da yersiz saydı: “İran dövləti əbədi olaraq bilməlidir ki, Azərbaycan dövləti öz xarici siyasətini özü müəyyənləşdirir. İran uzun illərdir ki, ərazimizin 20 faizini işğal edən bir ölkə ilə hərtərəfli dostluq edir, ona hərbi, siyasi dəstək verir. Ancaq biz buna bir söz demirik. İran Ermənistanı bu qədər müdafiə etməsəydi, Qarabağ məsələsi bəlkə də həll olunmuşduq. Amma müsəlman, qonşu bir dövlət bizə düşmən olan işğalçı ölkə ilə dostluq edir, öpüşüb-görüşürlər, İran rəhbərliyi Ermənistandakı yalançı soyqırım abidəsi önünə əklil qoyur. Amma biz yenə də buna təmkinli yanaşırıq”.

**ADP sədri Sərdar Cəlaloğlu** hesab edir ki, Ruhaninin İrəvan səfəri İsrailin baş nazirinin Bakıya səfərinə cavabdır: “Bunu təbii qarşılamaq lazımdır. Dövlətlərin bir-biri ilə əlaqəsi normaldır. Beynəlxalq hüquqa görə iki ölkə arasındakı əlaqələr üçüncü dövlətə qarşı yönəlməməlidir. Bu baxımdan məsələyə düzgün qiymət verilməlidir”. S.Cəlaloğlu Bakının məsələyə təmkinli yanaşmasını anlaşılan sayır: “Əgər Azərbaycan əleyhinə, ölkəmizin maraqlarına zidd hər hansı bir müqavilə imzalancaqsa, təbii ki, etiraz etməliyik”.

**İrandan İsrail baş nazirinin 19 illik fasilədən sonra Bakıya həyata keçirilən səfərinə sərt reaksiyalar verilmişdi. Ancaq Ermənistana İran prezidentləri səviyyəsində az qala hər il həyata keçirilən qarşılıqlı səfərlərə Bakı təmkinli davranış sərgiləyir, ekspertlər isə dözümlü münasibət bildirirlər. Görünən budur ki, Azərbaycan müsəlman qonşusu ilə münasibətləri qoruyub-saxlamaqda daha çox maraqlıdır. Elə bu arada İrandakı azərbaycanlı bir qrup fəalın həbs olunması da təəssüf doğurur. Bir ovuc İran ermənisinin bütün haqlara sahib olduğu halda, 35 milyonluq Azərbaycan türklərinin təbii haqlarının tanınmamasından söhbət gedir...**

❑ **E.PAŞASOY**

# “Bu terrorların arxasında xarici güclər var”

## Toğrul İsmayıl: “PKK bu qədər yüksək kəşfiyyata, planlaşma gücünə malik deyil”



Toğrul İsmayıl

**Son 10 gündə Türkiyədə iki dəhşətli terror hadisəsi baş verib. Dekabrın 10-da İstanbulun Beşiktaş rayonunda baş verən terror nəticəsində 44 nəfər həlak olub, 150-dən artıq insan yaralanıb. Bir həftə sonra şənbə günü Kayseri şəhərində baş verən terror aktı nəticəsində 14 nəfər ölüb, 50-dən artıq insan yaralanıb.**

Qeyd edək ki, hər iki terror aktını “canlı bomba” törədib. İstanbul terroru futbol stadionu ətrafında xidmət edən çevik polisləri hədəfə alıb, ölənlərin böyük əksəriyyəti polislər olub. Kayseridə isə terrorçu minalanmış avtomobilini Kayseri xüsusi təyinatlı briqadanın icazəli olaraq şəhərə gəzintiyə gedən əsgərlərinin olduğu avtobusu hədəfə alıb. Hər iki terror aktı Türkiyədə həssas bir dönəmdə baş verib. Bir tərəfdən Ankara Suriyada hərbi əməliyyatları davam etdirir. Digər tərəfdə isə Türkiyədə iqtisadiyyatda geriləmə yaşanır, lirə dollar qarşısında dəyər itirir, Qərb ölkələri ilə Ankara arasında “soyuq müharibə” yaşanır.

Ard-arda baş verən terror aktları Türkiyədə sabitliyin zəiflədiyi, ölkəyə xaosun hakim olduğu, Türkiyənin bir Yaxın Şərq ölkəsinə çevrildiyi görüntüsü yaratmağa hesablanıb. TOBB Ekonomi və Teknoloji Universitetinin dosenti, politoloq Toğrul İsmayıl deyir ki, son terror aktları xaric dəstəkli olduğu görüntüsü var. PKK-nın Türkiyədə uzun illərdir mövcud olduğunu xatırladan ekspert deyir ki, son olaylarda daha peşəkar, planlı dəst-xətt sezilir: “Son terror aktları bu hadisələrin xarici dəstəkli olduğu görüntüsü yaradır. PKK bu cür terror etmək gücündə deyil. Bu mənim şəxsi düşüncəmdir. Bu günə qədər də PKK vardı, amma belə mütəşəkkil, hazırlıqlı olmurdu. Türkiyənin Suriyada geri çəkilməməsi, inad göstərməsi bu terror aktlarına səbəb olur. Kimin etməsini deyə bilmirəm. Amma bu terror olaylarına baxanda yalnız PKK-nın əl işi olmadığı aydın olur. PKK bu qədər yüksək kəşfiyyata, planlaşma gücünə malik deyil. Diqqət edirsinizsə hədəf alınan yerlər çox strateji hədəflərdir. İstanbulda çevik polis, Kayseridə Türkiyənin cənub-şərqində terrora qarşı əməliyyat aparan hərbçilər. Göstərmək istəyirlər ki, sanki Türkiyədə bir təhlükəsizlik zəifliyi var”.

**T.İsmayıl deyir ki, terrorçuların və onu sifariş edənin əsas hədəfi içəridə narazılıqlar yaratmaq, iqtidarı birbaşa hədəfə almaq, çətin şərtlər qarşısında qoymaqdır:** “Bu cür hadisələrlə ölkəni xaosa çəkmək və sonda iqtidarı istefaya məcbur etməkdir. Bu iş PKK əli ilə edilsə də, bu PKK-nın maraqlarına xidmət etmir. Əksinə, PKK-nı və kürd separatçılarını daha da zəiflədən fəaliyyətdir. Burda əsas hədəf Türkiyənin Yaxın Şərq siyasətini dəyişməsinə yönəlib.

Bu terrorlar PKK-ya xeyirdən çox zərbə vurur, kürd separatçı fəaliyyətini zərbə altında qoyur, silahsızlaşdırır. Görünən odur ki. bu terror çox dəqiq hesablanmış, uzun sürən bir kəşfiyyat hazırlığı tələb edən, peşəkar hazırlıq tələb edən işlərdir. Bu isə PKK-nın tərzinə çox da uyğun gəlmir. Biriləri deyə bilər ki, bəlkə PKK çox güclənib. Amma buna qarşı deyə bilərik ki, hansısa güclər PKK-nı yüksək səviyyədə hazırlayır. İstənilən halda bu terror aktları PKK-nın təkbaşına planlayıb həyata keçirə biləcəyi bir terror aktları deyil".

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 283 (6604) 20 dekabr 2016

# "Şamaxı multikulturalizm nümunəsidir"

AVCİYA-nın təşkilatçılığı ilə Şamaxıda "Şamaxı - Azərbaycanda multikulturalizm nümunəsi" mövzusunda elmi-praktiki konfrans keçirildi





**Dekabrın 19-da Şamaxı şəhərində Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının təşkilatçılığı ilə "Şamaxı - Azərbaycanda multikulturalizm nümunəsi" mövzusunda elmi-praktiki konfrans keçirilib.**

Musavat.com xəbər verir ki, konfransı giriş sözü ilə **pedaqogika üzrə fəlsəfə doktoru Dəyanət Musayev** açıb.

**Şamaxı rayon İcra Hakimiyyətinin başçısının birinci müavini Qasım Qasımov** konfrans iştirakçılarını salamlayıb. **AVCİYA-nın eksperti, tarix üzrə fəlsəfə doktoru Məhərrəm Zülfüqarlı** "Tolerantlığın Şamaxı nümunəsi - tarix və müasirlik", **"Miras" Mədəni İrsin Öyrənilməsi İctimai Birliyinin sədri, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli** "Şamaxıda yaşayan milli azlıqların adət və ənənələri", **Qızmeydan kənd icra nümayəndəsi Yekaterina Ukleina** "Şamaxıda yaşayan milli azlıqların nümayəndələrinə dövlət qayğısı", **Nina Sivekşina** "Şamaxıda yaşayan rusların rayonun inkişafında rolu" mövzularında çıxışlar ediblər. Konfransda **Bəxtiyar Vahabzadənin "Bayraq" şeirini Denis Uklein** Azərbaycan dilində, M.Ə.Sabirin şeirini isə **Nəzrin Əfəndiyeva** rus dilində səsləndiriblər.

**AVCİYA-nın prezidenti, Şamaxının millət vəkili Elxan Süleymanov** konfransda yekun sözü söyləyib. Millət vəkili qeyd edib ki, konfransın keçirilmə məkanı kimi Şamaxı təsadüfən seçilməyib: "Bu qədim Azərbaycan torpağı həqiqətən də multikulturalizm nümunəsidir. Şamaxıda müxtəlif mədəniyyətlər bir-biri ilə birləşib, vəhdət halına gəlib".

**Elxan Süleymanov iki şamaxılı qəhrəmanın - bu ilin aprel ayında qəhrəmanlıqla şəhid olmuş, mənşəcə ləzgi Samir Kaçayevin və İkinci Dünya müharibəsində faşistlərə qan uddurmuş Sovet İttifaqı Qəhrəmanı Nikolay Şeverdyayevin adlarını qürurla vurğulayıb.**

# Hakimiyyətə yaxın deputatdan "sabotaj ola bilər" bəyanatı

**Zahid Oruc:** "Müəyyən qüvvələr növbənin onlara da çatacağını gözləyirlər və ya ehtimal edirlər; ona görə də öz mənafelərini qorumaq yollarını düşünə bilərlər"

**Azərbaycanda iqtisadi gərginliyi yaradan hansısa sirli və gizli əllərin fəaliyyətdə olduğu, ölkə başçısının apardığı islahatları sabotaj etmək istəyinə düşənlərin mövcudluğu barədə mediada müxtəlif xəbərlər, siyasilərin, iqtisadçıların dilindən açıqlamalar yayılmaqdadır. Qeyd edilir ki, prezidentin imzaladığı anti-böhran tədbirləri barədə tapşırıqları, yol xəritələri, struktur islahatları bir çox məmurları qorxuya.**



Təşviş içində olan məmurlar bu layihənin həyata keçməsindən sonra ölkədə islahatların, şəffaf idarəçiliyin daha da güclənəcəyini yaxşı dərk edir. Ona görə də gəlir mənbələrinin kəsiləcəyi xəbəri bürokrat məmurları, korrupsioner və oliqarxa çevrilmiş bəzi nazirləri əndişələndirib. Bildirilir ki, bir sıra məmurlar qəsdən sosial vəziyyəti ağırlaşdırır və xalqla prezidenti üz-üzə qoymağa cəhd edir. Bu şəbəkənin məqsədi prezidentə təzyiq etmək, islahatları ləngitmək, antiböhran tədbirlərini tormozlamaq və ən əsası onları gözləyən istefaların vaxtını uzatmaqdır. Çünki düşünürlər ki, prezidentin başlatdığı islahatlar nəhayət onların vəzifələrini itirməsi, imkanlardan məhrum olmasını şərtləndirə bilər. Ona görə də bu aqibəti yaşamamaqları üçün əllərində olan müxtəlif rıçaqlarından islahatlara mane olmağa, çalışırlar, sabotaj yolunu tuturlar. Ölkə başçısının islahatlar planına əngəl ola biləcək, sabotaj yolu ilə islahatların qarşısında dayan biləcək qüvvənin olub-olmadığı barədə sualımıza cavabında deputat Zahid Oruc bildirdi ki, kimlərsə sabotaj fikrinə düşə bilərlər, islahatların qarşısını ala biləcək güc ölkədə yoxdur.

**Zahid Oruc qeyd etdi ki, idarəetmənin xarakteri, hakimiyyətdə təmsil olunanların tələblərindən biri müxtəlif mənafeləri hər hansı siyasi kursu müdafiə eləyərkən həm də bunun özünün gələcəkdə proseslərdə nə yarada biləcəyini hesablamaqdır:** "Məsələyə bu prizmadan baxanda hər kəs qeyd edilən mənafe uğrunda savaşların nə dərəcədə dərin getdiyini görməkdədir. Bu, bütün dünyada belədir və başadüşüləndir. Bu, artıq son yüz ildə Avropada tez-tez dəyişən hakimiyyətlər fonunda fərqli vəziyyət yarada bilər. Amma postsovet məkanında hələ ki, belə deyil. Faktiki olaraq yalnız Azərbaycana xas olan məsələ deyil ki, iqtisadi sferada islahatlar, məsələn, lisenziyaların verilməsindəki sadələşdirmələri zamanı avtomatik olaraq insan amili ortadan qalxan kimi o saat həmin sferada müəyyən qüvvələr öz nəsiblərini alacaqdılar və bu da onlarda müəyyən narazılıqlarını bildirmiş olacaqdılar. Yaxud da tutaq ki, nəqliyyat sferasında islahatlardan sonra bir çox prosedurlar ASAN Xidmət tərəfindən həyata keçirilir. İslahatların xalq naminə aparılmasından danışanda deyirəm ki, ASAN Xidmət çoxları üçün görkdür.

2016-cı ildə cənab prezident islahatları böyük miqyasda aparılacağını elan etdi. Bəlkə də iki nazirliyin birinin dağıdılıb tamamilə ayrı struktura çevrilməsi, digərinin isə səlahiyyətindəki bəlli qara mexanizmlərin sındırılması istiqamətində getdiyindən mümkündür ki, müəyyən qüvvələr növbənin onlara da çatacağını gözləyirlər və ya ehtimal edirlər. Ona görə də öz mənafelərini qorumaq yollarını düşünə bilərlər".

**Deputatın sözlərinə görə, nəzərə almaq lazımdır ki, əgər nazirlikdə hər hansı konkret vəzifəli şəxslər eyni zamanda biznes fəaliyyəti aparacaqlarsa, burada maraq toqquşması avtomatikdir:** "Bunu da biz kəşf eləməmişik, dünyada keçilmiş yoldur. Belə olan təqdirdə yaxşı olar ki, həmin şəxslər vəzifələrindən gedirlər və biznes fəaliyyətləri ilə məşğul olurlar. Ölkə başçısının iradəsinə gəldikdə, heç şübhəsiz ki, burada ən önəmli məsələ odur ki, prezidentin ən böyük komandası xalqdır. Prezident burjuaziyanın müəyyən qədər ölkə mənafeləri üçün çalışmalarını təmin edə bilir, eyni zamanda sadə xalqı da öz ətrafında cəmləşdirir. Nə hökumət strukturları, nə də parlament bu etimadı daşımır. Bunu hər kəs bilməlidir. Belə olan təqdirdə islahatların qarşısında dayana biləcək hər hansı bir qüvvə ya şəxs yoxdur. Müəyyən bir müqavimət, sabotaj elementləri müxtəlif qiymət siyasətində və nələrdəsə özünü göstərə bilər. Ancaq bu, islahatların qarşısını almaq gücündə ola bilməz. Dövlət başçısı addım-addım sadəcə cəzalandırma ilə, həbsə atmaqla deyil, bəzən islah etməklə, müsbət nümunələrlə və ya bir nazirliyin səlahiyyətlərini başqa bir quruma verməklə, yaxud da o səlahiyyətləri ümumiyyətlə ləğv eləməklə islahatları həyata keçirməkdə, bu proseslərə doğru getməkdədir.

Neftin qiymətinin aşağı düşməsi yaxşı siyasi komandaların da qiymətini müəyyən mənada realist olaraq ortalığa çıxarır və ölkə başçısı güclü komandaya dayanan siyasi xəttə ölkəni irəliyə aparmaq qərarındadır. 2016-cı islahatların böyük hissəsi gedib və 2017-ci ildə də gözləntilərimiz ondan ibarətdir ki, bu proses daha da uğurla davam edəcək. Bu proses kadr islahatlarını da, siyasi islahatları da, struktur islahatlarını da əhatə edəcək".

❑ **Etibar SEYİDAĞA**

# Genefondumuzu baltalayan verilişlər...



**Elşad MƏMMƏDLİ**

**Bir millətin, dövlətin gələcəyi normal düşüncəli, ictimai şüuru yüksək səviyyəyə çatmış insanların formalaşmasından birbaşa asılıdır. Hazırda çalxalanan, yaşam, inkişaf şərtləri, qaydaları dəyişən dünyada qarşıdakı illərdə yalnız intellektual, sağlam, elmli, qaragüruhdan uzaq insanları olan cəmiyyətlər, dövlətlər önə çıxacaq, qalib gələcək...**

Özünüdərk olmadan, normal psixologiyası, sağlamlığı olmayan vətəndaşlardan gələcəkdə heç aqrar sahənin inkişafında da istifadə edilə bilməyəcək.

Hazırda sanki hansısa "qara qüvvə" Azərbaycan cəmiyyətinin əxlaqını, sağlamlığını tamamilə məhv etmək, onun düşüncəsini korlamaq, gələcəyini qaranlığa yönləndirmək üçün var gücü ilə çalışır. Telekanalları izləyin, bu prosesin necə həyata keçirildiyini görəcəksiniz...

Son bir ay ərzində telekanalların belə demək mümkünsə, monitorinqini aparıram. Gəldiyim qənaət odur ki, ölkədə islahatlar birinci növbədə tv-lərdən başlamalıdır.

İddia oluna bilər ki, kimsə düşüncəsini, əsəblərini korlamaq istəmirsə, filan kanala baxmasın. Məsələ odur ki, bütün telekanallarda biabırçı vəziyyətdir və sanki səviyyəsiz, insanların mənəviyyatına, sağlamlığına mənfi təsir göstərən verilişlər bir-birinin bəhsinə girib. Müasir dünyada isə televiziya evimizə icazəsiz gəlir, insanların tv-yə baxmaması mümkün deyil. Sadəcə, kanallardakı biabırçılığı durdurmaq lazımdır. Sivil dünyanın tətbiq etdiyi qayda budur və alternativi də yoxdur.

Bu gün efirlərdə Azərbaycan cəmiyyətinə təqdim olunan verilişlərin anormallığı ilə yanaşı, aparıcıların, ailə-məişət məsələlərinə həsr olunan verilişlərə çıxarılan ekspertlərin səviyyəsi də heyrət doğurur. Kim ağzına, ağlına nə gəldi, danışır, efirdən söyüş söyür, bilmədiyi məsələlər haqda insanlara yanlış məsləhətlər verir. Seriallardakı rəzalətdən isə danışmağa dəyməz. Çox əcaib bir durumdur.

Tamaşaçının zövqünü, mənəviyyatını, sağlamlığını, əsəblərini, ədəbi dilimizi, efir mədəniyyətini korlamaq xalqımızı, genefondumuzu məhv etmək deməkdir!

Kiçik araşdırmalardan aydın olur ki, əhalinin birbaşa məhvinə yönəlik verilişlər biznes layihələridir. Yəni kimlərsə pul qazanmaq üçün xalqımızın mənəviyyatını baltalayır. Hüquqi dövlətdə bunlara qətiyyən yol verilə bilməz və verilməməlidir.

Son bir neçə ildə telekanallar daha çox şou-biznes layihələri həyata keçirib pul qazanırdı. Məsələn, toy biznesinə soxulmaq istəyən, hansısa oliqarxın yaxını olan bir müğənnicikdən müəyyən qədər para alıb efirə çıxarıb şou düzəldir, söyüş söydürür, beləcə camaatın başını qatırdılar.

Daha sonra hansısa biznes strukturları əyləncəli, yemək-içmək verilişləri ilə efirləri zəbt edib, xeyli keyfiyyətsiz məhsulları reklam etdilər. Tamaşaçı qazanmaq üçün həmin verilişlərdə aparıcılara dombalaq da aşırırdılar...

Biabırçı yemək verilişləri hətta prezident səviyyəsində tənqid olundu və bundan sonra efirlərdə müəyyən korrektə aparıldı.

İndi isə daha təhlükəli bir vəziyyət yaranıb: Efirləri dərman firmalarının, dərman mafiyasının təbliğatına yönəlmiş verilişlər bürüyüb. Bir neçə verilişə baxdım, heyrətə gəlirsən ki, məgər bu ölkənin insanının birbaşa sağlamlığına zərbə vurmaq kimin ideyasıdır?

Nəzərə alaq ki, Azərbaycanda insanların tibbi bilikləri, sağlamlığına yanaşması ürəkaçan səviyyədə deyil. Bu baxımdan vətəndaşlarımızın tibbi maarifləndirilməsi alqışlanan məsələ kimi qəbul oluna bilər. Məsələn, telekanalın jurnalistika nədir bilən, sanballı bir aparıcının moderatorluğu ilə hansısa bir veriliş hazırlayıb, savadlı həkimləri ekspert qismində danışdırması olduqca faydalıdır. Ancaq bu gün nə baş verir; sırf biznes layihəsi olaraq bir gənc həkimə - hansı ki, onun təkmilləşməsinə illər var - birbaşa verilişi aparıcılığı verilir, onlar da öz maraqlarını, yalnız arxasında dayanan dərman mafiyasının maraqlarını güdür. Hansı ki, bu, həm tibb, həm reklam, həm də KİV qaydalarına daban-dabana ziddir. Hətta məlumatlar var ki, bir sıra dövlət qurumlarında işçiləri həmin mafiyanın nəzarətində olan həkimlərin müayinəsinə getməyi əmr edirlər. Ən acınacaqlısı isə odur ki, bu cür verilişlər sırf diyetologiya sahəsinə yönəlib. Çünki bu sahədə böyük paralar var. Nəhayətdə, insanlar kor-təbii məsləhətlər səbəbindən sağlamlığını itirir. Rəsmi xəbərlərdən də aydın olur ki, təkcə 2016-cı ildə Azərbaycanda 10-dək adam məhz bu cür yanlış diyetoloq məsləhətlərinə görə ya əməliyyat zamanı, ya da yararsız dərmanlardan dünyasını dəyişib. Saxta diyetoloq məsləhətindən vəfat edənlərdən biri də bəndənizin qonşusu idi...

**Faktiki, efirlərdə onsuz da sağlamlığı qənaətbəxş olmayan, nikaha girmək istəyənlərin az qala yarısında qorxulu xəstəliklər aşkarlanan cəmiyyətin başında bu cür oyunlar oynanılmasına dövlət çox təcili reaksiya verməlidir. Efirlərdəki "mafiya-həkim" oyunları səviyyəli tibbi verilişlərlə əvəzlənməlidir.**

YENİ MÜSAVAT
N 283 (6604) 20 dekabr 2016



# Qızıl qol düymələri

Zamin HACI
zaminhaci@gmail.com

(Barış Mançonun əziz xatirəsinə ithaf edirəm)

**Hökumətin tamada və sünnət dəlləklərindən vergi tutub dövlət büdcəsini doldurmaq planlarına ironik yanaşmaqla biz bir daha qeyri-vətənpərvər olduğumuzu nümayiş etdirdik. Bir neçə dəfə yazdığım hal yenidən təkrar oldu: göründü ki, biz Azərbaycanı bu iqtidar qədər sevmirik. Onlar bu respublikanın hər qəpiyinin qədrini bilirlər. Bizim uca millət isə özünü yalandan qürurlu, gözütox aparmaqdadır. Elə bu saxta məğrurluğumuzun altını çəkirik. Şair Məmməd Araz demişkən:**

***"Bu sevdadan nə yetirdik, nə üzdük?!***
***Dalğasında nə qərq olduq, nə üzdük.***
***Axır səni düzdə qoydu bu düzlük...***
***Unut məni, aldat məni, at məni".***

Çox şeirə aludə olmayaq, bu dəqiqə poeziya sahəsində kritik dönəmdir, şairlər ancaq xoruz buraxmaqla məşğuldur, sanki Odlu Qırmızı Xoruz ili - Çin təqviminə görə 2017-ci il respublikamıza tez gəlibdir. Qayıdaq mövzumuza. Söhbət deyəsən qənaətcillikdən gedirdi. Rabitə Nazirliyi darmadağın edilib xeyli adam zindana salınandan sonra mən bu sahədə tutulanların məhkəmə proseslərini bir müddət maraqla izlədim. Ta ki, nazirliyin tabeliyindəki "AzİnTelekom" MMC-nin şefi olmuş Cəlil Cəfərovun həbsi zamanı hüquq-mühafizə orqanlarımızın götürdüyü əşyayi-dəlillərin siyahısını oxuyana qədər. Bundan sonra o proses artıq gözümdən düşdü. Neyləyim, mən də qürurlu xalqın övladıyam, belənçik xırda-mırdaçılıq görəndə iyrənirəm. Məsələ budur ki, orqanlar Cəlil müəllimin ev-eşiyini yağmalayan zaman bəzi qızıl saatlar, bahalı antikvar əşyalar, qızıl külçə-zadla yanaşı... qalstuk sıxan kimi əşyaları da basıb aparmışdır. İstintaq materialından sitat: "Cəfərovun evindən götürülən, üzərində qızılı rəngli imza olan daş parçasının dəyəri 150 manat, qızıl metaldan qalstuk sıxanın dəyəri 200 manat, gümüşü rəngli açar saxlayanın dəyəri 150 manat, qızıl metaldan qalstuk sıxan və köynək qolları düymələrinin dəyəri 750 manat, gövdəsinin arxasında "İşgüzar əməkdaşlığa görə. Nazir, Akademik Ə.Abbasov" sözləri yazılmış saatın qiyməti 750 manat, "Tissot" markalı saatın qiyməti 250 manat, "Pierre cardin" markalı suvenirin qiyməti 120 manat, ətir və qələmlərin qiyməti 2.750 manat, ümumilikdə isə 22 ədəd əşyanın dəyəri 25.420 manat təşkil edir". Sitatın sonu.

Yeni adamın evində dişə dəyən nə varsa yığıb aparıblar. Bəlkə qızıl dişi olsa onu da çıxarıb siyahıya salardılar, ancaq Cəlil müəllim yəqin o qədər kasıbçılıq eləməzdi, onun dişləri minimum farfordan olmağa məcburdur. İndi biz 2017-ci il dövlət büdcəsini məhz o üzərində imza olan daş parçasının *(kimin imzasıdır, təxmin edirik, hərçənd, istintaq yazmağa qorxubsa, biz niyə yersiz cəsarət göstərək?)* 150 manata satmaqla dolduracağıq.

*Hərçənd, ətirləri niyə aparıblar anlamadım. Bəs hamam sabunları niyə qalıb? Bəs gümüş saplaqlı mərcan dabanqaşıyan? Bəs qırağı zərxaralı, üstündə ipək saplarla "Nazirdən yadigar" yazılan atlas hamam kisəsi? Bunları müstəntiq nə edibdir? Niyə işin içində yoxdur?*

Dünən qəzetdə oxudum, həkim-deputat intervüsündə hökumətdən çox razılıq etmişdi, deyir həkimlərimiz 190 manat maaş alır, boğaza qədər bəslənidir. Təbii, burda imzalı daşın dəyəri ilə həkimin maaşı arasında 40 manat fərq yaranır, bunu da tamadalardan yığacağıq. Heç kim narahat olmasın, bizi 2017-ci ildə parlaq, hətta deyərdim partlaq gələcək gözləyir. Pis mənada deyil, şirinlikdən partlayacağıq.

Əl-ayağınıza dolaşan, analoqu olmayan inkişafa maneçilik törədən burnufırtıqlı uşaqlar varsa onları da küçəyə, zibilliyə atmaq məsləhətdir. Son 1 həftədə təkcə Bakıda 2 belə körpəni atıblar. Bundan qorxmaq lazım deyil, axı indi AXC-Müsavat cütlüyünün hakimiyyətdə olduğu yüzilliklərin qaranlığı tarixin zibil yeşiyinə atılmışdır, indi bizdə zibilxana və küçələr o qədər abadlıq, o qədər çıraqban, o dərəcədə rahatdır ki, istənilən uşağı at, get, heç zad olmur. Millət gecə-gündüz küçələrdə gəzir, halbuki qabaqlar küçəyə çıxa bilmirdik, İsgəndər Həmidov nindza paltarı geyinib küçələri gəzirdi, körpə demirdi, valideyn demirdi - hamının boğazını qılıncla üzürdü. Yazıq Tahir Kərimli buna dözmürdü, o qədər qışqırdı ki, axırda deputata çevrildi.

**İndi söz əlaqədar təşkilatlarındır - görün daha kimdə babat qalstuk sancağı var.**




# "Dəmir günbəz", kamikadze-dron, elektron silahlar - düşmənin yeni təlaşı

## Müdafiə sənayesi naziri Yavər Camalovun Azərbaycanın modern silah istehsalına hazırlaşması haqda açıqlamaları işğalçı ölkənin rahatsızlığını artırıb; **rusiyalı hərbi ekspert:** "Azərbaycan Rusiya və ABŞ-ı qabaqlamaq istəyir..."

**Ötən sayımızda Azərbaycanın öz döyüş və müdafiə sistemini gücləndirməsi yönündə son addımlar haqda yazmışdıq. Qeyd eləmişdik ki, yeni növ silahların serial istehsalına hazırlaşan Bakı bununla faktiki, İrəvana barıt qoxulu növbəti xəbərdarlıq mesajı göndərib.**

**Ötən həftəsonu Azərbaycanın hərbi sənaye naziri Yavər Camalovun bu qəbildən bəzi açıqlamalar, belə görünür, düşmən ölkədə təlaşı artırıb. Xatırladaq ki, həmin açıqlamalar arasında Ermənistanın qorxulu röyası sayılan "Dəmir günbəz" raketdən müdafiə sistemi və digər modern silah və döyüş sistemləri bağlı məqamlar yer alıb.**

***

Məsələn, nazir bildirib ki, Azərbaycan elektromaqnit impulslu silahlar istehsal edəcək. Onun sözlərinə görə, belə silahların istehsalı istiqamətində danışıqlar artıq başlayıb və yaxın illərdə istehsalı nəzərdə tutulub. Belə silahlar isə bir neçə kilometr məsafədə düşmənin radio-elektron qurğularını sıradan çıxarmaq qabiliyyətinə malik olacaq.

Nazir daha sonra deyib ki, Azərbaycanın əsas məqsədi uzaq mənzilli raketlərin istehsalıdır və bu istiqamətdə də dünyanın hərbi şirkətləri ilə danışıqlar aparılır. "Yaxın perspektivdə Azərbaycanın əsas məqsədləri sırasında uzaqmənzilli raketlərlə bərabər, "Hava-Hava", "Hava-Yer" tipli raketlərin istehsalıdır. Bununla bağlı artıq dünyanın aparıcı hərbi şirkətləri ilə ilkin razılıq da əldə olunub" - deyə, o qeyd edib. Ən önəmlisi, Y.Camalov Azərbaycan Müdafiə Nazirliyi ilə İsrailin müvafiq qurumu arasında "Dəmir günbəz" Raket Hücumundan Müdafiə Sisteminin alınmasına dair razılaşma əldə olunduğunu söyləyib.

Nazirin açıqlamalarında o da bəlli olub ki, qısa müddət ərzində Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılmış yeni növ kamikadze tipli "Zərbə" və kəşfiyyat-müşahidə xarakterli pilotsuz uçuş aparatlarının (PUA) sınaqları uğurla başa çatdırılıb və yaxın vaxtlarda onların serial istehsalına başlanacaq.

***

Təbii ki, Azərbaycan dost-müttəfiq Türkiyə və Pakistan hesabına da özünün hərbi sənayesini gücləndirməkdə, müasir döyüş sistemlərinin istehsalını məhz öz ərazisində qurmaqdadır. Bu isə torpaqlarının bir hissəsi işğal altında, özü isə müharibə vəziyyətində olan bir ölkə üçün olduqca mühüm, işğalçı Ermənistanın hərbi balans yaratmaq istəyini isə sıfırlayan bi amildir.

Təsadüfi deyil ki, son illər ərzində Azərbaycanın hərbi parkında Rusiya silah-sursatlarının həcmi 90%-dən enərək, qat-qat aşağı düşüb ki, bunu da hərbi ekspertlər Rusiya asılılığının azalması baxımından başqa önəmli gəlişmə hesab edirlər.

Bu kimi gəlişmələr təbii ki, Ermənistanda da diqqətlə izlənilir - həm də narahatlıqla izlənilir. Çünki hər necə olmasa, dövlətin hərbi qüdrəti həm də onun müasir silah və döyüş sistemləri istehsal eləmək qabiliyyəti ilə ölçülür. Sevindiricidir ki, Azərbaycan bu yöndə gənc dövlət olsa da, öz uğurlarını ildən-ilə artırır. Aprel döyüşlərindəki uğurun bir səbəbi məhz bu idi.

Düşmənin yuxusunu ən çox qaçıran da elə Azərbaycanın silah alıcısından yavaş-yavaş silah istehsal edən ölkəyə çevrilməsidir. Bu mənada hərbi sənaye naziri Yavər Camalovun yuxarıdakı açıqlamalarının işğalçı ölkəni təlaşlandırması təbiidir.

***

Bu təlaşı indi də deyəsən, rusiyalı politoloq və hərbi ekspert Aleksandra Xramçixinin dili ilə azaltmaq, özlərinə təskinlik tapmaq istəyirlər. Məsələ ondadır ki, Xramçixin nes.am-a açıqlamasında Azərbaycanın elektromaqnit impulslu silahların və uzaq mənzilli raketlərin istehsalına hazırlaşdığına şübhə ilə yanaşdığını bildirib.

**Sitat:** "İndiyədək mən raket istehsalı üçün Azərbaycanda texnoloji və istehsal imkanlarının mövcudluğu barədə eşitməmişəm. Çətin ki, onlar belə imkanlar yarada bilsinlər. Odur ki, bu iddialar müəyyən şübhələr doğurur. elektromaqnit impulslu silahların istehsalına gəlincə, belə silah olduqca mürəkkəbdir. Hətta Rusiyada və ABŞ-da onun yaradılması hələ eksperimental mərhələdədir. Azərbaycan Rusiya və ABŞ-ı qabaqlayacaq? Çətin ki".

***

Göründüyü kimi, **əvvəla**, rusiyalı analitik birmənalı şəkildə erməniləri sakitləşdirərək, deməyib ki, Azərbaycan belə silahlar istehsal edə bilməz, sadəcə, buna şübhə edib. Bunlar isə fərqli şeylərdir.

**İkincisi,** silah istehsalı həm də milli və hərbi təhlükəsizlik məsələsi olduğundan kifayət qədər məxfi sferadır və bu haqda Xramçixin kimilər bilməyə bilər. Yeri gəlmişkən, həmin Xramçaxin aylar öncə "İsgəndər M" operativ-taktiki raket komplekslərinin Ermənistana yaradığı üstünlükdən danışaraq demişdi ki, hətta "Dəmir günbəz" sayəsində də bu raketləri neytrallaşdırmaq mümkün deyil. Ancaq İsrail baş naziri B.Netanyahunun Bakı səfərindən sonra bəlli oldu ki, heç də belə deyil. İş ondadır ki, "Dəmir günbəz"in uzaq mənzilli raketləri sərərsizləşdirən modifikasiyası da var və Azərbaycan məhz onu almağa hazırlaşır.

**Üçüncüsü** və ən önəmlisi, aprel döyüşlərinin təcrübəsidir. Həmin döyüşlərə kimi Azərbaycanın öhdəsində hansı qorxulu silahların olması haqda dəqiq bilgi yox idi. Ancaq o zaman rusiyalı hərbi ekspertlər də etiraf elədilər ki, Azərbaycan Rusiyanın belə arsenalında olmayan modern kamikadze-dronlara malikdir. Ermənilərin başqa bir qorxulu röyası olan həmin kamikadze-dronların artıq ölkəmizdə istehsalına başlanır. Söz düşmüşkən, Xramçixin nədənsə bu haqda erməni nəşrinə heç nə deməyib.

**Belə ölümcül silahları istehsal edən Azərbaycan niyə də digər analoji silahlar istehsal eləməsin ki - əgər İsrail, Pakistan, Türkiyə kimi güclü hərbi tərəfdaşları varsa...**

**❑ Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 283 (6604) 20 dekabr 2016

**ABŞ-ın yeni prezidenti Donald Trampın təşkilatı Azərbaycan və Braziliyada bağladığı lisenziya müqavilələrini bitirdiyini elan edib. Tramp təşkilatının icraçı vitse-prezidenti Alan Garten CNN-ə müsahibəsində müqavilələrin kəsilməsini "ev təmizliyi" adlandırıb. Ümumilikdə Tramp təşkilatı üç lisenziya müqaviləsini - Bakıda bir otel və Rio de Janeyroda bir otel və 5 binalı ofis kompleksini dayandırır.**

# Trampla anlaşmaq asan, yoxsa çətin olacaq?

## Bir ay sonra vəzifəsinin icrasına başlayacaq yeni ABŞ prezidenti ilə Azərbaycan hakimiyyətinin münasibətlərinin necə olacağı ekspertlərin proqnozlarında

*Qeyd edək ki, düz bir ay sonra Donald Trampın inauqurasiya mərasimi olacaq və o, ABŞ prezidenti kimi vəzifəsinin icrasına başlayacaq. Bəs Azərbaycan iqtidarı Trampla necə anlaşacaq? Trampla anlaşmaq və işləmək Bakı üçün asan olacaqmı?*

**BAXCP sədrinin müavini, politoloq Elçin Mirzəbəyli** bildirdi ki, Donald Trampın Azərbaycanla münasibətlərə həssas yanaşacağını, yeni formalaşacaq adminstrasiyanın Azərbaycan hökuməti ilə işgüzar münasibətlərdə olacağını düşünür: "Trampın seçki kampaniyası dövründə verdiyi bəyanatlar, Azərbaycan prezidenti ilə telefon danışığında səsləndirdiyi fikirlər belə düşünməyə əsas verir. Trampın komandasında təmsil olunan şəxslər postsovet məkanını və Cənubi Qafqaz regionunu yaxşı tanıyır, proseslərə praqmatik maraqlar müstəvisindən yanaşırlar. Obama və Hillari cütlüyünün yürütdüyü siyasət "Amerika demokratiyası"nı tamamilə gözdən salıb və bu populist nəzəriyyə nəinki Şərqdə, hətta əksər Qərb dövlətlərində ikrah hissi doğurur. Çox güman ki, Tramp adminstasiyası "demokratiya hakimi" funksiyasını yerinə yetirmək kimi boş və perspektivsiz fəaliyyətlə məşğul olmayacaq. Respublikaçılar öz ənənəvi siyasətlərini davam etdirəcəklər. Bu isə sırf işgüzar münasibətlər və maraqlar üzərində qurulan siyasətdir. Tramp iş adamıdır və qarşısına Amerika iqtisadiyyatını dirçəltmək, Birləşmiş Ştatların iqtisadi gücünü ən yüksək həddə çatdırmaq məqsədi qoyub. Bu isə öz növbəsində imkan yaradır ki, Vaşinqton ənənəvi tərəfdaşları ilə əlaqələrini gücləndirsin, rəqiblərini neytrallaşdıra biləcək iqtisadi prosesləri stimullaşdırsın. Qənaətimə görə, Tramp adminstrasiyası bunun üçün artıq sınaqdan keçmiş Cənubi Koreya modelinin daha geniş miqyasda tətbiqinə səy göstərəcək. Bu isə şübhəsiz ki, Azərbaycan üçün də əlverişlidir.

Bu baxımdan da Tramp və onun komandasının üzvləri ilə anlaşmaq çətin olmayacaq. Praqmatik maraqlardan çıxış edən tərəflər adətən çox asanlıqla dil tapır və ortaq məxrəcə gələ bilirlər".



Yeni **AXCP-nin sədri Razi Nurullayev** bildirdi ki, Azərbaycan iqtidarı üçün əvvəlki dönəmlərdə də respublikaçılarla işləmək demokratlarla işləməkdən daha rahat olub: "Yeni seçilmiş prezident Trampla da işləmək ən azından Obama administrasiyası ilə işləməkdən daha asan olacaq. Donald Trampın xarici siyasətini "Exxon Mobil" neft şirkətinin artıq sabiq sədri Reks Tillerson dövlət katibi olaraq yürüdəcək və təbii ki, onun da Azərbaycanla əlaqəsi olub, ölkəmizdə bir çox insanları şəxsən tanıyır. Bu şəxsi tanışlıq da münasibətlərin qurulmasında müəyyən rol oynayacaq. Trampın özü də Azərbaycanla tanışdır və burada biznes maraqları olub. Prezident seçiləndən sonra da Azərbaycan prezidenti ilə telefonla danışıb. Bu da Azərbaycanın müstəqillik tarixində bir ilkdir".

**R.Nurullayevin fikrincə, bütün bunlara rəğmən demək olmaz ki, Tramp və onun iqtidarı bütün məsələlərdə Azərbaycan iqtidarının yanında olacaqlar və tənqid səsləndirməyəcəklər:** "ABŞ-da hökumət idarəçiliyi əsrlərin ənənəsinə əsaslanır və hər qurumun öz işi var. Heç kim də onlara fərdi və kollektiv təzyiq göstərmək iqtidarında deyil. Bu baxımdan ABŞ-ın demokratik təsisatları, o cümlədən ABŞ Dövlət Departamenti əvvəlki qaydada Azərbaycanda monitorinqlərini davam etdirəcək və hesabatlarını açıqlayacaq. Ümid etmirəm ki, bu hesabatlar da Azərbaycan iqtidarının ürəyindən xəbər verəcək. Lakin Azərbaycan iqtidarı və digər ölkələr xətircam ola bilərlər ki, Tramp dönəmində ABŞ rəngli və rəngsiz inqilablar etmək niyyətinə düşməyəcək".

❑ **Etibar SEYİDAĞA**

# Rusiya və İranı niyə sevmirik?

## Ekspert: "Rusiya və İran siyasətini dəyişməyincə..."

**Azərbaycan xalqında qonşu dövlətlərdən Rusiya və İrana qarşı daim oxşar münasibət mövcuddur. Baxmayaraq ki, Azərbaycanın ən yaxın əlaqələri olduğu dövlətlər sırasında Rusiya və İran ön sıralarda dayanır, vətəndaşlarımız müalicə üçün daha çox İran səhiyyəsinə, iş üçün isə şimal qonşumuza üz tuturlar.**

Amma bu amillər xalqımızın bu ölkələrə olan münasibətini yaxşı mənada dəyişmir. Ekspertlər mövcud situasiyanı bir neçə istiqamətdə dəyərləndirirlər. Əsas fikirlərdən biri kimi Azərbaycan iki hissəyə, yəni cənub və şimala bölünməsində bu iki ölkənin baş rolda çıxış etmələri göstərilir. Bundan əlavə, iki əsr Rusiyanın əsarətində olmağımız və bu əsrlər ərzində başımıza gələn faciələr də bu ölkəyə qarşı mənfi münasibətdə başlıca amil kimi dəyərləndirilir. Son olaraq da, Dağlıq Qarabağ problemi önə çəkilir. Belə ki, müstəqillik illəri ərzində Rusiya və müsəlman ölkəsi olmasına baxmayaraq İran Ermənistanın yanında daha çox olmağı üstün tutdu.

**Politoloq Natiq Miri** hesab edir ki, Rusiya və İrana qarşı münasibət xalqımızın tarixi yaddaşı ilə bağlıdır: "Azərbaycanın iki hissəyə parçalanmasının əsas səbəbkarlarından biri Rusiyadır. Ayrıca bütün zamanlarda Rusiya ölkəmizə qarşı ədalətli mövqedən çıxış etməyib. Yalnız siyasəti Azərbaycanı əsarət altında saxlamaq, əzmək, yeraltı və yerüstü sərvətlərini talamaqdan ibarət olub. Bu da xalqımızın istismar olunması və qanının axıdılmasına səbəb olub. 71 il Azərbaycan Rusiyanın əsarəti altında olub. İkinci Dünya Müharibəsində Azərbaycanın yardımları olsa da, heç bir üstünlük qazanmadıq. Əksinə SSRİ dağılanda ölkəmizə süni sürətdə Dağlıq Qarabağ problemi yaradıldı. Problemin də əsas səbəbkarı Rusiyadır. Ayrıca SSRİ dağılmaq ərəfəsində olanda xalqımıza 20 Yanvar faciəsi yaşadıldı. Bunu bütün dünya bilir. Dağlıq Qarabağ problemi hələ də mövcuddur və yaxın 10 ildə bunun həlli müşkülə çevrilib. Bütün bu hadisələr xalqımızın yaddaşına birdəfəlik həkk olunub. Genetik olaraq, bu hadisələr yaddaşlarımıza elə həkk olunub ki, bunu yaddaşımızdan çıxarmaq mümkün deyil. Ona görə də hər bir Azərbaycan türkü Rusiya adını eşidəndə dağıdıcı bir ölkə olduğunu, Azərbaycana qarşı ədalətsiz mövqe tutduğunu düşünür. Bu da Rusiyanın özündən doğan ciddi səbəblərdir. Bu baxımdan Rusiya öz siyasətinə əl gəzdirməlidir. Dağıdıcılıqla, ədalətsizliklə bir xalqdan özünə qarşı müsbət heç nə ala bilməzsən".



**N.Miri eyni münasibətin İrana da sərgilənməsinə mövqe bildirdi:** "Azərbaycanın parçalanmasına səbəb olan iki ölkədən biri də İrandır. Ərazimizin böyük hissəsi, 35 milyondan çox azərbaycanlı hazırda fars rejiminin əsarəti altındadır. Bütün bunlar yaddaşlara həkk olunduğundan bu ölkələrə münasibət birmənalıdır. Rusiya və İran siyasətini dəyişməyincə, Azərbaycan xalqından xoş münasibət görməyəcəklər. Ermənistan vazkeçilməz ölkə deyil. Sadəcə strateji, geo-siyasi mövqeyinə görə əhəmiyyətlidir. Bu dövlət ona görə yaradıldı ki, iki türk dövləti arasında əngəl olsun".

**Politoloq Qərb dövlətlərinə olan münasibətə də toxundu**: "Bir millətin tarixi qan yaddaşı ona olan münasibətdən formalaşır. Bu gün Amerika və inkişaf etmiş digər demokratik Avropa ölkələri Azərbaycana yönəlik hər hansı bir plan hadisələri ilə mövcud deyillər. Bunu millət xatırlamır. Ona görə də bu ölkələr nifrət obyektinə çevrilə bilmirlər. Məsələ buradan qaynaqlanır. Bugünkü Rusiya və İranda olan idarəetmə rejimlərinə də diqqət yetirmək lazımdır. Hər iki ölkədə yaşayan xalqlar bu rejimlər tərəfindən ciddi istismara məruz qalırlar. Kimisi din pərdəsi adı altında, kimisi də avtoritar rejim tərəfindən inləyir. Bu millət Qərb dünyasında bunları müşahidə etmir. İnkişaf etmiş demokratik rejimlərdə əsas faktor insandır. Amma Rusiya və İranda belə deyil. Bu baxımdan Qərb dünyasına münasibət tamam fərqlidir".

❑ **Cavanşir ABBASLI**

# Müharibənin etibarlı qarantı - Rusiya...



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**"Qarabağ probleminin həll açarı Rusiyadadır". Bu fikirdə olanlar həm Azərbaycanda və Ermənistanda, həm də bütövlükdə dünyada yəqin ki, onun əksini düşünənlərdən çoxdur. Son olaraq Ermənistanın sabiq prezidenti Levon Ter-Petrosyan eyni ifadəni işlədib. O Ter-Petrosyan ki, təxminən 20 il öncə məhz mərhələli həll planına görə hakimiyyətdən devrilib - Rusiyanın dəstəyi ilə. Niyə?**

Çünki Ter-Petrosyan o vaxt Kremldən Qarabağın həll açarını oğurlamaq istəmişdi. O üzdən bədəli ağır oldu. Moskva belə şeyləri bağışlamır axı. Di gəl ki, Rusiya rəsmiləri illərdir bu cümləni işlətməkdən yorulmurlar: "Qarabağ məsələsində Azərbaycanla Ermənistan razılığa gəlsin, Rusiya bu anlaşmaya qarant durmağa hazırdır".

Siyasi riyakarlıq? Sübhəsiz. Adama deyərlər, bəs, Ter-Petrosyan elə bu anlaşmaya çalışdığı üçün öz postunu itirmədimi? Həmin mərhələli plana görə, işğal altındakı ərazilər azad edilməli, Dağlıq Qarabağın yekun statusu isə sonraya saxlanmalı idi - hansı formul ki, Azərbaycanı da qane edirdi. Ən əsası, bununla konfliktin bir daha qaynar fazaya keçməsi mümkün olmayacaq, iki xalq arasında böyük barış prosesi başlayacaq, Türkiyə-Ermənistan sərhədləri açılacaq, bölgədə iqtisadi inkişaf və inteqrasiya prosesləri start götürəcək, ədalətli sülh, sabitlik və rifah bərqərar olmağa başlayacaqdı.

Nə yazıqlar ki, bütün bunlar Rusiyanı qane etmirdi. Zira, ona regionda sülh, inkişaf lazım deyil. Moskvanın hədəfi bambaşqa idi və indi də bambaşqadır - konfliktləri körükləməklə, onların həllinə əngəl yaratmaqla bölgədə öz hərbi (!!) mövcudluğunu saxlamaq, gücləndirmək.

Bu mənada Rusiya sülhün, sabitliyin, inkişafın deyil, qarşıdurmaların, konfliktlərin etibarlı qarantıdır. Rusiya hansı məmləkətə, xalqa sülh gətirib ki? Əksinə, sülh, barış o gedəndən sonra yaranıb. Əfsus ki, Kremlin əlindən ayrı şeylər gəlmir.

Rusiya heç vaxt bölgə xalqlarına sülh bəxş edəcək dövlət olmayıb. İndi də deyil. Böyük imperiya ambisiyaları imkan vermir. Rus xalqının özünün ağır güzəranı hesabına olsa belə, bu ambisiyalardan qurtulmağa tələsmir. Eyni kurs Putinin hakimiyyətə gəlişi ilə daha şiddətlə aparılmaqda, yeni SSRİ planları cızılmaqdadır.

Şimal qonşumuzun barışın yox, müharibənin qarantı olduğunu növbəti dəfə 1999-cu il oktyabrın 27-də, ATƏT-in İstanbul sammiti ərəfəsində, Ermənistan parlamentinin güllələbaran edilməsində gördük. Ona görə bu qanlı terrora əl atıldı ki, sammitdə Azərbaycanla Ermənistan arasında Qarabağa dair mühüm anlaşmanın imzalanması gözlənilirdi və əsas vasitəçi də ABŞ idi...

İndi belə bir ölkənin "biz Qarabağ konfliktinin həllini istəyirik" bəyanatlarını necə səmimi sayasan? Yox, əgər belədirsə, yəni siz ruslar da sülh istəyirsinizsə, o zaman köməyiniz, qrantınız başınıza dəysin, barı əngəl yaratmayın! Hələ onu demirik ki, Qarabağ məsələsinin həll açarı doğrudan da sizdə - ruslardadır. O zaman kim sizə mane olur həmin açardan faydalanmağa?

Bu sual üzərində baş sındırmağa dəymir əlbəttə ki. Problem, daha dəqiqi, faciə ondadır ki, Rusiya nəinki Dağlıq Qarabağ məsələsinə, nəinki öz qonşularına, hətta dost-müttəfiq saydığı ölkələrə münasibətdə də heç vaxt səmimi olmayıb, səmimi deyil. Üzdə bir söz deyib, arxada - başqa və həmişə saman altdan su yeridib, dost-müttəfiqinin ayağının altını qazıb, imzaladığı anlaşmalara, sazişlərə asanca tüpürüb, onları birtərəfli qaydada pozub. Necə ki, 1995-cildə Budapeşt sənədi ilə Ukraynanın ərazi bütövlüyünə öz imzası ilə qarant duran, lakin 19 il sonra Krımı ilhaq eləməklə öz imzasına tüpürən yenə həmin bu Rusiyadır.

Təsadüfi deyil ki, bu gün bölgədə, dünyada sülhə və sabitliyə ən böyük təhlükə məhz Rusiyadır, onun bitib-tükənməyən imperiya ambisiyalarıdır. İmperiya xislətli bir dövlətdən isə nə etibarlı dost-tərəfdaş çıxar, nə də ədalətli vasitəçi - hansını ki, Qarabağ məsələsində qabarıq şəkildə görürük.

Guya Rusiya Ermənistanın 1 nömrəli strateji müttəfiqidir. Amma diqqət edin, Moskva heç öz strateji müttəfiqinin də xeyrinə məsələni çözmək istəmir. Təsəvvür edək ki, bizim 1 nömrəli müttəfiqimiz Türkiyə Qarabağın həll açarı onda ola-ola problemin Azərbaycanın xeyrinə həllini istəmir. Belə şey mümkünmü? Əsla.

**Deməli rus-erməni müttəfiqliyi saxtadır. Bədbəxt erməni də elə bilir ki, Qarabağda o bizə qalib gəlib. Qalib - vassal Ermənistanın yiyəsi Rusiyadır... Təəssüf ki, bunun bizə isti-soyuqluğu yoxdur. Çünki Qarabağın açarı Rusiyadadır. Hələ ki...**



# Müsəlman olmağın çətinliyi

**Hüseynbala SƏLİMOV**

**Yaxın günlərin söhbətidir. İnternetdə özüm üçün "eşələnirdim" - bəli, artıq bu sözə də alışmaq lazımdır, baxmayaraq ki, indiyədək "Kitabların içində eşələnirdim" demək dəbdə idi...**

Qərəz, gözüm bir yəhudi şairinin şeirinə sataşdı. Bir misrası məni çox tutdu. Məğzi də bu idi ki, yalnız Göylə Yer arasında qalan quşlar bir vətəndə yaşayıb digərinin həsrətini çəkməyin nə demək olduğunu başa düşər...

Əksər azərbaycanlılar kimi mən də son 20-25 ilə qədər düşünürdüm ki, iki vətənim var - biri Quzey, digərisə Güney adlanır...

Amma bir də ayılıb gördüm ki, iki dönüb üç olub - bu cərgəyə Türkiyə də daxil olub. Elə bir az əvvəldəki misra da məni daha çox elə buna görə tutdu.

Bəli, indi cəmi azərbaycanlılar kimi mənim də qulaqlarım üç tərəfdən gələn səsləri tutmaqdadır - hər gün öz Azərbaycanımızdan, daha sonra İrandan *(təbii, Güney Azərbaycan görə...)*, bir də ki, Türkiyədən xəbərləri izləyirəm...

Bədbəxtlikdən hər üç tərəfdən gələn xəbərlər dərddir, ağırıdır. Hərəsi də bir səbəbdən... Quzey Azərbaycanın siyasi eybəcərlikləri məni üzür, əldən salır - gündə bəlkə min kərə ölüb-dirilirəm... Cənubi Azərbaycan da məlum məsələdir - heç əsarətdən də böyük dərd olarmı? Etiraf edirəm ki, son vaxtlara qədər Türkiyə tamam başqa məsələ idi - güvənc və qürur yerimiz idi...

Amma son illərdə bu ölkə ətrafında və içində elə müdhiş hadisələr baş verir ki, adam tamamilə üzülür, bilmir ki, nə etsin, kimləri qınasın, kimi lənətləsin, kimdən imdad diləsin?..

Təbii ki, bütün bunları deyəndə ilk növbədə Türkiyədəki terrorları nəzərdə tuturam... Başınızı çox ağrıtmayacam... Bütün bu proseslərin təfərrüatlarını bəlkə də məndən də yaxşı bilirsiniz...

Üstəlik, baxıb görürsən ki, proseslər hətta bir millətin, bir etnosun sərhədləri ilə məhdudlaşmır. Bilirsiniz, burada nə deyəcəm? Deyəcəm ki, qardaşlar, bu dünyada müsəlman olmaq getdikcə çətinləşir...

Mən hələ də özümün bu qənaətimlə barışmaq istəmirəm, daim ona əks arqumentlər axtarıram. Di gəl, özüm də görürəm ki, bizim bütün dırnaqarası "günahlar"ımızın sırasında bir "günah"ımız da var - bu, da müsəlman olmaq "günahı"dır...

Bəli, Türkiyə cəmi müsəlman ölkələrinin hamısından fərqlidi, Qərbə və demokratik dəyərlərə daha açıq idi. Amma bu, azacıq da olsa, anlaşıqla qarşılandımı?..

Bir daha deyirəm ki, dünyanı qara rəngdə görmək istəmirəm. Amma bir az əvvəldəki sualıma "hə" cavabını da verə bilmirəm...

Demirəm biz müsəlmanlar hamılıqla mələyik... Yox, bütün ümmətlər, cəmiyyətlər kimi hər cürümüz vardır - pisimiz də, yaxşımız da, hətta çox pisimiz də... Hətta elələrimiz var ki, onlar haqda özümüz də "Filankəs kəndə-kəsəyə qoyulası deyil!" - deyirik... Amma beləleri harada yoxdur və yaxud da harada olmayıb?.. Hamılıqla yaxşı olan, mələk cəmiyyətlər və ya ümmətlər olmur...

Di gəl, bəzi əcnəbilər haqqımızda elə danışırlar ki, sanki heç islah olunmaq şansımız da yoxdur... Nə edək? Belə münasibətə nə cavab verək? Bəlkə müsəlmanlığımızdan əl çəkək? Bəlkə onlar bizdən elə bunu istəyirlər?..

Bilmirəm və heç bilmək də istəmirəm - bildiyim odur ki, mənə bir müsəlman olaraq yaşamaq daha xoşdur... Bəli, çətindir. Bir az əvvəldə ərz etdim ki, bütün bu mürəkkəb dünya proseslərinin içində bir din amili də var. Amma nə etmək olar?..

Burada bir filmdən detal düşür yadıma... Bir yəhudi digərinə deyir ki, heç olmasa, bir-iki saatlığa özünü yəhudi kimi apar və yəhudi olmağın nə demək olduğunu anla...

Bizim də başqa yolumuz yox... Düzdür, valideynləri kimi insanlar əksər hallarda dinlərini də seçmir - biz də müsəlman kimi dünyaya gəlmişik...

Amma yaşa dolduqca bütün hallarda insanlar dinə, xüsusən də öz dinlərinə münasibətlərini müəyyən edirlər - biri daha çox dindar olur, o birisi mötədil yol seçir, bir başqası ayinləri icra etmir, amma Allahına və peyğəmbərinə sayğı ilə yanaşır...

Çox az, bəlkə də hər yüz mindən bir nəfər tapılır ki, doğma dinindən tamam imtina edib başqa inanclara üz tutur - fəqət, bir daha deyirəm ki, beləleri çox az olur...

**Ona görə də dinimizdə qalmalı və yaşamalıyıq. Digərlərini isə inandırmalıyıq ki, kimsə üçün təhlükə deyilik - hamı kimi Allahın yaratdığı və Allaha bağlı bəndələrik...**

# Yazarların "mövqe" qovğası

## Qələm sahibləri "yazıçının işi sadəcə yazmaqdır" iddiasına cavab verdilər

**Şair və yazıçıların ictimai hadisələrə səssiz qalması, cəmiyyətin problemləri ilə bağlı mövqeyini ortaya qoymaması mətbuatda qınaq obyektinə çevrilib. Uzun illərdir yaşlı nəsil yazıçıların, AYB sədri Anarın belə tuş gəldiyi bu tənqidlərə son olaraq bu günlərdə 70 illik yubileyini qeyd edən şair Ramiz Rövşən hədəf oldu. Bu məsələnin gündəmdə olduğu bir vaxtda gənc şair Qismət Rüstəmov "Yeni Müsavat"a verdiyi müsahibədə maraqlı açıqlaması ilə yadda qaldı. Şair yazıçının əsas vəzifəsinin yaxşı əsərlər yazmaqdan ibarət olduğunu vurğuladı:**

"Mənə görə, yazıçının ən birinci borcu yaxşı yazmaqdır, sonra başqa məsələlər gəlir. Bizim ölkədə sosial problemlər hədsiz çoxdur deyə, ortabab bir istedad tənqidi bir şey yazan kimi məşhurlaşır, bəh-bəhlər başlayır. Deyən kimi ki, ay camaat, yazdığı tənqid doğru, lap cəsarətli olsa da, axı bu ədəbiyyat deyil, o saat çığır-bağır başlayır. Məsələn, mən əgər Tarif Şurasının qiymət artımına bir köşə həsr etməsəm, ya da bir status yazmasam, vəssalam, deməli, ictimai mövqeyi olmayan yazıçıyam?! Yazıçının, şairin kitablarını satın alıb onun müstəqil yaşamağına dəstək olmurlar, amma yazıçıdan hamının yerinə mövqe gözləyirlər. Mən düşünürəm ki, Azərbaycanda yazıçıların çoxunun kifayət qədər ictimai mövqeyi var, hətta bəlkə bu məsələ onların boynuna həddən artıq yük qoyulub".

*Bəs görəsən Azərbaycanın ədəbi ictimaiyyətində tanınan digər şair və yazıçılar necə düşünür? Ədəbiyyat adamının işi sadəcə şeir və hekayə yazmaqdır, yoxsa onlar ictimai məsələlərdə də aktiv olmalıdırlar?*

**Yazıçı Rasim Qaraca** "Yeni Müsavat"a açıqlamasında bunun yazıçının məsuliyyət məsələsi olduğunu bildirdi: "Yazıçının işi yaxşı əsrlər yazmaqdır, əlbəttə, təbii olaraq belədir. Lakin mənə görə, iki yaxşı əsər yazan yazıçıdan ictimai mövqeyi olanı daha üstündür. Quran ayələrinin birində təqribən belə deyilir: "İbadət edənlər içərisindən əldə qılınc din uğrunda savaşanları tərcih edəcəyik". Qılınc çəkmək, qan tökmək məsələsini bir tərəfə qoyuram, ancaq bu yanaşmada bir hikmət var. Əgər biz bütün məsələləri həll olunmuş bir xalq olsaydıq, o zaman yaxşı əsərlər yazmaqla işimizi tamamlanmış hesab edə bilərdik. Ancaq təhsil sistemi iflas etmiş, mədəni səviyyəsi olmayan, kitab tirajları 300-ü aşmayan bir ölkədə yaxşı əsərləri kim oxuyacaq? Əgər məhv olan və ya məhv edilən bir millət varsa gözlərimizin önündə yazıçının vicdanı məsuliyyət məsələsi meydana çıxır. Söhbət qazın bahalaşmasına münasibət bildirməkdən getmir, ümumən bizi əhatə edən ədalətsizlikdən, zorakılıqdan, özbaşınalıqdan gedir. Yazıçı kimin tərəfindədir? - bunu özü özündən soruşmalıdır".

**Şair Elçin Mirzəbəyli** vurğuladı ki, ədəbiyyat adamlarından ictimai mövqe gözləntisi SSRİ dövründən qalan mental miraslardan biridir: "SSRİ-nin ideoloji maşını ədəbiyyat və sənət adamlarından geninə-boluna istifadə edirdi. Yazarlar, sənətçilər cəmiyyətə məqsədyönlü şəkildə ictimai çəkisi olan adamlar kimi təqdim olunurdular, sovet rejimi onların ictimai nüfuz qazanmaları üçün əlindən gələni edirdi ki, ehtiyac duyulduğu halda ədəbiyyat və sənət adamlarının xidmətindən yararlana bilsin. SSRİ-nin son günlərində və şər imperiyası iflasa uğradıqdan sonra da insanlar ilk növbədə yazarlardan, sənət adamlarından mövqe gözlədilər. Həmin dövrdə Milli Azadlıq Hərəkatının vüsət aldığı Azadlıq meydanına gələn yazarlar, sənətçilər daha çox alqışlarla qarşılanırdılar. Onlar da gəlib bir şeir, yaxud mahnı oxuyub gedirdilər. Vəssalam. Çünki bacarıqları da elə bu idi. İndi vəziyyət dəyişib. Ölkədə çoxpartiyalı sistem var, partiyalar, QHT-lər fəaliyyət göstərir. KİV, sosial şəbəkələr ictimai cəhətdən fəal olan insanlar üçün açıqdır. Ən müxtəlif sahələr üzrə proseslərin peşəkar şərhini və izahını verən ekspertlər var. Yəni SSRİ-dən miras qalan gözləntiləri bir kənara qoymaq lazımdır. Digər tərəfdən, yazar ictimai cəhətdən fəal ola da bilər, olmaya da. Bütün digər vətəndaşlar kimi. Bunun üçün onu ittiham etmək, aşağılamaq yolverilməzdir. Hər şey insanın fərdi keyfiyyətlərindən, xarakterindən asılıdır. Tutaq ki, bir şair, yaxud yazıçı bahalaşmaya münasibət bildirdi, nə dəyişəcək. Şerlə, hekayə ilə problemləri həll etmək olsaydı, nə vardı ki... Bu məsələlərə iqtisadiyyatı dərindən bilən, problemləri və ondan çıxış yollarını göstərmək potensialına malik olan insanlar danışsa, daha yaxşı olar. Qismət qismən haqlıdır. Amma bu o demək deyil ki, ədəbiyyat adamı yalnız ədəbiyyatla məşğul olmalıdır. Əgər ədəbiyyat adamının potensialı imkan verirsə ki, bu və ya digər məsələyə münasibət bildirsin, ictimai-siyasi baxımdan fəal olsun, buna görə də onu qınamağa dəyməz. Və yaxud əksinə. İnsanların azadlığına hörmətlə yanaşmaq lazımdır. Adamları aşağılamaqla, total qınağa məruz qoymaqla nəyəsə məcbur etmək bolşevik təfəkkürünün məhsuludur. Təəssüf edirəm ki, bolşevizm bir siyasi hərəkat kimi süquta uğrasa da ideoloji tör-töküntüləri hələ də qalmaqdadır".

**Şair Aqşin Yenisey** isə daha sərt mövqe səsləndirərək şair və yazıçıları müstəqil olmamaqda, iqtisadi baxımdan məmurlardan asılı olmaqda ittiham etdi: "Yazıçı, aydın sözü elə ictimai mövqe deməkdir. Ayrı-ayrı şair və yazıçıların öz ölkəsində baş verən hadisələrə münasibət bildirməməsini onun mövzudan uzaq qalması ilə əlaqələndirmək olar. Məsələn, Türkiyədə bu qədər terror hadisələri olub, yüzlərlə günahsız insan ölüb, amma bu xalqın Nobel mükafatı almış yazıçısı Orxan Pamuk bu barədə susur. Bu, başqa məsələdir. Bir də var yazıçı və şairlərin, sənət adamlarının kütləvi şəkildə susqunluğu. Məncə, bizim ziyalıların, aydınların susqunluğunu böyük mənəvi, bəşəri fikirlərə bağlamaq doğru deyil. Bir-iki şairimizi, yazıçımızı çıxmaqla, Azərbaycan ədəbiyyatı bütünlüklə icazə verilmiş cəsarətin ədəbiyyatıdır. İndiki çağa gəldikdə isə hamımız bilirik ki, şair və yazıçılarımızı ayrı-ayrı məmurlar dolandırır, onlar da sözün namusunu çörəyin abrına büküb yeyirlər. Əgər yazıçı və şairlərimizi öz oxucuları dolandırsaydılar, indi ölkədə ictimai mövqe əlindən tərpənmək mümkün olmazdı. Şairin, yazıçının işi, sadəcə, yazmaqdırsa, onda yazı hanı?"

**Jurnalist Elçin Şıxlı**nın fikrincə, yazarların ictimai mövqeyi olmalıdır və var: "Sadəcə, həmin fikirlər öz əksini bədii formada büruzə verir".

**Satirik şair Əvəz Qurbanlı**nın fikrincə, hər bir qələm sahibi öz dövrünün reallıqlarını, problemlərini əsərlərində əks etdirməlidir: "Hər bir şair, yazıçı, qələm əhli, söz adamı, ümumiyyətlə, yaradıcı adam öz dövrünü yaradıcılığında əks etdirməyə borcludur. Əgər belə deyilsə, onda onların əsərləri də səmimi deyil. Yazar cəmiyyətin güzgüsüdür. Necə ola bilər ki, sən güzgüyə baxasan, özünü yox, başqasını görəsən? Biz tarix boyu yaradıcı insanların öz dövrlərində baş verən prosesləri öz əsərlərində birbaşa əks etdirdiklərinin şahidi oluruq. Bu, ədəbiyyatda da, heykəltəraşlıqda da, digər incəsənət sahələrində də belədir. Ədəbiyyat isə, xüsusi olaraq tarixi missiya daşıyır. Ədəbiyyat - dövrün hadisələrinə yaradıcı reaksiyadır. Unutmaq lazım deyil ki, biz tarixi təkcə tarixçilərin yazdığından deyil, həm də ədəbiyyat adamlarının əsərlərindən öyrənirik. Əgər yazdığımız səmimi olmayacaqsa, bu, o deməkdir ki, biz tarixi biləkdən saxtalaşdırırıq. Əlbəttə, müəyyən istisnalar da var: məsələn, qəzəl tipli əsərlərdə mövzu əsasən eşqə, məhəbbətə aid olduğu üçün belə əsərlərdə dövrün aktual məsələləri əks olunmaya bilər".



Rasim Qaraca



Elçin Mirzəbəyli



Aqşin Yenisey

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 283 (6604) 20 dekabr 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Ter-Petrosyandan hadisə kimi açıqlama və Sərkisyan üçün çıxış yolu

## Sabiq prezidentin Ermənistanı və Qarabağ ermənilərini xilas üçün təkliflərini rəsmi İrəvan dəyərləndirəcəkmi? Politoloqlardan maraqlı açıqlamalar var; **rəsmi Bakı:** "Ermənistan hakimiyyəti bu çıxışdan nəticə çıxarmalıdır"

**90-cı illərin sonlarında Qarabağla bağlı güzəştli sülhə hazır olduğunu bəyan edən və elə praqmatik mövqeyinə görə Ermənistandakı Qarabağ klanı və onların dəstəkçiləri tərəfindən hakimiyyətdən devrilən eks-prezident Levon Ter-Petrosyan yenidən siyasi səhnəyə çıxıb. Düzdür, Ermənistanın keçmiş prezidentinin ağır xəstəliyə mübtəla olduğu deyilir. Ancaq onun rəhbərlik etdiyi Ermənistan Milli Konqresinin qurultayındakı çıxışı ilə tanış olanda şübhə etmirsən ki, əslində xəstə Ter-Petrosyan yox, onun xələfi Serj Sərkisyanın özüdür.**


Levon Ter-Petrosyan


Serj Sərkisyan

Sabiq prezident deyib ki, Qarabağ münaqişəsi həll olunmadan Ermənistan və Qarabağ erməniləri üçün heç bir inkişaf perspektivi ola bilməz. Əslində buna bənzər mövqeni sülhə maraqlı olan Azərbaycan hakimiyyəti də dəfələrlə bəyan edib. Hətta bu günlərdə erməni fəalların iştirakı ilə hazırlanan Sülh Platformasında Ermənistanın işğalçılıq siyasətinə son verməsi halında bölgədə normal həyatın yarana biləcəyi aydın şəkildə ifadə olunub. Bu dəfə bənzər mövqedən Ter-Petrosyan çıxış edib.

Ancaq işğalçı ölkənin hazırkı prezidenti rəhbərlik etdiyi ölkənin acınacaqlı durumda olmasına məhəl qoymayaraq, Qarabağla bağlı iddialarını sürdürməkdə, hətta danışıqlardan da imtina etməkdədir. Bu mənada Ter-Petrosyanın vəziyyətin ağırlığını və təhlükəliliyini tribunadan həm Ermənistan hakimiyyətinə, həm də ictimaiyyətinə çatdırmağa çalışması maraqlı situasiya yaradır. Müharibədən, aclıq və səfalətdən bezikmiş erməni xalqının bu çağırışa reaksiyasının necə olacağından çox şey asılıdır.

Sərkisyan rejiminin münasibətini bəribaşdan təxmin etmək olar. Çünki erməni prezident separatçılara rəhbərlikdən prezident kürsüsünə qədər qalxıb və onun kürsüdən enməsi intihara bərabər olardı. Düzdür, apreldəki üç günlük müharibədən sonra özünü itirmiş S.Sərksiyan məsləhət almaq üçün Ter-Petrosyanın ayağına şəxsən getmişdi. Bundan sonra isə keçmiş prezident hakimiyyətə qarşı mübarizəsinə fasilə verdiyi açıqlamışdı. Ancaq görünür, sonrakı dönəmdə Ermənistanda ağırlaşan vəziyyət, Sərkisyanın siyasi oyunbazlığı fonunda ermənilərin özgə torpaqlarında itkilərinin artması, ölkənin qaranlıq gələcəyi Ter-Petrosyanı yenidən səhnəyə qayıtmağa vadar edib.

L.Petrosyan qeyd edib ki, keçən uzun müddət münaqişənin həlli olmadan Ermənistanın hər-hansı inkişaf perspektivindən məhrum edildiyini anlamağa imkan verir. "Qarabağ münaqişəsinin nizama salınmasından sonra erməni-türk münasibətləri də avtomatik olaraq normallaşacaq. İndi münaqişənin nizama salınması üzrə danışıqlar masasında mərhələli həll variantı var. Bu, 1997-ci ildən bəri uzanan variantdır. Bu varianta görə, Qarabağa aralıq statusun verilməsi əvəzində ətraf ərazilər qaytarılır, Azərbaycanla təmas xəttinə sülhməramlılar yerləşdirilir. Əgər Ermənistan indi bu anı qaçıracaqsa, ölkə üçün növbəti qərar daha pis olacaq. Aprel müharibəsi göstərdi ki, yeni müharibənin qarşısı açılıb. Azərbaycan ləyaqətlə müdafiə olunacaq. İlham Əliyev səmərəli düşünən dövlət xadimidir və sülh üçün addım atmağı bacarır", - deyə o bildirib.

Doğrudur, 2017-ci il həm də Ermənistanda parlament seçkiləri ilidir və mümkündür ki, Ter-Petrosyan revanş üçün alternativlər axtarışındadır və Qarabağla bağlı təklifləri ilə dividentlər əldə etmək istəyir. O da istisna deyil ki, bununla keçmiş prezident Ermənistan əhalisini ölkəni səfil vəziyyətə salan Qarabağ klanına yerini göstərməyə çağırmaq istəyir. Yeri gəlmişkən, yay aylarında Ermənistanda qurulacaq yeni hökumətin tərkibində Ter-Petrosyanın rəhbərlik etdiyi partiya daxil, ölkə müxalifətinin də yer alacağı deyilirdi. Ancaq görünür Rusiyanın dəstəyini aldıqdan sonra dayaqlarını möhkəmləndirən Sərkisyan müxalifətsiz də keçinməyin mümkün olduğu qərarına gəlib. Bu yaxınlarda Ermənistanın aparıcı 3 partiyasının bir platformada birləşməsinin ardınca Ter-Petrosyanın da meydana çıxması təsadüfə bənzəmir. Lakin istənilən halda, keçmiş prezidentin bölgəni fəlakətlərdən sığortalayan çıxış yolunu göstərməsi normal qarşılanmalı məqamdır.

Ter-Petrosyan həqiqətləri açıq şəkildə dilə gətirib. Onun fikrincə, "ordu-xalq" proqramı iflasa məhkumdur, təhlükəlidir və yeganə nəticəsi ancaq Ermənistandan miqrasiyanın artmasına stimul vermək, ermənilərin kökünün Qarabağdan və Ermənistandan kəsilməsinə aparıb çıxarmaq olacaq. "Belə təəssürat yaranır ki, rejim sanki xalqın məhvi hesabına bu proqramın yalnız bir elementini həyata keçirmək istəyir. Yəni ola bilsin nə vaxtsa bizim güclü ordumuz olacaq, ancaq o vaxta kimi xalq qalacaq ya yox, bu sual altındadır" - Konres lideri bildirib.

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında xatırlatdı ki, məhz Levon Ter-Petrosyanın prezidentliyi dövründə Azərbaycan torpaqları işğal olunub: "Ancaq bir müddətdən sonra həmin Levon Ter-Petrosyan anlayıb ki, nə qədər ki, işğal davam edəcək, Ermənistanın və Dağlıq Qarabağın inkişafı mümkün deyil. O məhz bunu anladığından 1990-cı illərin ortalarında "mərhələli həll" planını qəbul etməyə hazır idi. Levon Ter-Petrosyan həmin anda belə bir fikir işlətmişdi ki, vaxt gələcək Ermənistana indikindən də ağır şərtlər altında sənəd imzalatdıra bilərlər. Levon Ter-Petrosyan haqlı idi. Ermənistan sürətlə kasıblaşıb, ölkə əhalisi, o cümlədən Dağlıq Qarabağ səfalət içindədir, erməni lobbisi heç nə ilə İrəvana kömək etmir. Çünki pullarını havaya sovurmaq istəmirlər. Üstəlik, Ermənistanda yaşayan əhalinin sayı sürətlə azalır. Bütün bunları Levon Ter-Petrosyan partiyasının qurultayında dilə gətirib. Levon Ter-Petrosyan yenə o fikrində qalır ki, sülh əldə edilməyənə qədər Ermənistanı və Dağlıq Qarabağı ağır həyat gözləyir". E.Şahinoğluna görə, bu, o deməkdir ki, Ermənistanın eks-prezidenti Azərbaycan və Türkiyə ilə barışmağına vacib olduğuna işarə edir: "Çünki Levon Ter-Petrosyan anlayır ki, Azərbaycanın və Türkiyənin Ermənistanı blokadada saxlamasının, bütün regional layihələrdən təcrid etməsinin ölkəsi üçün yaxşı sonu olmayacaq. Ermənistanın eks-prezidenti çıxışında Azərbaycan prezidenti İlham Əliyevin bir fikrinə də qiyabi olaraq dəstək verir. Məsələn, İlham Əliyev rayonlardan birinə səfər zamanı demişdi ki, Ermənistanı taqətdən salmaq üçün Azərbaycan silahlanacaq və düşmənə müxtəlif istiqamətlərdə zərbələr endirəcək. Levon Ter-Petrsyan da çıxışında deyib ki, müharibənin özü yox, hətta bu barədə söhbətlər belə Ermənistan əhalisinin azalmasına və gənclərin ölkəni sürətlə tərk etməsinə yol açıb və bu proses getdikcə artır. Levon Ter-Petrosyan daha bir fikri bundan ibarətdir ki, demoqrafik vəziyyət elə bir acınacaqlı hal ala bilər ki, Ermənistan və Qarabağdan heç nə qalmayacaq və problem özü-özünə həll olunacaq. Bu da faktiki İlham Əliyevin yanaşmasının təsdiqidir".

**Politoloq Şahin Cəfərli**nin sözlərinə görə, Ter-Petrosyanın çıxışına nəzər saldıqda hər şeydən əvvəl öz ölkəsinin və xalqının gələcəyini düşünən məsuliyyətli dövlət adamının narahatlıqlarını görmək olur: "O, populist yox, realistdir və hakimiyyətdə təmsil olunarkən də məhz bu mövqeyinin qurbanı olub. Özünün də qeyd etdiyi kimi, Azərbaycan və Ermənistan 1998-ci ildə münaqişənin həlli ilə bağlı razılıq əldə etməyə yaxınlaşmışdı, lakin Ter-Petrosyanın komandasında təmsil olunan Rusiyaya bağlı Qarabağ qruplaşması - Robert Köçəryan, Serj Sərkisyan və s. buna mane oldular. Onlar faktiki olaraq saray çevrilişi həyata keçirərək Ter-Petrosyanı istefaya məcbur etdilər. Heç şübhəsiz ki, Ter-Petrosyan üçün öz dövlətinin və xalqının maraqları prioritetdir, zatən Qarabağ müharibəsinin gedişində işğalçı ölkə məhz onun rəhbərlik etdiyi dövrdə ciddi üstünlük əldə edib. Lakin o, yaxşı başa düşür ki, sülh olmadan Ermənistanın inkişafı qeyri-mümkündür, hətta vəziyyətin get-gedə daha da pisləşməsi realdır".

**Politoloq ekp-prezidentin vaxtilə dediklərini xatırlatdı**: "Yadınızdadırsa, prezidentliyinin sonlarına yaxın Ter-Petrosyanın belə bir bəyanatı olmuşdu ki, "biz yalnız döyüşü udmuşuq, müharibəni yox". O, aydın dərk edirdi ki, "nə hərb, nə sülh" vəziyyətinin davam etməsi, Azərbaycan və Türkiyə ilə konfrontasiya Ermənistanın xeyrinə deyil və illər keçdikcə, ilk növbədə erməni xalqının və dövlətinin özü bundan ziyan çəkəcək. Zaman onu haqlı çıxardı. Ermənistanın vəziyyəti ortadadır, münaqişənin həll olunmamış qalması ona heç nə qazandırmayıb, əksinə, ölkə inkişafdan geri qalıb və faktiki olaraq, regional təcrid durumundadır. Gələcək qayğısı və ümidsizlik nəticəsində əhali ölkəni tərk edir ki, bu, Ermənistan üçün ağır demoqrafik problemin yaranması deməkdir. Ter-Petrosyan ölkəsinin gələcəyi baxımından da məhz bu təhlükəyə diqqət çəkərək bildirir ki, insanların Ermənistanı tərk etməsinin səbəbi təkcə yoxsulluq və ağır sosial durumla bağlı deyil, həm də müharibə təhlükəsinin davam etməsi ilə əlaqədardır, ona görə də münaqişəni tezliklə həll etməliyik".

**Ş.Cəfərli təsdiqləyir ki, Ter-Petrosyanın münaqişənin həllinə dair mövqeyində Azərbaycanın mövqeyi ilə üst-üstə düşən məqamlar var:** "Bu məqamlardan ən önəmlisi münaqişənin mərhələli həlli variantıdır. Ter-Petrosyan prezident olduğu dövrdə də bu yanaşmanı dəstəkləyirdi. Çünki istənilən ağıllı insan anlayır ki, Dağlıq Qarabağın statusu məsələsi nizamlanma prosesini dalana dirəyən əsas faktordur. Bu məsələni qabardıb, paket həll variantında israr etmək qeyri-konstruktiv və sülh prosesinə zərbə vuran yanaşmadır. Əvvəlcə Dağlıq Qarabağ ətrafındakı rayonlar Azərbaycana qaytarılmalı və bundan sonra status məsələsi gündəmə gəlməlidir. Ter-Petrosyan Ermənistan iqtidarına və bütövlükdə erməni cəmiyyətinə bir daha xəbərdarlıq edir ki, "əgər biz vaxt itirməyə davam etsək, gələcəkdə bu problemi daha zəif mövqedən çıxış etməklə və daha pis şərtlərdə həll etməli olacağıq". Onun hər iki xalqın dinc yanaşı yaşamasının mümkünlüyünə səmimi olaraq inandığını bəyan etməsi də rasional mövqedir".

**Lakin Ş.Cəfərli keçmiş prezidentin çağırışlarının və xəbərdarlıqlarının Ermənistan hakimiyyəti tərəfindən müsbət qarşılanacağına inanmır:** "Bu, ən əvvəl onunla əlaqədardır ki, Sərkisyan müharibə dalğasının üzərində hakimiyyətə gəlib və münaqişənin həllində maraqlı deyil. O, dövlət adamı keyfiyyətləri olmayan sıradan bir siyasətçidir və ölkəsinin, xalqının gələcəyini düşünərək addım atmağın məsuliyyətini üzərində götürməyə hazır və qadir deyil. Digər tərəfdən, Ermənistan haqqında danışarkən Rusiya amilini unutmaq olmaz. Moskvanın razılığı olmadan rəsmi İrəvan Qarabağ məsələsi də daxil olmaqla, mühüm regional məsələlərdə və xarici siyasət mövzularında müstəqil qərarlar qəbul edə bilməz. Bu, mümkün olsaydı, elə Ter-Petrosyanın özü prezidentliyi dövründə düşündüklərini həyata keçirərdi".

"Ter-Petrosyan rəsmi şəxs deyil. O, siyasi partiya rəhbəridir və son çağırışları daha çox Ermənistan hakimiyyətinə və cəmiyyətinə ünvanlanıb. Ermənistan hakimiyyəti bu çıxışdan nəticə çıxartmalıdır". Bunu "Yeni Müsavat"ın sorğusuna cavab olaraq **XİN-in mətbuat katibi Hikmət Hacıyev** söylədi. XİN rəsmisinin sözlərinə görə, keçmiş prezidentin çıxışındakı bəzi elementlərə praqmatik yanaşma kimi baxmaq və nəzərdən keçirmək olar: "Görək Ermənistan hakimiyyəti bu çıxışdan nə deyir. Bu, daxili siyasi müstəvidə olan məsələdir. Bəzi praqmatik elementlər var ki, nəzərdən keçirilə bilər".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

# "Dedi ki, Çovdarovun məni bağışlaması üçün 100 min manat verməlisən"

## Akif Çovdarovun məhkəməsində zərərçəkmiş generaldan niyə şikayətçi olmadı...



Akif Çovdarov

**Ləğv edilmiş MTN-in idarə rəisi olmuş Akif Çovdarov və onunla birlikdə həbs edilən 3 qurum əməkdaşının növbəti məhkəmə prosesi dekabrın 19-da keçirilib.**

Musavat.com xəbər verir ki, Sabunçu Rayon Məhkəməsində hakim Həbib Həsənov sədrliyi ilə keçirilən prosesdə zərərçəkmiş "Süleyman Transport" MMC-nin təsisçisi Fikrət İbrahimov ifadə verib.

O, istintaqa ifadəsini təsdiq etdiyini söyləyib.

Bu səbəbdən də məhkəmədə onun ifadəsi elan olunub.

Onun ifadəsində məlum olub ki, ləğv edilmiş MTN-nin əməkdaşları tərəfindən külli miqdarda pulu əlindən alınıb.

F.İbrahimov ifadəsində deyib ki, dostu vasitəsi ilə tanıdığı Vidadi Hüseynova 300 min manat pul verərək, "Qala" MMC-yə məxsus Quba rayonu Vəlvələ çayında olan daş karxanasına şərik olub.

**2014-cü ildə isə Qazaxıstanda olarkən ona gizli nömrədən zəng gəlib və özünü Mübariz kimi təqdim edən şəxs onu MTN-ə çağırıb:** "MTN-ə getdim, Mübariz Akif Çovdarovun işçisi olduğunu dedi. Məndən "Süleyman Transport" və Qala MMC-nin fəaliyyəti, gəlirləri, direktoru və təsisçiləri haqqında məlumat almağa başladı. Mübariz dedi ki, sizin xarici ölkələrdən yük daşımasında nöqsanlarınız var, cinayətkar fəaliyyət göstərirsiniz. O, həmçinin yükdaşıma şirkətinin sahibi Rəşad Babazadə haqqında mənə suallar verdi. Dedim ki, Rəşad dostumun tanışıdır, 2011-ci ildə mənim yanımda çalışıb, sonra çıxıb gedib, sonrakı fəaliyyətindən xəbərsizəm. Mübariz dedi ki, şirkətinin adını niyə "Süleyman Transport" qoymusan. Çox primitiv suallar verirdi. Mən başladım gülməyə. Əsəbləşdi, mənə dedi ki, "sən bilirsən, hansı təşkilata gəlmisən, sən MTN-in gücünü bilmirsən". Təxminən 1 saatdan sonra Rəşadı da yanıma gətirib üzləşdirdi. Rəşad da mən deyənləri dedi. Mübariz kiməsə zəng edib otağa çağırdı".

**O deyib ki, söhbətin davamında Akif Əliyev otağa gəlib. Zərərçəkmiş Çovdarov tərəfindən hədə və şantaj məruz qaldığını bildirib:** "MTN-dən çıxanda Vidadi Hüseynova zəng etdim. O, Almaniyada olduğunu dedi. Dedim ki, MTN şirkətdə yoxlama aparır, heç nə demədi. Mübariz dalbadal 3 gün məni MTN-in binasına çağırdı. İzahatlar aldı. Sonra məni nazirliyinin yanındakı poliklinikanın yanında görüşə çağırdı. Getdim, məndən 30 min manat pul istədi. Bildirdi ki, pulu verməsəm, məni həbs edəcəklər. Onunla söhbət edib 12 minə razılaşdıq. Ordan çıxıb polis rəisi olmuş dostum Bəhramın yanına getdim. Xahiş etdim ki, pulu verməyə birlikdə gedək. Səhəri gün maşınımla MTN-in qabağındakı dayanacağa gəldim. Mübarizə zəng vurdum. Aşağı gəldi. 12 min manatı qəzetə bükülmüş şəkildə Mübarizə təqdim elədim".

**Zərərçəkən şəxs ifadəsində MTN polkovniki Akif Əliyevin onu otağına çağırdığını da deyib. F.İbrahimov bildirib ki, Akif Əliyev otaqda onu hədələyib:** "Akif otağa girən kimi üstümə düşdü. Dedi, "biz sənə tapşırmışdıq ki, bizə verdiyin pulun səsi çıxmasın, sən kimsən ki, bu söhbəti yayırsan. Hələ MTN-in adından da istifadə edib dələduzluq edirsən". Akif Əliyev hətta Akif Çovdarovun məndən narazı olduğunu, bütün fəaliyyətimin yoxlanacağını və həbs ediləcəyimi dedi. Bir neçə gün keçdi. Akif Əliyev yenə məni MTN-ə çağırdı və belə dedi ki, Akif Çovdarovun məni bağışlaması üçün 100 min manat verməlisən. O qədər pulumun olmadığını dedim. 50 min manatda razılaşdıq. Səhəri gün 40 min manatı birtəhər düzəltdim. Anara zəng elədim. Nazirliyinin yanında olan 20 nömrəli məktəbin yaxınlığında görüşdük. 40 min verdim dedim ki, 10 min əskikdir. Anar zəng edib, məsələni Akif Əliyevə dedi. 10 minə görə bir neçə gün vaxt verdilər. Üstündən 3-4 gün keçmiş Anar yenə zəng elədi, 10 min verməli olduğumu yadıma saldı. Səhər nazirliyin qabağına gələrək, qəzetə bükülmüş şəkildə 10 mini də verdim".

Daha sonra vəkillərin suallarını cavablandıran zərərçəkmişin dediklərində ziddiyyətlər olduğu məlum olub.

F.İbrahimov suallara cavab verərkən deyib ki, Akif Çovdarovdan şikayətçi deyil. İstintaqa ifadəsində isə Akif Çovdarovun adını çəkməsini təkzib edib.

"Mənə "rəis" deyəndə Akif Çovdarov başa düşürdüm. Amma mən pulu Anar Abdıyevə vermişəm. O, da hazırda DTX-da çalışır. Anar Abdıyev pulu məndən təqdirləndirilənlərdən Arif Əliyevə vermək üçün alıb. Pulu alan, məni hədələyən Çovdarov olmayıb"- deyə zərərçəkmiş suallara cavanında deyib.

Akif Çovdarovun vəkili Sadiq Rəsulov isə musavat.com-a bildirib ki, Çovdarov aclıq aksiyasını dayandırdıqdan sonra hələ ki, ekspertizadan keçirilməyib. Onun sözlərinə görə, Çovdarov hələ müayinə olunmayıb. Müayinələrdən sonra ekspertizadan keçiriləcək.

Növbəti məhkəmə prosesi dekabrın 21-nə təyin edilib.

**Qeyd edək ki, A.Çovdarovla birlikdə müttəhimlər kürsüsünə ləğv edilmiş MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədov, MTN-in sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanov da çıxarılır.**

❑ İlkin MURADOV





# 16 yaşlı oğlanın namus qisası; anasını yatdığı yerdə gülləl,ədi

## "Dostları nəvəmə deyiblər ki, anan fahişədir, dözə bilməyib"...





**Dekabrın 18-dən 19-a keçən gecə Zabrat-2 qəsəbəsi, Oktyabr küçəsi 52 ünvanında oğul anasını qətlə yetirib. Füzuli rayonundan olan məcburi köçkün olan ailənin üzvü, 16 yaşlı Maarif Əliyev ov tüfəngi ilə anası, 1978-ci il təvəllüdlü Mədinə Qurbanovanı divanda yatarkən başından güllələyib. Hadisənin namus üstündə törədildiyi iddia edilir.**

"Yeni Müsavat" qəzetinin əməkdaşı hadisə baş verən ünvana gedib, qətlin təfərrüatını öyrənib.

Qətl hadisəsindən bir gün keçsə də, mərhum Mədinə Qurbanovanın qan izləri hələ də otaqdan təmizlənməmişdi. Qan ləkələri tavana və divarlara da yayılmışdı. Hadisənin şokundan ayılmayan ailə üzvlərinin qohumlarının evinə getdiklərini öyrəndik. Evdə yalnız qətlə yetirilən Mədinə Əliyevanın qayınatası Maarif Əliyev var idi. O, qətlin namus üstündə törədildiyini təsdiqlədi.

Maarif Əliyev hadisə barədə bunları danışdı: "Öldürülən Mədinə Qurbanova mənim gəlinimdir. Rəhmətlik mənim qulluğumu çəkib. Mənə qarşı heç vaxt pis olmayıb. Ancaq kiminləsə görüşürmüş, bunu isə nəvəmin tanışları bilirmiş. Ona anasının pozğun olduğunu deyiblər. Nəvəm də bu səbəbdən anasını güllələdi.

Maarif Əliyevin sözlərinə görə, oğlu il gəlini arasında problem olub: "Oğlum əyyaşdır. Bu səbəbdən də tez-tez mübahisələri olurdu. Bu zaman gəlin oğlumdan boşanmaq üçün onu məhkəməyə verdi, məhkəmə isə barışmaq üçün 3 ay vaxtı verdi. Bu müddət ərzində bir evdə dolanmadılar".

Mərhumun qayınatası iddia edir ki, Mədinə Quliyevanın 16 yaşlı oğlu onun başqası ilə görüşdüyünü internet yazışmalarından oxuyub. Gəlin 6 ay imiş ki, Sabunçuda, atası evində yaşayırmış. Oğlan bu barədə atasına və babasına xəbər verib. Deyib ki, anasının bu əməllərinə görə camaat içinə çıxa bilmir: "Nəvəmin dostlarının da anası ilə bağlı xəbərləri var imiş. Bu səbəbdən hətta dostunun atası uşağına mənim nəvəm Maarifdən uzaq durmağı tapşırıb, nəvəmə "ailəniz pozğundur" deyib. Bu hadisədən qabaq da oğlan internetdə anasının başqa biri ilə görüşdüyünə aid şəkilləri tapıb. Sinif yoldaşları, dostları da oğlana anasının fahişə olduğunu deyiblər. Uşağı başdan çıxarıblar. Evə gələndə bu barədə bizə də danışdı. Başa saldıq ki, heç nə lazım deyil, öz ailəsi bilər... Birtəhər ört-basdır edə bildik".

**M.Əliyev deyir ki, sonuncu dəfə Mədinə ayaqyolunda telefonla danışarkən başqa kiməsə "mən də səni sevirəm" deyib. Oğlu bunu eşidib və çox əsəbiləşib:** "Gecə yatmaq vaxtı gələndə Mədinə divanda uzanıb, uşağı (nəvəsini) də yanına qoyub. Sən demə bu zaman oğlan anasının yatmağını gözləyirmiş. Gecə mənim ov tüfəngimi sakitcə götürüb, necə vurubsa eşitməmişik. Tüfəngi başına dirədikdən sonra atəş açıb. Yaxından atəş açdığı üçün tüfəngin səsi eşidilməyib. Evdə onlardan başqa mən və iki qız nəvəm olmuşuq. 18 yaşında olan qız nəvəm də səs eşitməyib. Səhər yuxudan ayılanda gördük ki, Mədinə ölüb, yer qan içindədir. Tüfəngin yaxından açılması nəticəsində Mədinənin beyni, baş sümükləri ətrafa səpələnmişdi. Ekspertiza zamanı həmin sümükləri çətinliklə yığdılar".

Hadisə ilə bağlı qonşuların da fikirlərin aldıq. Onlar qətl zamanı açılan atəşin səsini eşitdiklərini bildirdilər. Adının çəkilməsini istəməyən bir qonşu isə ailənin qalmaqallı bir ailə olduğunun dedi: "Ailədə daim mübahisələr yaşanırdı, bunu hamı bilirdi. Gecə saatlarında partlayış səsinə bənzər səs eşitdik. Ancaq bunun tüfəng olduğu ağlımıza gəlməzdi. Hesab etdi ki, haradasa elektrik xətlərində qısaqapanma baş verdi. Səhər açılanda Maarifin anasını öldürdüyünü öyrəndik".

Qeyd edək ki, qətl hadisəsindən sonra M.Əliyev babasına məxsus ov tüfəngini polisə apararaq, könüllü təslim olub. O, qətli namus üstündə etdiyini deyib.

**Faktla bağlı Sabunçu Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (Qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanılıb.**

❑ Məğrur MƏRD
Fotolar müəllifindir

# "Evə basqın edib, 15 yaşlı qızı oğurladılar"

## Ağcabədi rayonunda azyaşlını zorla qaçırıblar, amma hadisəni törədənlər məsuliyyətə cəlb olunmur

**"Yeni Müsavat" qəzetinin redaksiyasına Bakı sakini Pənah Bayramov müraciət edərək, azyaşlı bacısı qızının oğurlanması barədə məlumat verib. 15 yaşlı Ləman Bayramovanın zorakı yolla, yaşadığı evə basqın edilərək qaçırıldığını deyən şikayətçi günahkarların ən qatı şəkildə cəzalandırılmasını tələb edir. Hadisə Ağcabədi rayon Afşar kəndində baş verib. Hər şey xalası oğlunun, Elman Əkbərovun, eləcə də onun qardaşı Fazil Əkbərovun onlarla bir daha qohum olmaq istəyindən başlayıb.**

Belə ki, E.Əkbərov 15 yaşlı Ləmanı öz oğluna almaq istəyib və buna görə bir neçə dəfə Bayramovların qapısına gəlib: "Qardaşım qızı orta məktəb şagirdidir. Bu günə qədər bir neçə yerdən ona elçi gəlmişdi. Hər birinə də deyilmişdi ki, uşaqdır, bu yaşda uşağı ərə vermək olmaz. Heç valideyn razı olsa da, mümkün deyil. Qanunlar buna icazə vermir. Ağcabədinin özündə qardaşım yaşayır. Öz xalam oğlu da elçiliyə gəldi. Aramızda da kinayəlilik var. Biz onlardan nə qız alırıq, nə qız veririk. Bunlar hər zaman bizə sataşırlar. Qohum olsaq da, münasibətlərimiz yaxşı deyil. Qadınlar vasitəsilə elçi gedib-gəlməyə başladılar. Biz ilk gündən öz rədd cavabımızı verdik. Hətta mən Bakıda yaşamağıma baxmayaraq, burdan getdim Ağcabədiyə və elçiləri evdən qovdum. Amma bunu nəzərə almadılar və dedilər ki, prinsipə biz bu qızı qaçıracağıq".

**Şikayətçi danışır ki, bu hədəni eşidən kimi 102 xidmətinə zəng edərək bu barədə məlumat verib. Hadisə araşdırmaya yönləndirilib:** "Ordan da məni polisə yönəltdilər. İdarədən bir nəfər müstəntiq gəldi və qızdan izahat aldı. Qız da dedi ki, məni qaçırmaq istəyirlər, zəhmət olmasa tədbir görün. Müstəntiq də bizi arxayın saldı ki, narahat olmayın, hər şey nəzarətimiz altındadır. Biz müstəntiqə də izah etdik. Dedik ki, bu qız azyaşlıdır, qarşı tərəfə qanunvericiliyi başa salın, izah edin hər şeyi. Oğlanın əmisi, Fazil Əkbərov Ağcabədi rayon Sığorta İdarəsinin rəisidir. İcra başçısı, polis rəisi, rayonun vəzifəliləri ilə oturub-duran adamdır, qanunu bilir. Başa salsın ki, olmaz. Buna məhəl qoymadılar. Hesab edin ki, izahatı bu axşam aldılar. Biz hamımız da arxayın olduq. Mən səhəri gün çıxıb gəldim Bakıya. Bakıya gələn gün, saat 1-2 arasında hücum ediblər evə, uşağı oğurlayıblar. Qardaşı vəzifədədir və hamı ilə yaxşı münasibətdədir deyə, hələ də uşağı qaytarmırlar. İndi siz deyin, bu, oğurluqdur, ya yox? Xahiş edirəm ki, tədbir görülsün".

**P.Bayramov dedi ki, hazırda qardaşı qızı ər evində yox, oğruların əlindədir. Dekabrın 15-də baş verən oğurluq hadisəsini isə aradan 4 gün keçməsinə baxmayaraq lazımi səviyyədə araşdırmayıblar:** "Bu günlər ərzində qarşı tərəfin ailəsindən bir-iki nəfər gəlib ki, gəlin bu məsələni bağlayaq və barışaq. Yaxşı, lap tutaq ki, biz heç nə eləmədik. Biz onunla küsülüyük. Mənim uşağımı oğurlayıblarsa, mən onlarla necə barışa bilərəm? Bu, qanun pozuntusudur, insan oğurluğudur, cinayətdir. Qızdan da izahat alıblar. O da deyib ki, özüm gəlmişəm, məni başqasına verirdilər, ona görə gəlmişəm və sair. Axı bu azyaşlıdır. Bunun izahatı belə qanunla qəbul olunmur. Oğurlanandan sonra qız nə deyə bilər ki? Əsas izahat onun ata evində verdiyidir".

**Müsahibimiz dedi ki, baş vermiş hadisə ilə bağlı rayon prokurorunun da qəbulunda olub**: "Orda mənə prokuror dedi ki, eşitdiyimə görə, sən qızı öz oğluna almaq istəmisən. Dedim, bu, sonranın işidir. Adamlar evə basqın edib, yetkinlik yaşına çatmayan qızı qaçırıblar. Üstəlik, mənim oğlum qızdan da balacadır. Necə oğluma almaq istəyə bilərəm? O da götürüb, polis rəisinə zəng elədi və soruşdu ki, bu nə məsələdir? Ordan dedilər ki, guya qızı dayısına təhvil veriblər. Halbuki həmin vaxt dayısı da yanımda idi. Necə dayısına təhvil veriblər? Dedilər, gözləyin. Səhərdən günortaya qədər gözlədik, prokuror bizə heç nə demədən çıxıb getdi. Mən də Bakıya gəldim. İndi burdan hər yerə teleqram vururam".

**P.Bayramov Əkbərovlar ailəsinin bu qanunsuzluğa görə cəzalandırılmasını tələb edir. O, hazırda Bakıda müvafiq instansiyalara rəsmi ərizə ilə müraciət edərək azyaşlı qardaşı qızının oğurluq faktının araşdırılmasında israrlıdır.**

❑ Sevinc TELMANQIZI

# Azərbaycanda dilənçilik biznesə çevrilib

## 10 yaşlı uşağı dilənməyə məcbur edən şəbəkə barədə bilmədiklərimiz...

**Son günlərin ən çarpıcı xəbərlərindən biri heç şübhəsiz ki, Bakının Əhmədli qəsəbəsində itkin düşən 10 yaşlı Abbasov Amilin tapılması ilə bağlı oldu. Xüsusən də uşağın itkin düşdüyü günlər ərzində dilənçilər tərəfindən dilləndirildiyi olayın çarpıcı məqamı oldu. Uşaq olayı öz dili ilə belə anladıb: "Məni soyuqda diləndirdilər".**

Uşağın anası isə deyib ki, uşaq oynayarkən yanında 4 uşaq olan qaraçı qadın onu çağırıb və bütün günü soyuqda diləndirib: "Uşaq o qədər soyuqda qalıb ki, eşitmə qabiliyyəti zəifləyib. Qaraçı qadın uşağın internetdə şəklini və axtarışda olduğunu görən kimi gətirib qapımızın ağzına qoyub. Hal-hazırda hüquq-mühafizə orqanları qadının kimliyini araşdırır".

**Bir var kustar, bir var "mədəni" dilənçilik...**

Dediyimiz kimi, xüsusən də valideynlər üçün tükürpədici olan bu xəbər ölkəmizdə, xüsusən də onun paytaxtında dilənçilərin necə tüğyan etməsi ilə bağlı mənzərəni bir daha yada salır. Elə gün olmur ki, svetoforda gözlədiyiniz vaxt maşının pəncərəsi qucağında uşaq olan (və ya olmayan) dilənçi tərəfindən döyülməsin. Dostlarınızla şəhər gəzintisinə çıxanda sizi abırdan salıb, "sən o qəşəng qızın canı..." yalvarışları ilə pul istəyən dilənçilər də həmçinin. Bəzən pul istəməzlər, maşının şüşəsini silmək istəyərlər, ya da salfet satarlar. Bunları sosioloqlar "mədəni dilənçilik" adlandırırlar. Əgər maşın şüşəsi sildirmək üçün heç kimə ehtiyac duymursansa və cibində salfet varsa, bu xidmətin sənə az qala zorla göstərilməsi dilənçiliyə daxildir.

Ona görə də sosial araşdırmalarda dilənçilər iki qrupa bölünür: dələduzlar və kölələr. Onlar gündəlik yer pulu ödəyirlər. Dilənçilərin 40 faizi zorla saxlanılır və ancaq yemək üçün işləyirlər. Adətən onlar heç kimləri olmayan rayon adamlarıdır. O cümlədən uşaqlardır. Amma metro və ibadət yerlərinin yaxınlığında olan dilənçilər "sahibkar" üçün çalışırlar. Kənardan başqa şəxslərin gəlib burada dilənməsi qeyri-mümkündür. Onlar sadəcə qovulurlar.

**Dilənçilərin ən çox yayılan arqumenti - "oğurluq və fahişəlik etmirəm ki..."**

Salfet satışı ümumən dilənməyə qarşı qalxan olaraq istifadə edilir. Dilənməni daha mədəni səviyyədə təqdim etmək, cəmiyyətin qınağını azaltmaq üçün satıcı rolu bunun öhdəsindən az-çox gəlir.

Türkiyədə aparılan bir sosial araşdırmada bəlli olub ki, dilənçilər ilk olaraq bu işə başlayanda çox utandıqlarını desələr də, daha sonra buna öyrəşdiklərini, üstəgəl, rəqabətin qaydalarını da öyrəndiklərini deyiblər. Dilənçilik bir neçə kateqoriya üzrə yaranır:

**1.** İşsizlik, yoxsulluq - iş tapa bilmədiyi, ac olduğu üçün dilənçilik etdiyini deyənlər bu kateqoriyada böyük üstünlüyə sahibdilər. Dilənçilərin bir çoxu "nə üçün dilənirsən" sualına cavabda deyirlər ki, iş tapmadıqları üçün bu yola baş vurublar. Onların əsas arqumenti isə "oğurluq və ya fahişəlik etmirəm ki. Dilənmək bunları etməkdən daha yaxşıdır" olur. Amma araşdırmalar sübut edib ki, kiçik bir iş qarşılığında (maşın yumaq, ev və ya dükan təmizliyi etmək kimi) ehtiyacını qarşılayacaq pul təklifi olunduğunda, bu təklifi qəbul edəcək dilənçi yox deyəcək qədər az saydadır. Bir çoxu xəstə olduğunu əsas gətirərək, bu təklifi rədd edirlər.

**2.** Xəstəlik/şikəstlik - Yoxsulluğu ucbatından xəstəliyini müalicə etdirə bilmədiyini və müalicə olunmaq üçün diləndiyini deyən kateqoriyanı da unutmamaq lazımdır. Bəzi dilənçilər saxta xəstəlik kağızını və ya rentgen kağızlarını da başqalarını inandırmaq üçün istifadə edirlər.

**3.** Yolda qalma: Daha çox avtovağzal və ya qatar stansiyalarında dilənənlərin müraciət etdiyi bir üsuldur. Adətən təmiz geyimli və düzənli görünüşə sahib ola bu şəxslər bir qayda olaraq deyirlər ki, pullarını itirdikləri, oğurlatdıqları üçün rayonlarına gedə bilmirlər, bilet almaq üçün pula ehtiyacları var. Ona görə də qarşılarına çıxan insanlardan bilet pulu istəyirlər. İnandırıcılığı artırmaq üçünsə pulu borc olaraq istədiklərini və daha sonra ödəyəcəklərini deyərək, həmin adamdan telefon nömrəsi də istəyirlər. Əgər müraciət etdikləri şəxs bilet pulunu ona vermək əvəzinə, bileti şəxsən özü almaq istəsə, buna razılaşmayaraq, israrla bilet pulu istəyirlər. Dilənçilər yardımsevərlərin birbaşa vicdanlarına, duyğularına xitab etmə üsulundan istifadə edirlər. Çünki insanı köməyə sövq etmənin ən asan və nəticə verən üsulu budur.



**Azərbaycan qanunları dilənçilərə qarşı çox yumşaqdır**

Yaxşı bəs Azərbaycan qanunları bu haqda nə deyir? Dilənçiliklə məşğul olmaq inzibati xətadır. İnzibati Xətalar Məcəlləsinin avaralıqla məşğulolma adlı 307-1-ci maddəsi mövcuddur. Bu şəxslərlə məşğul olan orqan Daxili İşlər Nazirliyidir. Dilənçiliklə məşğul olan şəxslər barəsində protokol tərtib olunur və 20 manatdan 25 manata qədər cərimə müəyyən olunub. Əgər dilənçiliklə məşğul olan şəxs öz yetkinlik yaşına çatmayan övladını da bu işə cəlb edirsə, 10 manatdan 15 manata qədər əlavə cərimə tətbiq edilir. Bu kifayət etmədikdə isə şəxs barəsində 15 günədək inzibati həbs seçilə bilər.

Hüquq-mühafizə orqanlarının dilənçilərlə davranma qaydası isə fərqlidir. Onlar məntəqələrə yığılandan sonra qeydiyyat üzrə rayonlara göndərilirlər. Amma bir qayda olaraq bu şəxslər paytaxta qayıdırlar. Çünki bölgələrdə dilənçilikdən qazanc olduqca cüzidir. Şəhər insanı isə əhvalına, səhhətinə, həyatındakı problemlərin çoxluğuna görə rəhmdilliyə daha çox meyl edir, alqış qazanmaq istəyir. Təsəvvür edin ki, xəstəxananın qarşısında dilənən yaşlı bir qadının duasına, alqışına nə qədər xəstə yaxınının ehtiyacı var? Məsələn, xəstə analiz verməyə və ya analizin nəticələrini götürmək üçün xəstəxanaya girmək üzrə ikən yaşlı dilənçinin alqış və yalvarış sədaları göyə yüksəlir: "Allah sizi bütün dərd-bəlalardan, xəstəliklərdən qorusun. İnşallah, xoş xəbərlə çıxarsız içəridən..."

Bunu eşidən kim əlini cibinə atıb, ən azı 20 qəpiyi dilənçinin ovcuna basmaz ki? Ona görə də dilənçilər üçün ən optimal dilənmə yeri xəstəxana, məhkəmə, məscid qapıları sayılır. Uzun illər Bakıdakı təhsil ocaqlarının qarşısı da dilənçilərin favorit məkanı sayılıb. Bunun da psixoloji səbəbləri var. Dilənçi bir qızla evə gedən tələbə oğlan görən kimi onun yanını haqlayır və abırdan salana qədər yalvarır. Nəticə 90 faiz dilənənin xeyrinə olur.

**Polis dilənçini rayona göndərir, o, geri qayıdır**

Dilənçilərin rayonlara göndəriləndən sonra yenidən paytaxta qayıtmasının da özəl səbəbləri var. Birincisi, qanunda sərt cəzalar nəzərdə tutulmayıb. İkincisi, dilənçiliyin qarşısını birdəfəlik almaq mümkün deyil, qanunvericilikdə müəyyən boşluqlar var. Dilənənlərin böyük əksəriyyəti qadın və uşaqlardan ibarət olduğu üçün onlara qarşı sərt tədbirlər də görülmür. Ən yaxşı halda pulları alınır və buraxılır. Bundan başqa, polis dilənçiləri yığsa da, saxlama məntəqələri yoxdur. Yığılan dilənçilər eyni zamanda ərzaqla, ayaqyolu və saxlanma şəraiti ilə təmin olunmalıdır. Azərbaycanda isə bu, mümkün olmadığından dilənçiliyə qarşı da birbaşa mübarizə aparmaq mümkünsüzdür. Odur ki, yığılandan sonra əsasən qeydiyyatda olduqları rayonlara göndərilir. Sonra qayıdıb gəlirlər. Ona görə də müəyyən müddətdən sonra yenə həmin mənzərə yaranır.

Əlaqədar qurumlar isə dilənçiliklə bağlı problemin yaranmasında bir qayda olaraq əhalini günahkar bilir. Arqument təxminən belədir: "siz pul verməsəz, dilənçilik də inkişaf etməz". Bundan başqa, imkansız qocalar bir çox hallarda qocalar evinə göndərilir. Onların hansısa bəhanə, arqumentlə geri göndərilməsi halları baş verməyib. Amma "gerçək məsləyi" dilənçilik olan şəxslər hansı yolla olursa olsun, qocalar evindən yayınmağı bacarırlar.

❑ **Sevinc TELMANQIZI**



# ABŞ və Almaniya ilə ərəb ölkələri arasında neft və terror gərginliyi

## Səudiyyə Ərəbistanı ABŞ-dakı yatırımlarını dayandırıb, alman kəşfiyyatı isə ərəb ölkələrini radikal sələfiliyi yaymaqda ittiham edir

**Səudiyyə Ərəbistanı hakimiyyəti ABŞ iqtisadiyyatına sərmayə qoyuluşunu dayandırıb. Qərar ən azı yeni seçilmiş prezident Donald Trampın and içib vəzifəsinin icrasına başlayacağı və strategiyasını elan edənə qədər qüvvədə olacaq. Qərarın səbəbi isə ABŞ Konqresinin 11 sentyabr hadisələri ilə bağlı Səudiyyə Ərəbistanını ittiham edən və Riyada qarşı məhkəmə iddiası qaldırmaq üçün hüququ verən qanunun qəbuludur. ABŞ Konqresinin yayda imzaladığı bu qanun Səudiyyə Ərəbistanı rəsmilərinin 11 sentyabr terror hadisələrinin maliyyələşməsində iştirakda ittiham edir və məhkəmə iddialarının önünü açırdı.**

Qeyd edək ki, Səudiyyə Ərəbistanı hakimiyyəti bu qanuna sərt təpki göstərib. Krallığın ən ciddi etirazı isə Səudiyyə maliyyə fondlarının ABŞ birjalarından çəkilməsi ilə bağlıdır. Ancaq indiyə qədər bu qərarın icra edilmədiyi bilinirdi. İndi isə məlum olur ki, artıq Krallıq qərarını verib, hökumət fondları böyük yatırımlar etmirlər. Mələ ondadır ki. Donald Tramp hələ seçkilərdən əvvəl bəyan edib ki, seçiləcəyi təqdirdə "masasına gələcək bu qanunu imzalayacaq".

Digər tərəfdən, Donald Tramp ABŞ-ın neft istehsalının artırılması və idxalın azaldılmasının tərəfdarıdır. ABŞ-da neft-kimya sahəsinə yatırım qoymağa çalışan Səudiyyə şirkətlərinin daha çox pay almasını isə Trampın müşavirləri istəmirlər. Yəni başqa sözlə Donald Tramp ABŞ-ın xarici ölkələrdən, o cümlədən Səudiyyədən neft asılılığını azaltmağa, o cümlədən yerli şirkətlərdə xarici payın azaldılmasında maraqlıdır. Hər iki halda bu vəziyyət Riya və Moskva arasında münasibətlərin pisləşməsinə işarədir.

Əgər Tramp Səudiyyə ilə bağlı mövqeyini dəyişməsə, fəaliyyətə başladıqdan sonra məlum qanunu imzalasa, bu, münasibətlərin soyumasına gətirəcək. Bu məsələdə ərəb fondlarının Hillari Klintona dəstək verməsi, hətta seçki fonduna pul yatırması amilinin də rolu ola bilər. Səudiyyə Ərəbistanı fondlarının ABŞ-da 800 milyard dollara yaxın nağd pulu var. Bu pulların geri çəkilməsi ABŞ iqtisadiyyatına böyük zərbə ola biləcəyi haqda iddialar var.

Məsələ burasındadır ki, Yaxın Şərqdə İŞİD və digər islamçı terror qruplaşmalarının fəallaşması bərabərində zəngin ərəb şeyxlərinin, o cümlədən bir sıra dövlət orqanlarının bu cür qruplaşmalara dəstək verməsi ilə bağlı iddialara səbəb olub. Bir sıra Qərb analitik mərkəzlərinin hesabatlarında açıq şəkildə qeyd olunur ki, Yaxın Şərqin ərəb dövlətləri bir çox hallarda rəqiblərinə qarşı bu cür terror təşkilatlarına gizli maliyyə və təchizat dəstəyi verirlər. Bu isə Qərbdə bəzi dairələrdə qəzəblə qarşılanır. Hesab olunur ki, neftin bahalanmasından sürtələ varlanan ərəb rejimləri dünyada təkfirçi islamçılığı yayır və daha sonra bundan düşmənlərinə qarşı silah kimi istifadə edirlər.

Bir qədər əvvəl Almaniya kəşfiyyat xidmətləri olan BND və BFV ayrılıqda hesabatlar hazırlayaraq Səudiyyə Ərəbistanı, Küveyt və Qatarın radikal ideologiya *(təkfirçi islam)* yayan qrupları maliyyələşdirməkdə ittiham edib. Türkiyənin "Yeni Şafak" qəzetinin məlumatına görə, Almaniyanın "Süddeutsche Zeitung" qəzetində yayılan hesabatda körfəz ərəb ölkələrinin radikal islamçılığı yayan məscid, mədrəsələrə. o cümlədən din xadimləri və "dəvətçi" qrupları maliyyə verdiyi iddia olunur. Hesabatda sələfi hərəkatların dəstəklənməsinin 3 dövlət tərəfindən "uzun müddətli nüfuz strategiyasının" bir parçası olduğu qeyd edilir.

Səudiyyə Ərəbistanın Almaniyadakı səfiri kəşfiyyatın bu ittihamlarını rədd edib. Səfir bildirib ki, Səudiyyə Krallığı Almaniyada heç bir məscid inşa etmədiyini, imam göndərmədiyini və "alman sələfiliyi" ilə heç bir bağının olmadığını deyib.

❑ **KƏNAN**

# Şaxtalı hava şəraiti davam edəcək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Departamentindən "Report"a verilən məlumata görə, dekabrın 20-də Bakıda və Abşeron yarımadasında gözlənilən hava şəraiti dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Gecə və səhər bəzi yerlərdə zəif duman, çiskin olacaq. Mülayim şimal-qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 0-2° şaxta, gündüz 3-6° isti, Bakıda gecə 0-2° şaxta, gündüz 3-5° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi normadan yüksək 770 mm civə sütünundan 766 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 80-90 %, gündüz 60-70 % təşkil edəcək.

Tibbi-meteoroloji proqnoza görə, dekabrın 22-dək Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim tərəddüdü meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Lakin axşam Böyük Qafqazın bəzi şimal və şərq rayonlarında yağıntılı olacağı ehtimalı var. Qərb küləyi gündüz bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 2-7° şaxta, gündüz 2-7° isti, dağlarda gecə 10-15° şaxta, gündüz 0-5° şaxta olacağı gözlənilir.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## Həkimi maşın vurdu; sürücü meyiti küçədə qoyub qaçdı

**Dekabrın 15-də Xocasən yolunda piyadanı maşın vurub. Sürücü isə vurduğu piyadanı maşına qoyaraq bir neçə kilometr aparandan sonra meyiti küçəyə ataraq qaçıb. Bu barədə Avtosfer.az-a mərhumun oğlu Mahir Orucov məlumat verib. Onun sözlərinə görə, hadisə dekabrın 15-də, saat 18:05 radələrində Xocahəsən yolunda yerləşən "Akkord Mərmər Qranit" MMC-nin qarşısında baş verib. Teyyub Alməmməd oğlu Orucovu naməlum avtomobil vurub: "Qəzanı törədən sürücü atamı hadisə yerindən götürüb və Yasamal ərazisində atıb qaçıb. Üç gün keçməsinə baxmayaraq hələ də bir məlumat yoxdur.**

Atam "Akkord Mərmər Qranit" MMC-də həkim işləyirdi. Saat 18:05 də işdən çıxanda düz işin qabağında maşın onu vurub. Saat 19:50 də bizə zəng gəldi. Üzərindəki şəxsiyyət vəsiqəsilə ilə bizi tapıb zəng etdilər. Biz gəlib meyiti Yasamal rayonu ərazisindəki "Qismət" şadlıq sarayından Dairəvi yola çıxışda - üzü "20 Yanvar" tərəfə olan yolun qırağında dəmir "butka"nın yanında tapdıq. Ora qoyub qaçıblar. Artiq biz gələndə əməliyyatçılar, prokurorluq işçiləri çoxdan hadisə yerində idilər. Oradan meyiti morqa apardıq. 2-3 saatdan sonra müstəntiq zəng etdi ki, mərhumun telefonunu, əlcəyinin bir tayini vurulan yerdə tapdıq. Aidiyyəti orqanlardan xahişim məsələni nəzarətdə saxlamaq, bizə həmin sürücünün tapılıb məsuliyyətə cəlb olunmasında yardımçı olmağınızdır".

**Xatırladaq ki, Teyyub Orucov Zəngilanın tanınmış həkimlərindən biri idi.**

## Gənc oğlan "məni bağışlayın" deyib, intihar etdi

**Bakıda intihar hadisəsi baş verib. Nəsimi Rayon Prokurorluğundan "Report"a verilən məlumata görə, rayonun Cavadxan küçəsində 1999-cu il təvəllüdlü Məmmədov Rəvan Rövşən oğlu özünü yaşadığı binanın 5-ci mərtəbəsindən ataraq intihar edib.**

O, hadisə baş verən zaman sərxoş olub. Belə ki, R.Məmmədov getdiyi toy mərasimindən sərxoş qayıdıb.

"Report"un əldə etdiyi məlumata görə, hadisə baş verən zaman R.Məmmədovun atası və anası yatıbmış. O, bacısına "Mən sizin hamınızı çox istəyirəm, məni bağışlayın" deyərək özünü yaşadığı mənzilin pəncərəsindən yerə atıb. Yaralı 1 saylı Şəhər Klinik Xəstəxanasına aparılarkən yolda dünyasını dəyişib.

Qeyd edək ki, R.Məmmədov mənzildə ata, ana və bacısı ilə birgə yaşayıb.

Faktla bağlı Nəsimi Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanılıb, araşdırma aparılır.

## İrkutskda araqdan zəhərlənib ölənlərin sayı 48-ə çatıb

**Rusiyanın İrkutsk vilayətində yemişan içkisi qəbulundan kütləvi zəhərlənmə barədə yeni məlumat yayılıb. Novator.az bildirir ki, tərkibində spirt olan içkidən ölənlərin sayı 48 nəfərə çatıb.**

Xəstəxanaya çatdırılan şəxslərin çoxu koma vəziyyətindədir. Mütəxəssislər vanna qəbulu üçün nəzərdə tutulan yemişan içkisinin tərkibində təhlükəli metanol maddəsi aşkarlayıb. Rəsmilər yemişan içkisini pərakəndə satışdan yığışdırmaq qərarına gəlib.

Olayı prokurorluq, İstintaq Komitəsi və İstehlakçıların Hüquqlarının Müdafiəsinə Nəzarət Xidməti araşdırır.

## "07" betona çırpıldı, sürücü öldü

**Bakıda ölümlə nəticələnən yol qəzası baş verib. "Report"un xəbərinə görə, hadisə dekabrın 19-da səhər saatlarında qeydə alınıb. Belə ki, 1990-cı il təvəllüdlü İsmayılov Elşən Asif oğlu idarə etdiyi "VAZ 2107" markalı avtomobillə yüksək sürətlə hərəkət edərkən, idarəetməni itirib. Nəticədə avtomobil Neftçilər prospekti 145 ünvanının qarşısındakı beton maneəyə çırpılıb. E.İsmayılov hadisə yerində ölüb.**

Faktla bağlı Səbail Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.

## Salyanda 3 nəfər dəm qazından zəhərlənib

**Salyan rayonunda kirayədə qalan 3 nəfər dəm qazından zəhərlənib. APA-nın Mil-Muğan bürosunun məlumatına görə, hadisə Salyan şəhəri, Aslan Hüseynov küçəsi, ev 65-də qeydə alınıb. Həmin ünvanda kirayədə yaşayan 3 nəfər gecə saatlarında dəm qazından zəhərləniblər.**

Gəncə şəhər sakini, 29 yaşlı Elnur Bağırzadə, Salyan sakini, 25 yaşlı Vəfa Musayeva və Şirvan şəhər sakini, 30 yaşlı Gülər Əliyeva səhər saatlarında huşsuz vəziyyətə Salyan Mərkəzi Rayon Xəstəxanasının reanimasiya şöbəsinə yerləşdiriliblər.

## Elan

**"Abşeron E-T" MMC-yə məxsus 1500426191 saylı VÖEN şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 283 (6604) 20 dekabr 2016

**Son günlər sosial şəbəkələrdə evlərə verilən mavi yanacağın problemli olması ilə bağlı xeyli şikayətlər dolaşır. İstifadəçilərin əksəriyyəti bildirirlər ki, mavi yanacaq hava ilə birlikdə verilir. Buna görə də sayğac sürətli işləsə də qaz zəif yanır. Qaradağ rayonunu Səngəçal qəsəbəsindən redaksiyamıza zəng vuran şikayətçilər isə deyirlər ki, onlarda ümumiyyətlə qaz yoxdur. "Arada gündüzlər verilir, axşam olanda isə qaz yoxdur" deyə, şikayətçilər bildiriblər.**

# Ölkədə təmiz qaz problemi - Səngəçalda heç çirklisi də yoxdur...

## İbrahim Kərbəlayev: "Əhaliyə verilən təbii qazın keyfiyyətində heç bir problem yoxdur"



Problemlərlə bağlı "Yeni Müsavat"a danışan **"Azəriqaz" Səhmdar Cəmiyyətinin sabiq idarə rəisi Nüsrət Qasımov** bildirib ki, qaz hava ilə verilsə, ümumiyyətlə, yanmaz:

"Təbii qazın standartı var. Qaz həmin standartlara uyğun olaraq verilir. Müasir qurğularda (kombi, dördgöz soba) 1 kubmetr qazın yanması üçün, 9.5 kubmetr hava lazımdır. Hava artıq olan zaman yanmır. Əskik olanda isə sarı məşəllə yanır və dəm qazı əmələ gətirir. İnsanların zəhərlənməsinə səbəb də elə budur. Sovet dövründə ayda bir dəfə qaz işçiləri evlərə gedib, qaz cihazlarının profilaktik yoxlamasını həyata keçirirdilər. Çünki istismar olunan müddətdə cihazlar müxtəlif səbəblərdən getdikcə korlanır. Bunu da vətəndaş özü nizamlaya bilməz. Gərək ki, mütəxəssislər gedib, baxalar. İndi isə belə bir hal yoxdur. Gedib evlərdə qaz qurğularını yoxlamırlar. Hər kəs də əlinə bir çanta alıb düşüb şəhərə ki, mən ustayam. Əslində isə ustalar da yoxlanmalıdırlar. Onlar imtahan verməli, sertifikatları, lisenziyaları olmalıdır. Qaz yüksək təhlükə mənbəyidir və ona hər adam müdaxilə edə bilməz".

**Ekspert bildirib ki, təzyiqin aşağı olması problem yaradırsa, vətəndaşlar lazımı yerlərə müraciət etməlidirlər:** "Bütün rayonlarda qaz idarəsinin sahələri var. Bundan əlavə qaynar xətt (185) və qəza xidməti(104) də var ki, onlara da zəng etmək olar. İnsanlarda bir problem odur ki, narazı olsalar da şikayət etmirlər. Şəxsən mənim yanıma şikayətə gəlirlər, deyirəm ki, yaz ver. Cavab verirlər ki, yazmaq bizə yaraşmır. Elə buna görə də problem içərisindədirlər...

Qazdan təhlükəsiz istifadə qaydalarına görə, 6 aydan bir evlərdəki cihazlar yoxlanmalıdır. Sovet dönəmində ayda bir dəfə həyata keçirilirdi. Sonradan dedilər ki, artıq insanlar özləri xeyli savadlıdırlar və cihaza nəzarət edə bilirlər. Buna görə zamanı 6 aya qədər uzatdılar. May ayından etibarən, bu işləri "Azəriqaz"dan alıb, Fövqəladə Hallar Nazirliyinə veriblər. Bir istehlakçı kimi şəxsən bizim evə yoxlama üçün gələn yoxdur. Belə olmaz axı... 30-40 ildir ki, tüstü bacaları təmizlənmir. Bütün bunların hamısı insanın zəhərlənməsinə səbəb olur. Statistikaya baxdıqda görürsən ki, hər il nə qədər insan dəm qazından zəhərlənir və dünyasını dəyişir. Ancaq bütün bunlar da heç nəyi dəyişmir. Problem həll olunmamış qalır".

**N.Qasımov bildirib ki, ölkədə tüstü bacaları problemi kifayət qədər ciddiləşib:** "Ölkədə tüstü bacalarına baxan heç bir idarə yoxdur. Varsa da nə onun ünvanı var, nə də nömrəsi. Bunu ya mülkiyyətçi təmizləməlidir, yaxud mənzil istismar idarələri. Ev yiyəsi üz tutmağa yer tapmır. Burada xaos, özbaşınalıq yaranıb. Buna nəzarət edən lazımdır. Bu cür olmaz".

Məsələ ilə bağlı **"Azəriqaz" İstehsalat Birliyinin mətbuat xidmətinin rəhbəri İbrahim Kərbəlayev** isə "Yeni Müsavat"a açıqlamasında bildirib ki, qaz hava ilə verilmir: "Hər ay əhaliyə verilən qazın tərkibi də Azərbaycan Neft-Qaz Elmi Tədqiqat Layihə institutu tərəfindən yoxlanılır, tərkibi təhlil olunur. Burada heç bir dəyişiklik yoxdur, təmiz qazdır. Yeni əhaliyə verilən təbii qazın keyfiyyətində heç bir problem yoxdur. Əgər insanların kombiləri və digər bu kimi avadanlıqları çirklənirsə, servis xidmətinə müraciət etməlidirlər. Onlar da qurğunu tənzimləyib, müvafiq tədbirlər görürlər".

Qaradağ Rayon İcra Hakimiyyəti ilə əlaqə saxlamaq cəhdimiz alınmadı.

❑ **Əli RAİS**

# Qızılın satışında yeni "qayda"

## Nağd almaq manatla, nisyə dollarla hesablanır...





**Qızıl satışı ilə məşğul olanlar yeni bir sistemə keçib. Əgər qızılı nağd alırsınızsa manatla, nisyə alırsınızsa dollarla hesablanır. Satıcılar bunu özlərini sığortalamaq məqsədi ilə etdiklərini deyirlər.**

"Laçın" ticarət mərkəzinin qızıl bölməsində əksər satıcılar artıq qızılları bu üsulla satırlar. Əgər 4-5 min manatlıq qızıl alırsansa, pulunun yarısını indi verib yarısını da sonra verəcəyini deyirsənsə, borc bu günə olan dollar məzənnəsi ilə nisyə dəftərinə yazılır. Sabah dollar qalxdıqda isə sizin borcunuz da avtomatik olaraq qalxır.

Satıcılarla söhbətimizdən məlum oldu ki, onlar bunu dünya bazarında qızılın qiymətinin oynaması ilə əlaqələndirirlər. Satıcı Rəşid Əliyev deyir ki, qızılı dollarla alırlar: "Biz hər qızılı bu cür satmırıq. Elə qızıllar var ki, keçən ildən qalıb və ya elə qızıl da var ki, biz onu daxili bazardan almışıq. Həmin qızılların satışında dollar sistemini tətbiq etmirik. Yalnız xaricdən gətirdiyimiz yeni qızılları nisyə gəlib götürən olanda bu günün məzənnəsini nisyə dəftərinə qeyd edirik. Sonra da həmin adam 3 gün və ya 1 ay sonra gətirib pulun qalan hissəsini verəndə dolların həmin günə olan məzənnəsi ilə qalıq borcunu manata çevirib deyirik. Bu azala da bilər, arta da. Dollardan asılıdır. Biz də bu qızılları dollarla aldığımız üçün bu cür etməyə məcburuq ki, itkimiz olmasın".

Satıcılar bu sistemlə özlərini sığortalamaq məqsədi güdüb özlərinə haqq qazandırsalar da, alıcılar bunu bir o qədər də xoş qarşılamırdılar. Oğlunun toyuna hazırlaşan və gəlini üçün qızıl almağa gəldiyini deyən **Səbinə Quliyeva** qızılın dollarla hesablanmasının yanlış bir addım hesab etdiyini deyirdi: "Mən bu gün 2 min manata bir qızıl alıram yarısının pulunu bir həftəyə gətirib verəcəyəm. O bir həftədə dollar 2 manata qalxsa, nə edəcəyəm? O zaman mənim borcum aldığım qiymətin də iki qatına çıxacaq. Banklar kimi hərəkət edirlər. Bu cür yanaşma qəbul edilməzdir. İnsanlara da yazıqları gəlsin. Qızılın qiyməti düşdü deyə sevinmişdik. Bu cür edəcəklərsə, qızılın qiymətinin düşməsinin bizə nə faydası oldu? Dollara güvən yoxdur. Yatıb durduq bahalaşdı..."





### Maraqlıdır, qızılın bu cür satışı düzgündürmü?

**İqtisadçı-ekspert Natiq Cəfərli** qızıl satışı ilə məşğul olan şəxslərin bunu özlərini sığortalamaq məqsədi ilə etdiyini dedi: "Qızıl satışı ilə məşğul olan şəxslər adətən özlərini sığortalamaq istəyirlər. Əslində məsələni bir növ də dünya birjalarında qızılın qiymətinə bağlayırlar. Bir də Azərbaycan valyutasının məzənnəsinin tez-tez dəyişməsi ilə əlaqədar olaraq özlərini sığortalamaq üçün belə bir addım atırlar. Qanunvericiliyə görə təbii ki, Azərbaycan daxilində bütün alış-satış əməliyyatları milli valyuta ilə aparılmalıdır. Bu milli valyuta ilə aparılması da qanunların tələbidir. Sadəcə olaraq satıcı ilə alıcı arasında şifahi və yaxud da yazılı bir sövdələşmə olursa, bu qanun pozuntusu deyil. Sadəcə dediyim kimi qızıl satışı ilə məşğul olanlar dünya bazarında gedən proseslərə və manatın məzənnəsini nəzərə alaraq özlərini sığortalamağa çalışırlar. Əslində bu da aldadıcı bir manevrdir. Çünki Azərbaycanda qızıl alqı-satqısı ilə məşğul olan insanların böyük əksəriyyəti qızılları daxili bazarlardan alırlar. Çünki son zamanlar vətəndaşların gəlir səviyyələri aşağı düşdüyü üçün çox zaman keçən illərdə aldıqları qızıl-zinət əşyalarının satışa çıxarmaq yolu ilə müəyyən dərəcədə öz dolanışıqlarını təmin etməyi düşünürlər. Yeni təsadüfən satılan qızıl əşyalarının böyük əksəriyyəti demək olar ki, daxili bazardan yığılmış məhsullardır. Bunun əslində bir az da xarici bazarlarda gedən proseslərə istinad etmək açığı qızıl satanlar tərəfdən çox da doğru yanaşma deyil. Çünki əgər məhsulların böyük əksəriyyəti, özü də əhalidən çox ucuz qiymətə əhalidən alınırsa, dünya bazarında qızılın qiymətinin dəyişməsinin o qədər də böyük əhəmiyyəti olmamalıdır. Amma istinad etdikləri dünya bazarıdır".

**İqtisadçı-ekspert qızıl alarkən borcun dollarla hesablananda alıcı ilə satıcı arasında razılaşma varsa, qanunun pozulmadığını dedi:** "Bu sistem banklarda da var. Məsələn, banklar bir çox hallarda dollar kreditlərinin ödənişlərini manatla qəbul edəndə məzənnəyə bağlayırlar. Təəssüf ki, Azərbaycan Ali Məhkəməsi də bankların haqlı çıxması haqqında qərar verdi. Əgər mən bu gün gedib əlimdə olan manatla qızıl ala bilmirəmsə və bu dollar məzənnəsinə görə mənə hesablanırsa, təbii ki, bu qanun pozuntusudur".

❑ **Günel MANAFLI**

**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 283 (6604) 20 dekabr2016



## Bir qadın ömrü boyu geyimə 125 min dollar xərcləyir

"Daily Mail"in araşdırmasına görə, qadınlar həyatları boyu geyimə 125.000 dollar xərcləyir. Buraya çanta, papaq kimi aksessuarlar da daxildir. Qadınların 10%-i hər həftə yeni bir şey aldıqlarını etiraf edir. Amerikalı telejurnalist, müğənni və kitab yazarı Tammi Faye Bakker bir dəfə "Alış-veriş etməyə üstünlük verirəm, çünki terapevtdən daha ucuza başa gəlir" demişdi. 125.000 dollar xərcləməsindən daha çaşdırıcı gələn məqam isə eyni araşdırmaya qatılan qadınların 60%-i hər səhər nə geyəcəyinə qərar verə bilmədiklərini və qarderoblarının onlara kafi gəlməsini söyləməsi olub.

Estetik əməliyyatlar da qadınların çoxlu pul xərclədi bir sahədir. Nəhəng sektor halına gələn estetik əməliyyatlara həvəs göstərən qadınların yaş qrupu 19-40 yaş arasında dəyişir. Ən çox edilən əməliyyat isə sinə böyütmə əməliyyatıdır. Daha sonra burun əməliyyatı və arıqlamaq prosedurları gəlir. Siyahının davamını isə üz dartdırma əməliyyatı izləyir.

İl ərzində işləyən qadınlar yığdıqları pulları tətildə xərcləyirlər. "Daily Mail"in yazdığı xəbərə görə, qadınlar yalnız tətilə hazırlanmaq üçün təxminən 737 dollar xərcləyirlər. Tətil hər yaşdan və cinsdən insanın çox ehtiyacı olan sahə olsa da, son zamanlar qadınlar bu sahəyə daha çox maraq göstərirlər. Dolayısı ilə daha çox pul "dağıdırlar".

# Gündə bir armud yesəniz...

**ABŞ-ın Luiziana Universitetinin alimləri armudun arıqlamağa kömək etdiyini sübut ediblər. Lenta.ru saytının xəbərinə görə, aparılan araşdırmalar zamanı arıqlamaq niyyətində olan tədqiqat iştirakçıları iki qrupa ayrılıblar. Hər iki qrup üçün eyni qida rasionu tərtib edilsə də, qruplardan birinin iştirakçılarına hər gün əlavə olaraq bir armud verilib. Üç həftə sonra qida rasionunda armud olanların çəkisinin əhəmiyyətli dərəcədə azaldığı müşahidə edilib.**



Alimlər arıqlamanın səbəbini onunla izah edirlər ki, armudun tərkibində fruktozanın miqdarı çox olduğu üçün bu meyvəni yeyənlər əlavə şirniyyatdan imtina ediblər.

# Qoz-fındıq yeyənlər səhhətindən daha az narazıdır

**Alimlər çoxdandır bəzi insanların orta statistik adamdan çox yaşamasının sirrindən baş çıxarmağa çalışırlar. Stenford Universitetinin alimləri müəyyən ediblər ki, rasionunda müəyyən məhsullar olan insanların ömrü 20 il uzana bilər. Alimlərin yeni araşdırmasında 40 yaşından başlayan yaş qrupundan olan 11 min kişi və qadın iştirak edib. Onlar hər gün yediklərini təsvir etmək üçün gündəlik tutublar.**

Alimlər araşdırmanın nəticələrini təhlil edəndən sonra müəyyən ediblər ki, ölüm hallarının çoxuna yanlış qidalanma səbəb olub. Həmçinin onlar aydınlaşdırıblar ki, meyvə-tərəvəz, qoz-fındıq yeyən adamlar özlərini pis hiss etməkdən az şikayət ediblər və 20 il çox yaşayıblar.

Alimlər əmindirlər ki, meyvə-tərəvəz, qoz-fındıq insanın ömrünü uzadır, çünki bu məhsullar ürək-damar sisteminin fəaliyyətini yaxşılaşdırır və bütövlükdə orqanizmə müsbət təsir göstərir.

Onu da qeyd edək ki, tədqiqatda əvvəllər insult və ya ürək tutması keçirmiş insanlar iştirak ediblər. Tədqiqatçılar əvvəllər xəstə olmuş adamları məxsusi olaraq seçmişlər ki, qidalanma ilə sağlamlığın əlaqəsi haqqında daha dəqiq məlumat ala bilsinlər.





## Diş əti problemləri xərçəngə səbəb ola bilər

**İsveç Tibbi Tədqiqatlar İnstitutunun mütəxəssisləri müəyyən ediblər ki, diş əti problemləri orqanizmdə onkologiyanın formalaşması amilləri ilə sıx bağlıdır. Alimlər diş ətini zəifləmiş insan orqanizmində bədxassəli şişin sürətlə inkişafının əsas səbəblərindən biri adlandırıblar. Tədbir görülməzsə, orqanlarda bədxassəli xərçəngin sürətlə inkişafını dayandırmaq mümkün olmayacaq.**

Ekspertlər diş əti xəstəliklərindən əziyyət çəkən insanlara müraciət edərək, onları dərhal regional stomatoloji kabinetlərə müraciət etməyə çağırıblar. Diş ətinin hətta azacıq ağrıması, zəifləməsi və qanaxması orqanizmdə onkologiya əlamətlərindən birinin formalaşmasının səbəbi ola bilər.




**QOÇ** - Dekabr ayının bu təqvimi daha çox yeni əlaqələrlə yadda qalacaq. Qəribə də olsa, ulduzlar məsləhət görür ki, bu gün birinci başlamayasınız. Bir sözlə, risk etməyə dəyməz.

**BUĞA** - Sizin üçün həftənin ən gərgin iş günüdür. Bu səbəbdən də səbrli və məsuliyyətli olmağınız vacibdir. Yorulsanız, axşama yaxın qonaq gedin. Dostlarınızla ünsiyyətdə diqqətli olun.

**ƏKİZLƏR** - Bütün vaxtınızı ailə-sevgi münasibətlərinin yaxşılaşmasına yönəldin. Qarşı tərəfə güzəştə getməyi bacarsanız, sizə qarşı rəğbət daha da artacaq. Uzaq yola çıxmayın.

**XƏRÇƏNG** - Qarşılıqlı münasibətlərdə ümumi vəziyyət qənaətbəxş olsa da, işlə bağlı müəyyən xoşagəlməzliklər də istisna olunmur. Qərar çıxararkən mövcud reallığı mütləq nəzərə alın.

**ŞİR** - Hansısa uğura yiyələnmək fikrinə düşməyin. Yaxşı olar ki, başınızı aşağı salıb gündəlik qayğılarınızla məşğul olasınız. İqlimin dəyişkənliyi səhhətinizə zərər yetirə bilər.

**QIZ** - Baxmayaraq ki Ay bürcünüzdə qərar tutub, ciddi perspektivlər haqqında düşünməyə dəyər. Yaxın gələcəyiniz hazırkı seçiminizdən birbaşa asılıdır. Bəxtinizdə pul da var.

**TƏRƏZİ** - ."Üçüncü artıqdır" prinsipini qulağınızda sırğa edin. Çünki istənilən məsələdə yalnız ikitərəfli mövqe nümayiş etdirməklə uğur qazana bilərsiniz. Daxili orqanlarınıza fikir verin.

**ƏQRƏB** - Təxminən saat 15-ə qədər gərgin məqamlar yaşaya bilərsiniz. Göstərilən ərəfədə kiminsə işinə müdaxilə etməyin. Sonrakı saatlarda sevindirici xəbərlərin şahidi olacaqsınız.

**OXATAN** - Sədaqətinə şübhə ilə yanaşdığınız adamlarla ciddi işbirliyi yaratmağa çalışmayın. Əks təqdirdə əliniz boşda qalacaq. Əməkdaşlıq zəminində ehtiyatlılıq tədbirlərindən yararlanın.

**OĞLAQ** - Qarşınızda duran bu maraqlı təqvimdə bütün gücünüzü münasibətlərin tənzimlənməsinə yönəldin. Böyüklük göstərin, təmkinli olun. Bunu bacardığınız təqdirdə günün ümumi mənzərəsindən razı qalacaqsınız.

**SUTÖKƏN** - Dekabr ayının ən uğurlu günlərindən birini yaşayacaqsınız. Odur ki, özünüzdə təmkin tapıb emosiyalara uymayın. Saat 13-dən sonra fəaliyyətinizdə irəliləyişlər olmalıdır.

**BALIQLAR** - Yeni əlaqə və sövdələşmələr üçün normal gündür. Əlavə işlərə, xüsusən də əyləncələrə meyl etməyin. Ən azı ona görə ki, iştirakçısı olduğunuz hər bir müzakirədə vəziyyət xeyrinizə olacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Atalar çox yatır, ya analar?

**Uşaq sahibi olan qadınlar həftədə 5 saat, kişilər isə 2 saat daha az yatır. Cütlüklər üzərində aparılan araşdırmaya görə, xüsusən iş qadınları ana olandan sonra həftəlik yuxularından "itirirlər". Avstrliyada yerləşən Queensland Üniversitetində aparılan araşdırmaya görə, işgüzar qadınlar evdar həmcinslərindən həftə ərzində 5 saat daha az yatırlar. Araşdırma onu da göstərib ki, uşaq sahibi olmaq ataların da yuxu sistemini dəyişdirir. Bir qadın ana olan zaman həftəlik orta hesabla 48.8 saat yatır. Bu müddət uşaqların sayı artdıqca azalır. Analar 2-ci uşaqlarına sahib olduqları zaman yuxu müddəti 45.8 saata, 3-cü uşaqda isə 44.5 saata qədər azalır. Uşaq sahibi olmayan qadınların yuxu müddəti isə həftəlik orta hesabla 54 saatdır.**

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750